RƏSMİ DÖVLƏT QƏZETİ

# AZƏRBAYCAN

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

№ 138 (8454) CÜMƏ, 17 iyul 2020-ci il | Qəzetin əsası 1918-ci ildə qoyulmuşdur | www.azerbaijan-news.az





# Ermənistan başından zərbə aldı

İyulun 12-dən etibarən dövlət sərhədlərimiz istiqamətində Ermənistanın hərbi təcavüzünün qarşısının alınması və düşmənə sarsıdıcı zərbələrin endirilməsi Azərbaycan Ordusunun gücünün əyani nümayişi oldu. Hələ 4 il əvvəl, 2016-cı ilin aprel ayında ciddi məğlubiyyətə uğradılan düşmən ölkə, bu dəfə də Azərbaycan qarşısında zəifliyinin şahidi oldu.

## Düşmənə növbəti dəfə sarsıdıcı zərbələr endirildi

Məlum olduğu kimi, faşizm ideologiyasına sahiblənən Ermənistan vaxtilə Almaniyanın SSRİ-yə qarşıya etdiyi kimi davranaraq iyulun 12-də Azərbaycan ərazilərinə qəflətən hücum edib. Uzun müddət hazırlıq işləri aparan düşmən öncə artilleriya atəşləri ilə sərhədin qarşı istiqamətindəki Azərbaycan hərbçilərinin mövqelərini atəşə tutub. Məqsəd bununla mövqelərimizi dağıdaraq onların ələ keçirilməsi idi.

Lakin düşmən hücumun elə ilk anından Azərbaycan Ordusunun güclü müqaviməti və əks həmləsi ilə üzləşdi. Güclü zərbələr alan erməni hərbi birləşmələri elə gəldikləri kimi də geri qayıtmağa məcbur oldular. Məğlubiyyətini həzm edə bilməyən Ermənistan tərəfi iyul ayının 13-də və 14-də də Azərbaycan ərazilərini atəşə tutmağa, davam etdi, Azərbaycanla sərhədlərin digər istiqamətlərində təxribatlar törətməyə cəhd göstərdi. Azərbaycan Silahlı Qüvvələrinin qətiyyətli zərbələri nəticəsində bu günlərdə düşmənin bütün döyüş mövqeləri, dayaq nöqtələri məhv edildi. Ermənistan ordusu ciddi texniki və canlı itkiyə məruz qaldı.

Nazirlər Kabinetinin 2020-ci ilin birinci yarısının sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunan iclasında Azərbaycan Ordusunun həyata keçirdiyi qisas əməliyyatının ikinci fazası və cəza tədbirləri barədə danışan Prezident İlham Əliyev deyib: *“Son iki gün ərzində düşmənə növbəti dəfə sarsıdıcı zərbələr endirildi. Bizdə olan məlumata görə, onlarla erməni hərbçi məhv edildi, onların sərhədboyu yerləşən dayaq məntəqələrinin böyük hissəsi darmadağın edildi. O cümlədən onların bəhanə kimi gətirdiyi məlum postun da bütün infrastrukturu darmadağın edildi, bu post artıq mövcud deyil. Düşmənin texnikası, silah-sursat anbarları, dayaq məntəqələri, avtomaşınlar, sisternlər, canlı qüvvənin yerləşdiyi yerlər Azərbaycan Ordusu tərəfindən dəqiq və sərrast atəşlə məhv edilmişdir”.*

Düşmənə qarşı həyata keçirilən hərbi əməliyyatlar, cəza tədbirləri zamanı hərbçilərimiz, hərbi qulluqçularımız canlarından keçdilər, torpaq uğrunda şəhid oldular. General Polad Həşimovun, polkovnik İlqar Mirzəyevin həlak olması göstərdi ki, Azərbaycan Ordusunun rütbəsindən və vəzifəsindən asılı olmayaraq istənilən hərbi qulluqçusu vətən uğrunda canını fəda etməyə hazırdır. Şəhidlərimizin qanı yerdə qalmadı, düşmən nə qədər gizlətməyə cəhd göstərsə də, ordumuzun sərrast və sarsıdıcı zərbələri nəticəsində çoxsaylı sanlı itki verməsi faktdır. Yayılan videolardan da Ermənistan ordusunun səhra idarəetmə məntəqəsinin, hərbi nəqliyyat vasitəsinin darmadağın və məhv edildiyi aydın görünür. Düşmən Aprel döyüşlərində də itkilərinin olduğunu gizlətmişdi. Tədricən Ermənistan özü çoxsaylı itkilərinin olduğunu etiraf etdi.

İyulun 16-sı səhər saatlarında Ermənistan silahlı qüvvələrinin Tovuz rayonu istiqamətindəki mövqelərimiz üzərində kəşfiyyat uçuşları keçirməyə cəhd göstərən taktiki pilotsuz uçuş aparatının vurulması göstərir ki, əməliyyat şəraiti Azərbaycan Ordusunun tam nəzarəti altındadır.

Ardı 6-cı səh.

# Kadr siyasətində peşəkarlıq, vətənpərvərlik və milli dəyərlər əsas olmalıdır

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyulun 16-da Ceyhun Bayramovu Xarici İşlər naziri təyin olunması ilə əlaqədar videoformatda qəbul edib. AZƏRTAC xəbər verir ki, dövlət başçısı qəbulda çıxış etdi.



## Prezident İlham Əliyevin çıxışı

Bu gün mən sizi Xarici İşlər naziri vəzifəsinə təyin edirəm. Əminəm ki, siz bu yüksək etimadı doğruldacaqsınız. Bu sahə sizin üçün yeni olsa da, idarəetmə təcrübəniz kifayət qədər böyükdür, müxtəlif vəzifələrdə işləmisiniz, o cümlədən nazir vəzifəsində.

Bununla bərabər, Azərbaycanın xarici siyasəti ilə bağlı mənim tərəfimdən dəfələrlə əsas istiqamətlər müəyyən edilmişdir və bu haqda açıqlamalar verilmişdir. Bizim xarici siyasətimiz açıqdır. Biz xarici siyasət prioritetlərimizi açıq şəkildə bəyan edirik və məqsədlərə çatmaq üçün ardıcıl siyasət aparırıq. Bütün ölkələrlə bərabərhüquqlu qarşılıqlı hörmət və etimad əsasında münasibətlərin qurulması bizim əsas prinsiplərimizdən biridir. Hesab edirəm ki, son illərdə Azərbaycan bu sahədə böyük uğurlar əldə edib. Azərbaycan dünya birliyinin ləyaqətli üzvüdür. Dünyada bizə olan hörmət artmaqdadır. Bunu müxtəlif vaxtlarda Azərbaycana beynəlxalq aləm tərəfindən göstərilən dəstək əyani şəkildə sübut edir. Bizim dünyadakı rolumuz artır, bölgədə ölkəmizin iştirakı olmadan, maraqları təmin edilmədən hər hansı bir layihənin icrası qeyri-mümkündür. Bizim siyasətimiz Azərbaycana illər boyu daha çox dostlar qazandırıbdır. Təsadüfi deyil ki, bu gün bizim beynəlxalq mövqelərimiz kifayət qədər güclüdür.

Əlbəttə ki, xarici siyasətlə bağlı əsas istiqamətləri mən bu gün bir daha qeyd edəcəyəm. Amma ondan əvvəl demək istəyirəm ki, ilk növbədə, nazirlik sistemində vəziyyət sağlamlaşdırılmalıdır.

Ardı 2-ci səh.

# “Böyükşor” yarımstansiyası əhalinin dayanıqlı elektrik təchizatını təmin etmək baxımından mühüm əhəmiyyətə malikdir

İyulun 16-da Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Bakının Sabunçu rayonunda “Azərenerji” Açıq Səhmdar Cəmiyyətinin (ASC) yeni tikilən “Böyükşor” yarımstansiyasının açılışında iştirak ediblər.

AZƏRTAC xəbər verir ki, dövlət başçısı və birinci xanım yarımstansiya ilə tanış oldular.

“Azərenerji” ASC-nin sədri Baba Rzayev yarımstansiyanın texniki göstəriciləri barədə Prezident İlham Əliyevə və birinci xanım Mehriban Əliyevaya məlumat verdi.

Bildirildi ki, yeni tikilən “Böyükşor” yarımstansiyasının gərginliyi 220/110/10 kV, gücü isə 750 MVA-dır. Yarımstansiyanın müasir idarəetmə sistemi ilə təchiz edilən mərkəzi idarəetmə otağında iş prosesinə real zaman rejimində nəzarət olunması və göstəricilərin “Azərenerji” ASC-nin SCADA sisteminə ötürülməsi məqsədilə micro-SCADA sistemi quraşdırılıb.



Prezident İlham Əliyev yarımstansiyanı işə saldı.

Bu yarımstansiya paytaxtın Sabunçu, Binəqədi, Nərimanov və Nizami rayonlarında yerləşən bir sıra mövcud və tikilməsi planlaşdırılan iri infrastruktur obyektlərinin, sosial-sənaye müəssisələrinin və əhalinin dayanıqlı elektrik təchizatını təmin etmək baxımından mühüm əhəmiyyətə malikdir.

Ardı 3-cü səh.

# İlham Əliyev Paşinyanın yalanını növbəti dəfə ifşa etdi

## İki il əvvəl Ermənistanda çiçəklənmə olacağını vəd edən hakimiyyət daxili narazılığı unutdurmaq üçün cəbhə xəttində yenidən avantüraya gedir

Ağır sosial-iqtisadi problemlər məngənəsində boğulan Ermənistan pandemiya fonunda özünün daha sürətli tənəzzül dövrünə qədəm qoyub. Bu ölkədə real vəziyyətin təhlili göstərir ki, Ermənistanın üzləşdiyi böhran qarşıdakı müddət ərzində daha da dərinləşəcək. Belə vəziyyətdə Ermənistanda sayı sürətlə azalmaqda olan əhalinin hakimiyyətə qarşı sosial narazılığının daha da güclənəcəyi təbiidir.

Belə halda proseslərin gedişi Paşinyan iqtidarını dalana dirədiyindən o, sələfilərinin yolu ilə gedərək daxili narazılığı səngitmək üçün cəbhədə təxribatlar törətməyə daha çox diqqət yetirməyə başlayıb. Amma bu hal da Paşinyan üçün baha başa gəlir.

Son günlər Azərbaycan-Ermənistan dövlət sərhədində gərginlik müşahidə edilir. Ermənistan silahlı qüvvələrinin bölmələri atəşkəs rejimini kobud şəkildə pozaraq artilleriya qurğularından istifadə etməklə Ermənistan və Azərbaycan dövlət sərhədinin Tovuz rayonu istiqamətində Azərbaycan Silahlı Qüvvələrinin mövqelərini atəşə tutub. Azərbaycan əsgəri həmişə olduğu kimi bu dəfə də işğalçı ölkəyə layiqli cavab verib.

Nazirlər Kabinetinin 2020-ci ilin birinci yarısının sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunan iclasında çıxışı zamanı bu mövzuya toxunan Prezident İlham Əliyev bildirib ki, erməni hərbi təxribatının birinci səbəbi Ermənistanda hazırda mövcud olan siyasi və iqtisadi böhrandır.

Ardı 6-cı səh.






# İki düşmən, iki ön cəbhə

## Daha məsuliyyətli davranaraq, xəstəliklə mübarizəyə və ordumuzun öz işlərini lazımi şəkildə yerinə yetirməsinə töhfə verməyin məqamıdır

Dünyada COVID-19 pandemiyasının yaratdığı gərginlik davam edir. Gözlənilənin əksinə olaraq yeni növ koronavirus getdikcə yoluxma sayını artırır. Virusun zəiflədiyini düşünərək sərt karantin rejimlərini yumşaldan, turistlər üçün sərhədlərini açmaq istəyən ölkələr indi bu qərarlarından vaz keçmək məcburiyyətində qalıblar.

Mütəxəssislər, Ümumdünya Səhiyyə Təşkilatının üzvləri isə hazırkı vəziyyətin ürəkaçan olmadığını bildirirlər. Hətta bəzi ölkələrdə infeksiyanın üçüncü dalğasının başlaması barədə məlumatlar mövcuddur. Sözün əsl mənasında müasir dünya “taclı” bəlanın əsirinə çevrilib və onun qarşısını almaqda acizlik çəkir. Tətbiq edilən karantin rejimləri isə hələlik sadəcə virusun yoluxma sayını azaltmaq, onu nəzarətdə saxlamağa imkan verir. Bu müsbət nəticə isə vətəndaşların pandemiyanın şərtlərinə əməl edilməsi sayəsində əldə oluna bilir.

Ardı 6-cı səh.

# Elektron hökumətin inkişafı: Azərbaycan BMT-nin bu hesabatında «yüksək» qrupdadır

Xəbər verildiyi kimi, bu günlər BMT-nin Elektron Hökumət Sorğusunun 11 nəşri yayılmışdır. Hesabatda Azərbaycan elektron hökumətin inkişafı üzrə 193 ölkə arasında 70-ci, okeanlara çıxışı olmayan inkişaf edən ölkələr sırasında ilk üçlükdə qərarlaşmışdır.

Azərbaycanın bu növbəti uğurunu şərh edən İqtisadi İslahtların Təhlili və Kommunikasiya Mərkəzinin icraçı direktoru Vüsal Qasımlı deyir ki, sözügedən hesabatda ölkələr elektron hökumətin inkişafı indeksinə görə “ən yüksək”, “yüksək”, “orta” və “aşağı” qruplara bölünmüşlər. “Azərbaycan bu təsnifatda “yüksək” qrupa aid edilmişdir. Üstəlik hesabatda xüsusi vurğulanmışdır ki, Azərbaycan “ən yüksək” qrupa keçməyə real namizəddir”, - deyən icraçı direktor bildirmişdir ki, ölkəmiz bu reytinqdə 2018-ci ilə nisbətən indeksini 0,66-dan 0,71-ə yüksəlmişdir: “Hansı ki, indeks 0,75 olanda ölkə elektron hökumətin ən yüksək inkişaf səviyyəsinə çatmış sayılır”. Müqayisə üçün deyək ki, Azərbaycanda elektron hökumətin inkişafı indeksi (0,71) orta dünya göstəricisindən (0,6) 11, yerləşdiyi Asiya regionunkundan (0,64) isə 7 bənd yüksəkdədir.

Bəli, bu gün ölkəmizdə dövlət qurumları tərəfindən “Elektron Hökumət” informasiya texnologiyalarından istifadə etməklə vətəndaşlara, hüquqi və fiziki şəxslərə, xarici vətəndaşlara və vətəndaşlığı olmayanlara informasiya və elektron xidmətlərin göstərilməsinə şərait yaradılır. Azərbaycanın Rəqəmsal Ticarət Qovşağı ilə qeyri-rezidentlərə dünyada ilk dəfə olaraq mobil və elektron imza verməklə dünyanın istənilən nöqtəsindən dövlət xidmətlərini əlçatan edir. Prezident İlham Əliyevin rəhbərliyi ilə yaradılan ASAN brendinin ardınca Birinci vitse-prezident Mehriban xanım Əliyevanın təşəbbüsü olan DOST layihəsi məşğulluq və sosial müdafiə xidmətlərinin keyfiyyətinin yüksəldilməsi, şəffaflığın artırılması, innovativ həllərin tətbiqi və vətəndaş məmnunluğunun təmin edilməsi məqsədini daşıyır.

Ardı 6-cı səh.

AZƏRBAYCAN www.azerbaijan-news.az

# Kadr siyasətində peşəkarlıq, vətənpərvərlik və milli dəyərlər əsas olmalıdır



Əvvəli 1-ci səh.

İlk növbədə, təhlil aparılmalıdır, nöqsanların aradan qaldırılması üçün əməli tədbirlər görülməlidir. Kadr siyasətində şəxsi tanışlıq, rəğbət, dostluq əlaqələri yox, peşəkarlıq, vətənpərvərlik və milli dəyərlər əsas olmalıdır. Peşəkar, Vətənə bağlı olan, bilikli və Azərbaycanın maraqlarını layiqincə müdafiə edə bilən kadrlar önə çəkilməlidir. Nazirlikdə müxtəlif idarələr, o cümlədən rəhbər işçilər arasındakı koordinasiya işləri lazımi səviyyədə təmin edilməlidir. Nazirliyin fəaliyyəti üçün əlavə tədbirlərin görülməsi haqqında sizdən təkliflər gözləyəcəyəm.

Bizim xarici nümayəndəliklərdə görülən işlər ciddi təhlil olunmalıdır, səfirliklərin işinin səmərəlilik əmsalı müəyyən edilməlidir. Bəzi hallarda bizim səfirliklərimizdə çalışan insanlar öz işinə laqeyd yanaşırlar, passiv olurlar, ölkəmizin maraqlarını lazımi səviyyədə müdafiə və təmin edə bilmirlər. Ölkəmiz haqqında reallıqları geniş ictimaiyyətə çatdıra bilmirlər, ya da ki, bunu etmək istəmirlər. Vaxtaşırı Azərbaycana qarşı ünvanlanan şər-böhtan xarakterli iradlara lazımi cavab verə bilmirlər, ya da ki, bunu etmək istəmirlər. Ona görə bütün bu məsələlər, əlbəttə ki, sizin gündəlik fəaliyyətinizdə önəmli yer tutmalıdır. Bizim xarici nümayəndələrimiz, diplomatlarımız ölkəmizin maraqlarını tam təmin etməlidirlər. Mən deyə bilərəm ki, bizim xaricdə fəaliyyət göstərən diplomatlarımızın əksəriyyəti yüksək meyarlara cavab verir. Ancaq vəziyyət təhlil edilərkən, ilk növbədə, nöqsanlara fikir vermək lazımdır. Səfirliklərimiz xaricdə yaşayan, fəaliyyət göstərən Azərbaycan icmaları ilə sıx əlaqədə olmalıdırlar. Onlar diaspor təşkilatlarının koordinasiya işinə öz töhfəsini verməlidir ki, həm diaspor təşkilatları, həm səfirliklər Azərbaycanın maraqlarını təmin etsinlər və Azərbaycan reallıqlarını çatdırsınlar.

Xarici kütləvi informasiya vasitələri ilə sıx təmaslar olmalıdır. Azərbaycan haqqında bəzi hallarda gedən yanlış məlumata dərhal adekvat reaksiya verilməlidir, formal yox. Çünki bir çox hallarda biz bunu görmürük. Ölkəmiz haqqında qəsdən uydurulan, heç bir əsası olmayan şayiələr, əgər mən müdaxilə etməsəm, təkzib olunmur. Ya bu işlə məşğul olmaq istəmirlər, ya başqa göstərişlər alırlar. Bu gün sirr deyil ki, Azərbaycana qarşı təşkil edilmiş və koordinasiya olunmuş çirkin kampaniya aparılır. Azərbaycan vətəndaşları yaxşı bilirlər ki, bu kampaniyanın mənbəyi və səbəbi nədir. Bir çox səbəblər var, onların arasında bizim xalqa söykənən müstəqil siyasətimizdir və özümüzü ləyaqətli aparmağımızdır. Bəs bu kampaniyaya adekvat cavab verilir, yoxsa yox? Verilmir. Xaricdə bəzi anti-Azərbaycan ünsürlər öz fəaliyyətində, öz çirkin əməllərində, bəyanatlarında yaşadıqları ölkələrin qanunlarını kobudcasına pozurlar, terrora çağırışlar edirlər, konstitusiya quruluşunun dəyişdirilməsinə çalışırlar. Bütün bunlar nəinki Azərbaycanın, bir çox ölkələrin qanunvericiliyində, o cümlədən Cinayət Məcəlləsində təsbit edilmiş məsələlərdir və ona görə bu cinayəti törətmiş insanlar cinayət məsuliyyətinə cəlb edilməlidir.

Amma bizim xaricdə fəaliyyət göstərən diplomatik nümayəndəliklər bu məsələyə diqqət yetirirlər? Deyə bilərəm ki, yox. Baş qoşmaq, heç kimlə pis olmaq istəmirlər. Bəzi hallarda fəaliyyət göstərdikləri ölkələrdə Azərbaycanın maraqlarını yox, özlərini həmin ölkələrin yüksəkvəzifəli nümayəndələrinə yaxşı tərəfdən göstərmək üçün o ölkələrin maraqlarını müdafiə edirlər.

Mən bir daha demək istəyirəm ki, biz bütün ölkələrlə normal dostluq və tərəfdaşlıq münasibətlərinin formalaşmasında əməli addımlar atırıq. Amma bu, o demək deyil ki, öz ölkənin, öz xalqının maraqları kənarda qalsın. Bizim xaricdəki bəzi diplomatlarımız fəaliyyət göstərdikləri ölkələrin elçilərinə çevrilirlər. Buna son qoyulmalıdır. Bu da yanlış kadr siyasətinin təzahürüdür. Bəzi diplomatlar dövlətə xəyanət ediblər, satqınlıq ediblər və bunu gizlətmirlər. Yaşadıqları ölkələrin xüsusi xidmət orqanlarının nəzarətindədirlər. Bizdə kifayət qədər məlumatlar var. Bu gün Azərbaycana qarşı çirkin kampaniya aparan, özünü azərbaycanlı kimi təqdim edən, əslində, ermənilərdən də pis olan ünsürlərin mütləq əksəriyyəti yaşadıqları ölkələrin xüsusi xidmət orqanlarının nəzarətindədir. Onlardan pul və təlimatlar alırlar. Bizdə bu məsələ ilə bağlı kifayət qədər məlumatlar var. Bizim xüsusi xidmət orqanlarımız tərəfdaş ölkələrin xüsusi xidmət orqanlarına dəfələrlə bu haqda məlumatlar vermişlər. Demişlər ki, biz bilirik, filan adamı siz istiqamətləndirirsiz, filan adama siz ev vermisiniz, filan adamın çirkin çıxışları sizin idarənizdə yazılır. Biz bütün bunları bilirik. Bir daha demək istəyirəm ki, bu, o ölkələrin riyakarlığını göstərir. Çünki mən bu haqda dəfələrlə demişəm. Bir tərəfdən, bizə dostluq siqnalları göndərilir, üzdə tərəfdaşlıq edirlər, digər tərəfdən, Azərbaycana qarşı kampaniya aparırlar. Bunun da məqsədi Azərbaycanı zəifləmək, Azərbaycanı sarsıtmaq, Azərbaycanı ləkələmək, Azərbaycan rəhbərliyi haqqında olmayan yalanları yaymaqdır. Ancaq həyat artıq göstərir ki, bunun heç bir əhəmiyyəti yoxdur. Çünki Azərbaycan xalqı hər şeyi yaxşı bilir. Bilir ki, bu gün bizim fəaliyyətimizdə Azərbaycan xalqının maraqları hər şeydən üstündür. Çox güman ki, məhz buna görə bizə qarşı bəzi hallarda belə çirkin üsullardan istifadə edilir. Bilirsiniz, müxtəlif vaxtlarda bu üsulların məzmunu və formaları dəyişirdi. Vaxtilə dırnaqarası "müstəqil" qeyri-hökumət təşkilatları vasitəsilə bizə hücumlar edilirdi. Halbuki hər kəs yaxşı bilir ki, bu qeyri-hökumət təşkilatları hansı mənbələrdən maliyyələşir - böyük dövlətlərin xarici siyasət orqanları tərəfindən maliyyələşir. Bir müddət xarici ölkələrin kütləvi informasiya vasitələri bizə qarşı çirkin kampaniya aparırdı - həm elektron, həm yazılı kütləvi informasiya vasitələri. Biz bu kütləvi informasiya vasitələrinin hansı mənbələrdən maliyyələşdiyini də bilirik. Bunun heç bir faydası olmadı, əksinə, Azərbaycan ictimaiyyəti çox yaxşı dərk edirdi, başa düşürdü ki, bunun məqsədi nədir - Azərbaycanı zəiflətmək, Azərbaycanda xaos yaratmaq, Azərbaycanı 1990-cı illərin əvvəllərinə qaytarmaq və ondan sonra bu imkanlardan istifadə edib öz maraqlarını təmin etmək. Bu keçməyəndə isə növbəti çirkin üsullara əl atıldı. Özlərini azərbaycanlı kimi təqdim etməyə çalışan, ancaq mənəvi cəhətdən eybəcərliyin rəmzinə çevrilmiş antimilli ünsürlər indi xarici xüsusi xidmət orqanlarının rəhbərliyi altında Azərbaycana qarşı çirkin kampaniya aparırlar. Bu, düşünülmüş siyasətdir və əslində, bu siyasətin məqsədi Azərbaycan xalqının əsrlərboyu qoruduğu milli dəyərləri sarsıtmaqdır, bizim mənəvi sütunlarımızı dağıtmaqdır. Çünki Azərbaycan xalqının mentaliteti bunu inkar edir. Heç vaxt bizim tariximizdə belə çirkin üsullardan, yalanlardan, böhtanlardan istifadə edilmirdi. Bu, bizə xaricdən idxal edilir. Ona görə bizim diplomatlarımız buna qarşı fəaliyyət göstərməlidirlər. Yoxsa ki, "dəymə mənə, dəyməyim sənə" prinsipi ilə işləmək olmaz. Əfsuslar olsun ki, bizim Xarici İşlər Nazirliyində son vaxtlar bu prinsip əsas rol oynayır.

Mən demişəm ki, bizim diplomatiyamız hücum diplomatiyası olmalıdır, milli maraqlar tam təmin edilməlidir. Ancaq bir çox hallarda bunun əksini görürük. Görürük ki, razılaşma prinsipi əsas tutulur, milli maraqları kənara qoyub kiminsə xoşuna gəlmək üçün səylər göstərilir. Bu haqda bir çox məlumatlarım var. Ona görə siz bu məsələləri nəzərdə saxlayın. Bizə elə diplomatik kadrlar lazımdır ki, peşəkar, milli ruhda, milli dəyərlərə bağlı olsunlar, ölkəmizi müdafiə edə bilsinlər.

O ki qaldı, bizim xarici siyasətlə əlaqədar əsas prioritetlərimizə, qeyd etməliyəm ki, mən bu prioritetlər haqqında ictimaiyyətə kifayət qədər geniş açıqlama vermişəm. Bu gün bir daha demək istəyirəm, siz yeni nazir kimi bunu bir daha məndən eşitməlisiniz və Azərbaycan ictimaiyyəti də bunu bir daha eşitməlidir. Qonşu ölkələrlə münasibətlərimiz bizim üçün prioritetdir. Bu münasibətlər çox sağlam zəmində qurulubdur. Artıq həyat və hadisələrin gedişatı onu göstərir ki, bu, çox düzgün siyasətdir. Qonşu ölkələr tərəfindən də Azərbaycana qarşı olan siyasət çox müsbətdir. Biz bu siyasəti dostluq, mehriban qonşuluq prinsipləri əsasında qurmuşuq. Beləliklə, heç bir qonşu dövlətlə, təbii ki, Ermənistan istisna olmaqla, bizim heç bir problemimiz yoxdur. Keçmişdən qalan problemlər həll olunub. Bəzi hallarda bəzi ölkələrin dairələri süni şəkildə bəzi problemlər ortaya atmaq istəyirlər. Ancaq bunun da heç bir səmərəsi yoxdur.

Qonşu dövlətlərlə bizim münasibətlərimiz strateji xarakter daşıyır. Biz bir bölgədə yaşayırıq, biz qonşuyuq və bu qonşuluq əbədi olacaqdır. Eyni zamanda qonşu ölkələrdə yaşayan azərbaycanlılar, əlbəttə, bu münasibətlərdə xüsusi yer tutur və onların rahat yaşaması təbii ki, bizim üçün çox önəmlidir. Bu baxımdan da qonşu ölkələrlə münasibətlər xüsusi əhəmiyyət daşıyır. Həm siyasi, həm iqtisadi, enerji, nəqliyyat, mədəniyyət - bütün sahələrdə bu münasibətləri yüksək qiymətləndirmək olar. Mən deyə bilərəm ki, bizim qonşularımızla münasibətlərimiz nümunəvi xarakter daşıyır. Çünki dünyada gedən proseslər onu göstərir ki, bəzi hallarda qonşular arasında münasibətlər problemli olur.

Bildiyiniz kimi, biz qonşu ölkələrlə üçtərəfli əməkdaşlıq formatında da fəaliyyət göstəririk. Onu da bildirməliyəm ki, bu üçtərəfli formatların təşəbbüskarı da biz olmuşuq. Bu gün bütün qonşularla müxtəlif konfiqurasiyada üçtərəfli əməkdaşlıq formatı icra edilir və bu, həm regional təhlükəsizliyə müsbət təsir göstərir, həm də iqtisadi, enerji, nəqliyyat layihələrinin icrasına gözəl zəmin yaradır. Ona görə Xarici İşlər Nazirliyinin fəaliyyətində qonşu ölkələrlə münasibətlər bundan sonra da prioritet kimi qalacaq.

Bizim İslam Əməkdaşlıq Təşkilatına üzv olan ölkələrlə də münasibətlərimiz çox yaxşıdır. Azərbaycan müsəlman aləminin bir parçasıdır və beynəlxalq təşkilatlarda biz tərəfdən ən çox dəstək alan ölkələr müsəlman ölkələridir və bizə də müsəlman ölkələrindən ən çox dəstək gəlir. Bu yaxınlarda Ermənistanın növbəti hərbi təxribatı ilə bağlı İslam Əməkdaşlıq Təşkilatı bəyanatla çıxış edib, Azərbaycanın haqlı mövqeyini müdafiə edib və biz bunu yüksək qiymətləndiririk. İslam Əməkdaşlıq Təşkilatının xətti ilə Azərbaycanda bir çox tədbirlər keçirilmişdir. Mən bir çox zirvə görüşlərində iştirak etmişəm, həmişə öz çıxışlarımda və öz fəaliyyətimdə İslam aləmində əməkdaşlığın, həmrəyliyin inkişafına fikir vermişəm, səylər göstərmişəm. Bəzi müsəlman ölkələri arasında mövcud olan ixtilafların yumşaldılması, ya da ki, aradan qaldırılması üçün Azərbaycan öz səylərini əsirgəmir və bəzi hallarda bu səylər yaxşı nəticələrə gətirib çıxarır. Çünki, ilk növbədə, müsəlman aləmində həmrəylik olmalıdır ki, biz ənənəvi dostlarımızla öz gələcəyimizi sağlam zəmində qura bilək.

Türkdilli dövlətlər bizim üçün qardaş ölkələrdir və bütün türkdilli dövlətlərlə çox gözəl münasibətlərimiz var. Bildiyiniz kimi, hazırda Azərbaycan Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasına sədrlik edir. Onu da bildirməliyəm ki, türkdilli ölkələrin zirvə görüşləri uzun illərdir keçirilir. Azərbaycan və digər postsovet ölkələri müstəqilliyə qovuşduqdan sonra dərhal belə zirvə görüşləri keçirilir. Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurası təşkilat olaraq Naxçıvan şəhərində yaradılıbdır. Azərbaycanda, Naxçıvan şəhərində keçirilmiş zirvə görüşlərinin birində belə bir təşkilat yarandı və hazırda təşkilat öz potensialını gücləndirir. Onu da bildirməliyəm ki, Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurası da bu yaxınlarda baş vermiş sərhəd münaqişəsi ilə bağlı Azərbaycanı dəstəkləyən açıqlama yaymışdır.

Bizim Avropa İttifaqı ilə əlaqələrimiz də çox möhkəm zəmində qurulub. Avropa İttifaqına üzv doqquz dövlətlə Azərbaycanın strateji tərəfdaşlıq haqqında sənədləri vardır. Bu, Avropa İttifaqının üçdəbir hissəsidir. Hazırda Avropa İttifaqı ilə Azərbaycan arasında yeni saziş üzərində iş aparılır. Sazişin böyük hissəsi razılaşdırılıb. Siz dərhal bu məsələ ilə məşğul olun və bu gün hələ ki, razılaşdırılmamış məsələlərə fikir verin. Hesab edirəm ki, Azərbaycan maksimum dərəcədə konstruktivlik göstəribdir və bu gün hələ də razılaşdırılmamış məsələlər var. Bizim üçün indiki formada onları qəbul etmək deyə bilərəm ki, çox çətin və əhəmiyyətsiz olacaqdır. Çünki mən demişəm, biz ona görə yeni saziş imzalamalıyıq ki, öz maraqlarımızı daha böyük dərəcədə müdafiə edək, təmin edək və qarşı tərəf də həmçinin. Onlar ona görə Azərbaycanla bu sazişi imzalamaq istəyirlər ki, öz maraqlarını müdafiə və təmin etsinlər. Bu da təbiidir. Ancaq gərək bu maraqların uzlaşması olsun. Yəni biz heç vaxt bizi qane etməyən, yaxud da ki, bizə hansısa problem yarada biləcək sazişə imza atmarıq. Bu, əhəmiyyətsizdir, mənasızdır. Biz Azərbaycan xalqına məlumat verməliyik ki, bunu nə üçün edirik. Biz edirik ki, daha yaxşı şərait olsun, əməkdaşlıq üçün daha yaxşı imkanlar yaransın, xalqımız üçün daha geniş imkanlar açılsın. Yoxsa elə saziş imzalansın deyə sazişə qol çəkmək düzgün olmaz. Bizim mövqeyimiz tam açıqdır. Mən bunu bu gün bütün ictimaiyyətə bildirirəm.

Hesab edirəm ki, kompromis üçün yer var. Ancaq gərək xoş niyyət və qarşılıqlı iradə olsun. Azərbaycan tərəfində bu iradə var. Ümid edirəm ki, bu danışıqlar uğurla davam edəcək. Onu da nəzərə almalıyıq ki, hazırda Avropa Komissiyasının yeni tərkibi formalaşıbdır və biz, əlbəttə, Avropa İttifaqının Azərbaycana münasibətinin statusunu özümüz üçün daha dəqiq müəyyən etməliyik. Biz bəri başdan o mövqedə idik ki, qarşımıza real olmayan hədəflər qoymayaq. Çünki sonra bu hədəflərə çatmayanda məyusluq, qarşılıqlı inamsızlıq yarana bilər. Ona görə qarşıya elə məqsədlər qoymalıyıq ki, biz ona çata bilək və bu məqsədlər bizim maraqlarımıza uyğun olsun. Hesab edirəm ki, bu istiqamətdə gələcək fəaliyyət də uğurlu olacaqdır.

Təbii ki, Amerika Birləşmiş Ştatları ilə bizim münasibətlərimiz çox böyük əhəmiyyət daşıyır və bu münasibətlərin böyük tarixi var. Həm siyasi, iqtisadi, enerji sahələrində, həm də təhlükəsizlik sahəsində çox yaxşı nəticələr var. Azərbaycanın Əfqanıstanda sülhməramlı missiyalarda göstərdiyi səylər Amerika tərəfindən yüksək qiymətləndirilir. Bildiyiniz kimi, Azərbaycan üzərindən çox önəmli nəqliyyat dəhlizi keçir və buna "Şimal nəqliyyat dəhlizi" deyilir. Əslində, bu, hava nəqliyyatıdır və yüklərin təhlükəsiz şəkildə nəql edilməsi bu gün hər bir ölkə üçün çox önəmlidir.

Bizim siyasi münasibətlərimizin inkişafına gəldikdə, hesab edirəm ki, bu gün bu münasibətlər çox yaxşı səviyyədədir. Prezident Trampın mənə göndərdiyi bir çox məktublarda Amerika Birləşmiş Ştatlarının Azərbaycana xoş münasibəti öz əksini tapıb. Son məktubunda qeyd etmişdi ki, bizim iki böyük dövlətimiz birlikdə bundan sonra da çalışacaqdır.

Mənim də Prezident Trampa göndərdiyim məktublarda bizim münasibətlərimizin əhəmiyyəti qeyd olunur və əminəm ki, bundan sonra da bu əlaqələr uğurla inkişaf edəcək. Hesab edirəm ki, bu əlaqələrin gələcəyi çox müsbət olacaqdır.

Bizim strateji investorumuz Böyük Britaniyadır. Böyük Britaniya ilə də bizim çox sıx tərəfdaşlıq münasibətlərimiz var. Əvvəlki dövrdə biz bu münasibətləri, eyni zamanda Avropa İttifaqı prizmasından təhlil edirdik, dəyərləndirirdik. Amma artıq Böyük Britaniya Avropa İttifaqının üzvü deyil və həm bizim, həm də onların qarşılıqlı marağı gündən-günə artır. Böyük Britaniyanın BP şirkəti bizim strateji tərəfdaşımızdır. Biz keçən il bu tərəfdaşlığın artıq 25 illiyini qeyd etmişdik və bundan sonra ən azı 25-30 il birlikdə çalışacağıq. Əlbəttə ki, bu, ikitərəfli münasibətlərə də müsbət təsir göstərdi. Ancaq hər iki tərəfin fikri ondan ibarətdir ki, biz qeyri-neft sektorunda daha böyük işlər görməliyik. Bir sözlə, bu əlaqələr də bizim üçün çox önəmlidir.

Bildiyiniz kimi, biz hazırda Qoşulmama Hərəkatının sədriyik və bu sədrliyi 120 ölkənin yekdil qərarı ilə qazanmışıq. Bu sədrliyi öz üzərimizə götürəndə mən demişdim ki, bu, formal sədrlik olmayacaqdır. Biz beynəlxalq təşkilatlarda Qoşulmama Hərəkatına üzv ölkələrin maraqlarını, eyni zamanda beynəlxalq hüququ, ədaləti dəstəkləyəcəyik və bunu əməli işlərdə göstərdik. Pandemiya dövründə bizim təşəbbüsümüzlə Qoşulmama Hərəkatının, eyni zamanda Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının zirvə görüşləri keçirildi. Biz Qoşulmama Hərəkatına üzv ölkələrə həm birbaşa, həm də Ümumdünya Səhiyyə Təşkilatının xətti ilə humanitar yardım göstərdik. Qoşulmama Hərəkatı adından BMT Baş Assambleyasının xüsusi sessiyasının keçirilməsinin təşəbbüskarı biz olmuşuq və bu təşəbbüsə bildiyiniz kimi, 130-dan çox ölkə qoşuldu. Hesab edirəm ki, bu, bizim növbəti siyasi uğurumuzdur.

Əlbəttə, fəaliyyətinizin əsas hissəsi Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin həllinə istiqamətləndiriləcək. Bu, bizim üçün əsas məsələdir, bu, milli məsələdir. Son illər görülmüş tədbirlər nəticəsində bütün beynəlxalq təşkilatlar bu məsələ ilə bağlı öz mövqeyini ortaya qoyublar. Əgər münaqişə getdiyi dövrdə BMT Təhlükəsizlik Şurası dörd qətnamə qəbul edibsə, ondan sonrakı dövrdə bütün digər təşkilatlar da oxşar qərar və qətnamələr qəbul ediblər. ATƏT, İslam Əməkdaşlıq Təşkilatı, Avropa Parlamenti, Avropa Şurası Parlament Assambleyası, Qoşulmama Hərəkatı, NATO və digər təşkilatlar. İki il bundan əvvəl Avropa İttifaqı ilə Azərbaycan arasında paraflanmış "Tərəfdaşlıq Prioritetləri" sənədində də ölkəmizin ərazi bütövlüyü, suverenliyi və sərhədlərin toxunulmazlığı ilə bağlı xüsusi bənd var. Yəni hüquqi baza tam təmin edilib.

O ki qaldı, münaqişənin həllinə, bizim mövqeyimizdə, qeyd etdiyim kimi, heç bir dəyişiklik ola bilməz. Dağlıq Qarabağ bizim tarixi torpağımızdır və ölkəmizin ərazi bütövlüyü bərpa edilməlidir. Bu, birmənalıdır və heç bir ölkə qondarma "Dağlıq Qarabağ respublikası"nı tanımayıb. Orada bu yaxınlarda keçirilmiş qondarma "seçkilər" bunu bir daha təsdiqlədi. Çünki bütün aparıcı dövlətlər, qonşu dövlətlər, aparıcı beynəlxalq təşkilatlar bu "seçkilərin" tanınmaması ilə əlaqədar bəyanatlar vermişlər.

O ki qaldı, danışıqlara, mən bir daha demək istəyirəm ki, biz imitasiya naminə danışıqlar aparmaq, mənasız videokonfranslar keçirmək fikrində deyilik. Bunun mənası olmalıdır. Mən demişəm ki, Minsk qrupunun işi çox fəal olmalıdır və onların mandatı çərçivəsində təkcə təmas xəttində, yaxud da ki, dövlət sərhədində atəşkəsin təmin edilməsi məsələsi yox, mahiyyət üzrə danışıqlar aparılmalıdır və bunun üçün artıq uzun illər ərzində formalaşmış baza var. Ancaq Ermənistan öz destruktiv addımları, qeyri-konstruktiv bəyanatları, sərhəddə və təmas xəttində törətdikləri hərbi cinayətləri ilə bütün bu danışıqlar konstruksiyasını məhv edir. Ermənistan danışıqlar formatını dəyişmək, danışıqların mahiyyətini pozmaq istəyir. Yəni faktiki olaraq bu gün Ermənistan danışıqlar prosesini dağıdır və bunu hər kəs görür. Sadəcə olaraq, Ermənistan rəhbərliyinin açıqlamalarına fikir vermək kifayətdir. Onların hərbi rəhbərliyi bizi hədələməyə çalışır. Bizi yeni torpaqların işğalı ilə hədələmək istəyir. Ancaq bunlara bu günlərdə verilən dərs hesab edirəm ki, uzun müddət onların yaddaşından silinməyəcək. Azərbaycan öz ərazi bütövlüyünü bərpa edəcək. Azərbaycan xalqının səbrinin həddi var. Ona görə danışıqlar mahiyyət üzrə aparılmalıdır. Əgər biz görsək ki, bu danışıqlar əhəmiyyətsizdir, onda buna uyğun şəkildə öz addımlarımızı da atacağıq və bəyanatlarımızı da verəcəyik.

Demək olar ki, mən bizim xarici siyasətlə bağlı əsas məsələləri qeyd etdim. Əlbəttə, bu görüş əsnasında bütün başqa məsələləri əhatə etmək vaxt baxımından mümkün deyil. Ancaq əminəm, idarəetmədə əldə etdiyiniz təcrübə sizə imkan verəcək ki, qısa müddət ərzində işin içinə girəsiniz. Dediyim kimi, Azərbaycanın xarici siyasəti ölkəmizin maraqlarını tam təmin etmək üçün öz sözünü deyəcək. Sizə fəaliyyətinizdə uğurlar arzulayıram.

Nazir **Ceyhun BAYRAMOV** dedi:

- Möhtərəm cənab Prezident, ilk növbədə, bu yüksək etimada görə mən Sizə dərin minnətdarlığımı bildirmək istərdim. Cənab Prezident, mən Sizi əmin etmək istərdim ki, bu gün burada səsləndirdiyiniz bütün fikirlər, Xarici İşlər Nazirliyinin fəaliyyətinə dair qeyd etdiyiniz bir sıra nöqsanlar və ölkəmizin strateji maraqlarının təmin edilməsi yönündə əsas istiqamətlər və vəzifələrlə bağlı olaraq sistemli və davamlı fəaliyyətin təmin edilməsi, həmçinin qarşıya qoyulan vəzifələrin öhdəsindən gəlmək üçün əlimdən gələn bütün səyləri əsirgəməyəcəyəm. Siz qeyd etdiyiniz kimi, bu sahə mənim üçün yeni olsa da, qısa müddət ərzində bütün bacarığımı və biliklərimi bu işə yönəldərək, vəziyyəti daha dərindən təhlil edəcək, bir sıra təklifləri diqqətinizə təqdim edəcəyik. Həm Xarici İşlər Nazirliyinin mərkəzi Aparatının, eyni zamanda bütün diplomatik nümayəndəlikərimizin və səfirliklərimizin birgə işi təmin ediləcək. Qeyd etdiyiniz kimi, əsas məqsəd ölkəmizin strateji maraqlarının təmin edilməsi, onların qorunmasıdır. Fəaliyyətimizi son illər ərzində ölkəmizin Sizin rəhbərliyinizlə artan beynəlxalq imicinin və nüfuzunun daha da möhkəmləndirilməsi, beynəlxalq aləmdə Azərbaycanın sözünün daha da gur eşidilməsi istiqamətində quracağıq.

Cənab Prezident, fürsətdən istifadə edərək Sizə təşəkkürümü bildirmək istərdim ki, məni Təhsil naziri təyin etdiyiniz müddət ərzində bu sahəyə olan diqqət və qayğınızı bütün təhsil işçiləri hər zaman hiss etmişlər. Bu müddət ərzində Sizin imzaladığınız çoxsaylı sərəncamlar və dövlət proqramları nəticəsində yüzlərlə yeni məktəb binaları tikilmiş, təhsil infrastrukturu müasirləşdirilmiş, təhsil işçilərinin əməkhaqları yüksəldilmiş, onların sosial vəziyyəti davamlı şəkildə yaxşılaşdırılmış, tələbə yerlərinin sayı artırılmışdır. Fürsətdən istifadə edərək, bütün təhsil ictimaiyyəti adından buna görə Sizə dərin minnətdarlığımı bildirmək istərdim. Bir daha qeyd etmək istərdim ki, mənə göstərdiyiniz yüksək etimadı doğrultmaq üçün əlimdən gələni edəcəyəm. Bütün səylərimi qarşıya qoyulan vəzifələrin icrasına, Sizin qeyd etdiyiniz məsələlərin sistemli şəkildə həllinə yönəldəcəyəm.

**Prezident İlham ƏLİYEV:** Sağ olun, təbrik edirəm və sizə uğurlar arzulayıram.

## Özbəkistan Respublikasının Prezidenti zati-aliləri cənab Şavkat Mirziyoyevə

Hörmətli cənab Prezident!

Cari ilin 12 iyul tarixində Azərbaycan və Ermənistanın dövlət sərhədinin Tovuz rayonu istiqamətində Ermənistan hərbi birləşmələri artilleriya qurğularından istifadə edərək atəşkəs rejimini kobud şəkildə pozmuş, təxribata əl atmışdır. Bu qəfil və xain hücum nəticəsində Azərbaycan Ordusunun hərbçiləri, mülki əhali həlak olmuş və yaralanmışdır. Əks-həmlələr və cavab atəşi nəticəsində hücum dəf edilsə də, növbəti günlərdə Ermənistanın hərbi-siyasi rəhbərliyi avantürist və təcavüzkar siyasətindən əl çəkməmiş, ölkəmizin hərbi və mülki obyektlərinə zərbələrin endirilməsi ilə bağlı göstərişlər vermişdir.

Bildiyiniz kimi, 30 ilə yaxın müddətdir ki, Azərbaycanın 20 faiz torpağı - Dağlıq Qarabağ bölgəsi və ətrafındakı yeddi rayon erməni işğalı altındadır, bir milyondan çox azərbaycanlı doğma torpaqlarından didərgin düşmüşdür. Məhz bu səbəbdən qeyd olunan hadisə adi sərhəd toqquşması kimi deyil, Ermənistanın işğalçı siyasətinin davamı olaraq qəbul edilməlidir.

Bu gün hərbçilərlə yanaşı uşaq, qadın və yaşlı insanların hədəf seçilərək öldürülməsi Xocalı soyqırımını həyata keçirənlərin hələ də hazırkı Ermənistan rəhbərliyində təmsil olunduğunu nümayiş etdirdi.

Hər zaman olduğu kimi, bu gün də Ermənistan rəhbərliyi öz ikiüzlü və riyakar siyasətinə sadiq qalaraq həm öz ictimaiyyətini, həm də dünya birliyini aldatmağa çalışır. Ölkələrində hökm sürən sosial-iqtisadi problemlərin fonunda Azərbaycanla münaqişəni alovlandırmaqla müəyyən məqsədlərə çatmaq istəyirlər. Ölkəmizin hərbi qüdrəti, qəhrəman övladlarımızın qətiyyəti və şücaəti sayəsində Ermənistanın məkrli və çirkin təxribatının qarşısı qətiyyətlə alınmış və bundan sonra da alınacaqdır.

Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin beynəlxalq hüququn norma və prinsiplərinə, BMT Təhlükəsizlik Şurasının müvafiq qətnamələrinin tələblərinə uyğun olaraq, ölkəmizin ərazi bütövlüyü, suverenliyi və sərhədlərinin toxunulmazlığı çərçivəsində həll olunması ilə bağlı Türk Şurasının 2020-ci il 14 iyul tarixli bəyanatına görə Sizə həm öz adımdan, həm də Azərbaycan xalqı adından təşəkkür edirəm.

Sizə möhkəm cansağlığı, qardaş Özbəkistan xalqına daim əmin-amanlıq və firavanlıq arzulayıram.

*Hörmətlə,*

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 15 iyul 2020-ci il*

## C.Ə.Bayramovun Azərbaycan Respublikasının Xarici İşlər naziri təyin edilməsi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 5-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

Ceyhun Əziz oğlu Bayramov Azərbaycan Respublikasının Xarici İşlər naziri təyin edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 16 iyul 2020-ci il*

## E.M.Məmmədyarovun Azərbaycan Respublikasının Xarici İşlər naziri vəzifəsindən azad edilməsi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 5-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

Elmar Məhərrəm oğlu Məmmədyarov Azərbaycan Respublikasının Xarici İşlər naziri vəzifəsindən azad edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 16 iyul 2020-ci il*

## C.Ə.Bayramovun Azərbaycan Respublikasının Təhsil naziri vəzifəsindən azad edilməsi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 5-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

Ceyhun Əziz oğlu Bayramov Azərbaycan Respublikasının Təhsil naziri vəzifəsindən azad edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 16 iyul 2020-ci il*

## E.T.Süleymanovaya Azərbaycan Respublikası Prezidentinin fərdi təqaüdünün verilməsi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq və "Azərbaycan Respublikası Prezidentinin fərdi təqaüdünün təsis edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2002-ci il 11 iyun tarixli 715 nömrəli Fərmanına uyğun olaraq **qərara alıram:**

1. Azərbaycan Respublikasında insan hüquqlarının qorunması sahəsində uzunmüddətli səmərəli fəaliyyətinə görə Elmira Teymur qızı Süleymanovaya Azərbaycan Respublikası Prezidentinin fərdi təqaüdü verilsin.
2. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 16 iyul 2020-ci il*

## Azərbaycanda koronavirusa daha 493 yoluxma faktı qeydə alınıb, 561 nəfər sağalıb

Azərbaycan Respublikasında koronavirus infeksiyasına daha 493 yoluxma faktı qeydə alınıb, 561 nəfər müalicə olunaraq sağalıb və evə buraxılıb.




Nazirlər Kabineti yanında Operativ Qərargahdan AZƏRTAC-a verilən məlumata görə, COVID-19 üçün götürülən analiz nümunələri müsbət çıxmış 8 nəfər vəfat edib.

Hazırkı dövrədək ölkəmizdə 26 min 165 nəfərin koronavirus infeksiyasına yoluxması faktı müəyyən edilib. Onlardan 17 min 256 nəfər müalicə olunaraq sağalıb, 334 nəfər vəfat edib. Aktiv xəstə sayı 8575 nəfərdir.

Ötən müddət ərzində 601 min 500 test aparılıb. Dünənki test sayı isə 8722-dir.

# “Böyükşor” yarımstansiyası əhalinin dayanıqlı elektrik təchizatını təmin etmək baxımından mühüm əhəmiyyətə malikdir



*Əvvəli 1-ci səh.*



“Böyükşor” yarımstansiyası Abşeron enerji qovşağını qidalandıran 220 kilovoltluq xətlərin və yarımstansiyaların yüklənməsini aradan qaldıracaq, xətlərdəki itkiləri azaldacaq, enerji qovşağının sxem etibarlılığını və yükötürmə qabiliyyətini artıracaq. Bu yarımstansiya, eyni zamanda, mövcud 110 kilovoltluq yarımstansiyaların qidalanma sxemlərini təkmilləşdirəcək, tikilməsi nəzərdə tutulan yeni 110 kilovoltluq yarımstansiyaların enerji sisteminə qoşulması məsələlərini həll edəcək.

Yeni yarımstansiya qurularkən perspektiv sosial-iqtisadi inkişaf, əhalinin artan tempi də nəzərə alınıb. Yaxın vaxtlara qədər Bakının mərkəz hissəsinin şimal zonasının elektrik enerjisi ilə təchizatı “Xırdalan” yarımstansiyasından çıxan xətlər və 8 yarımstansiya vasitəsi ilə həyata keçirilirdi ki, bu da istehlakçıların keyfiyyətli elektrik enerjisi ilə təchizatında bəzi çətinliklər yaradırdı. “Böyükşor” yarımstansiyasının istifadəyə verilməsi ilə bu məsələ artıq həllini tapıb. Yarımstansiyada üç müasir transformator quraşdırılıb, mövcud 2-ci “Hövsan” və 3-cü “Ramana” hava xətlərinin yarımstansiyaya giriş-çıxışı təmin edilib. Hazırda “Binəqədi” yarımstansiyasının yüklənməsini azaltmaq və etibarlılığını yüksəltmək məqsədilə bu yarımstansiyaya kabel xətlərinin çəkilişi davam edir.

Qeyd edək ki, son iki ilə qədər Bakıda və Abşeron yarımadasında cəmi beş ədəd 220 kilovoltluq yarımstansiya fəaliyyət göstərirdi. Onların dördü istismar müddətini başa vurmuşdu. Ötən iki ildə isə “Böyükşor” yarımstansiyası və “Şimal” Elektrik Stansiyasının ərazisində qapalı tipli iki yarımstansiya tikilib. Beləliklə, Bakı şəhərindəki 220 kilovoltluq yarımstansiyaların sayı yeddiyə çatdırılıb. Eyni zamanda istismar müddətini bitirən sistem əhəmiyyətli 220 kilovoltluq dörd yarımstansiyadan ikisində - “Müşfiq” və “Xırdalan” yarımstansiyalarında yenidənqurma işləri tamamlanıb, “Nizami” və “Hövsan” yarımstansiyalarında isə işlər yaxın vaxtlarda başa çatdırılacaq.

# Qoşulmama Hərəkatının Əlaqələndirici Bürosunun Ermənistanın hərbi təxribatları ilə bağlı fövqəladə iclası keçirilib






İyulun 16-da Qoşulmama Hərəkatının Əlaqələndirici Bürosunun Ermənistan tərəfindən Azərbaycan-Ermənistan sərhədində törədilən hərbi təxribatla bağlı fövqəladə iclası keçirilib.

Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsindən AZƏRTAC-a bildiriblər ki, Azərbaycan tərəfinin təşəbbüsü ilə çağırılmış iclasda Azərbaycan Respublikasının Xarici İşlər naziri Ceyhun Bayramov və Qoşulmama Hərəkatına üzv dövlətlərin BMT yanında daimi nümayəndələri iştirak ediblər.

Xarici İşlər naziri çıxışında Ermənistan silahlı qüvvələri tərəfindən iyulun 12-dən başlayaraq Azərbaycan-Ermənistan dövlət sərhədinin Tovuz rayonu istiqamətində artilleriya qurğularından istifadə etməklə törədilmiş hərbi təcavüz, bununla əlaqədar regionda yaranmış vəziyyət və Azərbaycanın həyata keçirdiyi qətiyyətli əks-tədbirlər barədə məlumat verib.

Nazir Ermənistan tərəfindən Azərbaycanın Silahlı Qüvvələri ilə yanaşı, beynəlxalq humanitar hüquqazidd olaraq mülki əhali və mülki obyektlərin də hədəf alındığını diqqətə çatdırıb və hücum nəticəsində Silahlı Qüvvələrimizin şəxsi heyəti, eləcə də mülki şəxslər arasında itkilərin qeydə alındığını və mülki obyektlərə ciddi xəsarət yetirildiyini qeyd edib.

C.Bayramov Ermənistanın davam edən təxribatının münaqişə ətrafında vəziyyəti məqsədyönlü şəkildə gərginləşdirmək, Ermənistanda formalaşan və COVID-19 pandemiyasının təsiri altında daha da kəskinləşən sosial-iqtisadi, maliyyə və siyasi böhrandan diqqəti yayındırmaq niyyəti ilə törədildiyini vurğulayıb. Ermənistanın bu hərəkətlərinin, ümumilikdə, beynəlxalq hüququn, eləcə də Qoşulmama Hərəkatının əsasını təşkil edən Bandunq Prinsiplərinin ciddi pozuntusu olduğunu bildirib.

Nazir Ermənistanın təxribatçı hərəkətlərinə son qoymaq və Ermənistan-Azərbaycan münaqişəsinin BMT Təhlükəsizlik Şurasının müvafiq qətnamələri əsasında həllinə nail olmaq üçün beynəlxalq ictimaiyyət tərəfindən Ermənistanın cinayətkar əməllərinin ciddi və birmənalı pislənilməsinin vacibliyini diqqətə çatdırıb.

Nazir Qoşulmama Hərəkatına üzv dövlətlər də daxil olmaqla bu cür prinsipial mövqe nümayiş etdirmiş bütün dövlətlərə təşəkkürünü bildirərək, Hərəkata üzv dövlətlər tərəfindən Azərbaycan Respublikasının müstəqilliyi, suverenliyi və ərazi bütövlüyünə ən yüksək səviyyədə verilmiş dəstəyi, eləcə də Azərbaycanın ərazi bütövlüyünü bərpa etmək istiqamətində göstərdiyi səylərlə həmrəylik nümayişini yüksək qiymətləndirdiyini vurğulayıb.

İclasda iştirak edən Qoşulmama Hərəkatına üzv dövlətlərin nümayəndələri çıxış edərək Ermənistanın təxribatını pisləyib və Azərbaycanın beynəlxalq səviyyədə tanınmış sərhədləri daxilində ərazi bütövlüyünün və suverenliyinin ölkələri tərəfindən dəstəkləndiyini ifadə ediblər.

## *Prezidentin köməkçisi:* Minsk qrupu Ermənistanın hərbi təcavüz aktına konkret münasibət bildirməlidir

Tovuz rayonunda törətdiyi təxribat Ermənistanın Azərbaycana qarşı çirkin əməlləridir.

AZƏRTAC xəbər verir ki, bu fikri iyulun 16-da keçirilən mətbuat konfransında Azərbaycan Respublikası Prezidentinin köməkçisi - Prezident Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyev bildirib.

Hikmət Hacıyev bu barədə lazımi beynəlxalq təşkilatlara məlumat verildiyini vurğulayıb. O deyib ki, BMT, Qoşulmama Hərəkatı, ATƏT, digər beynəlxalq təşkilatlara məlumat verilib. Ermənistan hərbi və informasiya müstəvisində uğursuzluğa düçar olanda mülki obyektləri hədəf alır. Yaşlı vətəndaşımız həlak olub. Bu faktlar beynəlxalq ictimaiyyətə çatdırılır.

Prezidentin köməkçisi bildirib ki, ATƏT-in Minsk qrupu Ermənistanın hərbi təcavüz aktına konkret münasibət bildirməlidir. Təəssüf ki, biz yenə də standart cavablar alırıq. Minsk qrupu Ermənistanın mövqeyini pisləməlidir.

Ermənistanın bu hadisənin məsuliyyətini Azərbaycanın üzərinə atmaq istədiyini vurğulayan Prezidentin köməkçisi deyib: “Lakin cənab Prezidentin vaxtında atdığı addımlar nəticəsində Ermənistanın niyyəti ifşa edildi. Ermənilər itkilərini gizlədirlər. Bu əməllər də beynəlxalq ictimaiyyət tərəfindən izlənilir. Ermənistanın əməlləri beynəlxalq hüquqi sənədlərin kobud surətdə pozulmasıdır”.

## *Hikmət HACIYEV:* “Ermənistanın cəzalandırılmaması onu yeni təxribatlara sövq edir”

Ermənistan silahlı qüvvələrinin təxribatları davam edir. AZƏRTAC xəbər verir ki, bunu Azərbaycan Prezidentinin köməkçisi - Prezident Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyev iyulun 16-da keçirdiyi mətbuat konfransında bildirib.

Prezident, Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə ordumuzun bu təxribatların qarşısını aldığını vurğulayan Hikmət Hacıyev bildirib ki, Azərbaycan cəmiyyəti həmrəydir, yekdildir. Azərbaycan xalqının həmrəyliyinə kölgə salmaq istəyənlər təxribatlara əl atmağa başlayıblar. Həmin şəxslər də layiqli cavablarını alacaqlar. Azərbaycan gənclərinin vətənpərvərliyi dövlət tərəfindən də yüksək qiymətləndirilir. Dövlət başçısı bildirdi ki, kim istəyirsə Səfərbərlik və Hərbi Çağırış üzrə Dövlət Xidmətinə müraciət edə, orada təlimlərə cəlb oluna bilər. Gənclərimizin bu vətənpərvərliyi yüksək qiymətləndirilir.

Prezidentin köməkçisi qeyd edib ki, münaqişənin danışıqlar yolu ilə həlli istiqamətində atılan addımlar nəticə vermir. Ermənistanın cəzalandırılmaması onu yeni təxribatlara sövq edir.

# Vətəndaşlar dövlət başçısına minnətdarlıq edirlər

## “Azərbaycan əsgərinə xüsusi diqqət və qayğınızın nəticəsi olaraq bu gün düşmənə layiqli zərbə endirməyə qadir güclü Ordumuz var”




Azərbaycan Prezidenti İlham Əliyevə respublikamızın bütün guşələrindən çoxsaylı minnətdarlıq məktubları ünvanlanır. AZƏRTAC Prezident saytına istinadla həmin məktubların bir neçəsini təqdim edir.

Xalq yazıçısı **Natiq Rəsulzadə** yazır: “Hörmətli cənab Prezident, son günlərin hadisələri vəhşiləşmiş erməni faşizminin simasını bütün dünyaya bir daha göstərdi. Təcavüzkar ölkənin rəhbərliyi vicdan əzabı çəkmədən öz ambisiyaları naminə, nəyin bahasına olursa-olsun hakimiyyətdə qalmaqdan ibarət merkantil şəxsi istəkləri, öz qeyri-insani məqsədləri naminə ölkənin gələcəyi olan gəncləri qurban verərək sadə xalqın övladlarını ölümə göndərir. Bizim rəşadətli ordumuzun döyüşlərdə verdiyi itkilər, həyatın astanasında olan hərbi qulluqçularımızın, gənc əsgərlərimizin həlak olması xalqın səbir kasasını daşdırır.

Hörmətli cənab Prezident, Azərbaycan xalqı bütün tarixboyu dəfələrlə döyüş meydanlarında öz rəşadətini sübut edib. Azərbaycan xalqı düşmənlə mübarizəyə qalxıb və mənfur təcavüzkar üzərində qələbə qazanıb. Bunu Böyük Vətən müharibəsi də sübut edib, bu müharibənin döyüş meydanlarında Vətənimizin yüz minlərlə övladı canından keçib. Bunu Aprel döyüşləri də sübut edib, o vaxt düşmən çox sərt və qətiyyətli şəkildə dəf edildi. Mənim atamın da iştirak etdiyi uzaq Böyük Vətən müharibəsi illərində həmvətənlərimiz özlərinin böyük, çoxmillətli ölkəsi uğrunda alman faşizminə qarşı bu cür qəhrəmancasına döyüşə bilibsə, indi xalqımız Sizin bir sözünüzlə doğma torpağımızı - sevimli Azərbaycanımızı qorumaq üçün murdar erməni faşizminə qarşı döyüşə cəsarətlə gedəcək.

Hörmətli cənab Prezident, mənim yetmiş bir yaşım var və qəhrəmanlıq iddiasında olmadan Sizə deyirəm: yaranmış şəraitdə mən öz xalqımla, xalqımızın ziyalıları ilə birlikdə Vətənə məhəbbətimi sözdə deyil, əməli işdə sübut etməyə hazıram. Mən nə siyasətçiyəm, nə də diplomat, mən yazıçıyam, lakin hər şeydən əvvəl, mən də Sizin kimi - öz Vətənini, xalqını ürəkdən sevən vətəndaşam. Şairlərin öz dövrü var, əsgərlərin öz dövrü. İndi əsgərlərin dövrüdür”.

YAP Qax rayon təşkilatı Gənclər Birliyinin sədri **Elvin Həsilov:** “Hörmətli Prezident, cənab Ali Baş Komandan, bütün dünyada müharibələrin susduğu bir zamanda mənfur düşmənlərimiz sərhədyanı bölgədə, xüsusilə Tovuz istiqamətində yenə də təxribatlar törətmişlər. Milli Ordumuzun kəskin cavabı sayəsində düşmən böyük itki verərək geri çəkilməyə məcbur olmuşdur.

Möhtərəm Prezident, Sizin rəhbərliyinizlə torpaqlarımızın işğaldan azad olunması üçün hər an ön cəbhədə vuruşmağa hazırıq”.

Azərbaycan Vətən Müharibəsi Veteranları İctimai Birliyinin Tovuz rayon şöbəsinin və Qarabağ Əlillərinə Qayğı İctimai Birliyinin Tovuz rayon filialının sədri **Etibar Vəliyev:** “Hörmətli cənab Prezident, Sizi Azərbaycan Vətən Müharibəsi Veteranları İctimai Birliyinin Tovuz rayon şöbəsi və Qarabağ Əlillərinə Qayğı İctimai Birliyinin Tovuz rayon filialının üzvlərinin adından salamlayır, keçmiş döyüşçülərin daim Sizə inandıqlarını, hər an döyüş əmrinizə hazır olduğumuzu bildiririk. Azərbaycanın inkişafını gözü götürməyən namərd qonşularımızın fitnə-fəsad törətmək cəhdləri hər zaman puça çıxıb və bu dəfə də belə oldu. Hər bir Azərbaycan vətəndaşı bilir ki, Azərbaycan dövləti əmin əllərdədir, çünki sabitliyimizin qarantı olan Siz varsınız, sərhədlərimizi qoruyan rəşadətli ordumuz, ictimai asayişi yüksək səviyyədə təmin edən qətiyyətli polisimiz var”.

Salyan rayonunun Həsənli kəndinin sakini **Kamran Dünyamalıyev:** “Hörmətli cənab Prezident, Azərbaycan-Ermənistan dövlət sərhədinin Tovuz rayonu istiqamətində Ermənistan silahlı qüvvələrinin törətdiyi təxribatı qəti şəkildə pisləyir, düşmən təxribatının qarşısını alan ordumuzu dəstəkləyirəm. Əminəm ki, Sizin rəhbərliyinizlə qısa müddətdə Qarabağımızı işğaldan azad edəcəyik. Sizin iradənizə inanır, döyüşə hazır əsgəriniz kimi əmrinizi gözlədiyimi bildirirəm”.

Salyan rayonunun daha bir sakini **Amil Babayevin** məktubunda deyilir: “Hörmətli cənab Prezident, biz daim Sizin prinsipial, qətiyyətli siyasətinizi dəstəkləyirik. Verdiyiniz hər bir əmr bizim döyüş andımızdır. İşğalçı dövlətin törətdiyi təxribatın qarşısını alan ordumuzla fəxr edirik. Bu ordu Sizin sayənizdə qüdrətlidir.

Cənab Prezident, Azərbaycan-Ermənistan sərhədində düşmən təxribatının qarşısını alan ordumuzu dəstəkləyir, keçmiş döyüşçü kimi əlimə silah alıb düşmənə qarşı döyüşməyə hazır olduğumu bildirirəm. Sizinlə fəxr edir, qürur duyuruq. Hər birimiz Sizin əsgərinizik!”

Qax rayonundan **Tələt Abbasov:** “Hörmətli cənab Ali Baş Komandan, Milli Ordumuz çətin pandemiya dövründə belə öz xalqı ilə maraqlanmayan, təcavüzkar, faşist ideologiyalı Ermənistanın son günlər Tovuz rayonu istiqamətində törətdiyi növbəti təxribatlarına Sizin rəhbərliyinizlə layiqli cavab verməkdədir. Biz Sizin Qarabağ münaqişəsində tutduğunuz qətiyyətli mövqe və igid vətən oğullarının şücaəti ilə daim fəxr edirik.

Hörmətli Ali Baş Komandan, Yeni Azərbaycan Partiyası gənci olaraq Sizin əmrinizi gözləyir, ölkəm uğrunda döyüşməyə hazır olduğumu bildirirəm. Yaşasın müstəqil Azərbaycan!”

Xaçmaz rayonundan **Aybəniz Ədilova:** “Hörmətli cənab Prezident, Ali Baş Komandan, Sizin rəhbərliyiniz altında ordumuz bu gün dünyanın ən güclü orduları sırasında yer alır. Ordumuzda olan ruh yüksəkliyi, peşəkarlıq, müasir hərbi texnikalar hər an torpaqlarımızı azad etməyə imkan verir. Biz YAP gəncləri olaraq daim Sizin yanınızdayıq, Sizin əmrlərinizi gözləyirik! Allah Sizi qorusun!”

Zaqatala rayonundan **Vüsal Ramazanov:** “Hörmətli cənab Ali Baş Komandan. Bu gün Azərbaycan Ordusu ölkəni istənilən təcavüzdən qorumağa və hər an torpaqlarımızı işğaldan azad etməyə qadirdir. Hər bir vətəndaşımız yaxşı bilir ki, Azərbaycanın güclü dövləti, güclü ordusu var. Cənab Ali Baş Komandan, döyüş təcrübəsi olan zabit və əsgərlərimiz hər zaman Sizinlədir. Biz Sizə inanır və güvənirik. Əmrinizi gözləyirik, cənab Ali Baş Komandanımız!”

Masallı rayonunun Gəyəçöl kəndindən **Məmmədqulu Həsənov:** “Hörmətli cənab Prezident, Sizin fəaliyyətiniz daim xalqımızın rifahının yüksəlməsinə, insanlarımızın qayğı və problemlərinin yerində həll olunmasına yönəlib. Xalqımızın firavan yaşayışı naminə atdığınız addımlar öz bəhrəsini verir. Bu günlərdə kəndimizdəki köhnə, sıradan çıxmış elektrik dirəkləri yeniləri ilə dəyişdirildi. Bununla da işıqla təminatımız xeyli yaxşılaşdı, fasiləsiz işıqla təmin olunduq.

Cənab Prezident, Azərbaycan xalqının qayğısına qalaraq onların problemlərinin həlli istiqamətində gördüyünüz əməli tədbirlərlə bağlı Sizə dərin təşəkkürümüzü bildirir və gələcək işlərinizdə uğurlar arzulayırıq”.

Bərdə rayonundan **Nəsibə Kərimova:** “Hörmətli cənab Prezident, cənab Ali Baş Komandan, Ermənistanın Azərbaycana qarşı törətdiyi təxribatın qarşısının alınmasında ordumuzun gücünə bir daha şahid olduq. İgid əsgərlərimiz 2016-cı il Aprel döyüşlərindəki kimi bizi bir daha qürurlandırdılar. Məhz onların sayəsində biz sabit, təhlükəsiz həyat yaşayırıq. Bilirik ki, bizi, ölkəmizi qüdrətli bir ordu qoruyur. Bizə qürur yaşadan güclü ordumuzun Ali Baş Komandanı Sizsiniz, cənab Prezident. Ali Baş Komandanımız kimi Sizə bildirmək istəyirəm ki, hər zaman əmrinizi gözləyirik. Torpaqlarımızın işğaldan azad olunması istiqamətində apardığınız siyasəti bəyənir, bir gənc olaraq Sizə səmimi qəlbdən öz təşəkkürümü bildirirəm”.

Siyəzən rayonundan **Bəxtiyar Seyidov:** “Cənab Ali Baş Komandan, məlum olduğu kimi, iyulun 12-də erməni silahlı qüvvələri Azərbaycanın mövqelərinə ağır artilleriya qurğuları ilə atəş açıb təxribat törətmişlər. Bunun qarşılığında Azərbaycan Ordusu adekvat cavab verərək düşməni susdurub şəhidlərimizin qisasını aldı. Məhz Sizin Azərbaycan Ordusuna, Azərbaycan əsgərinə göstərdiyiniz xüsusi diqqət və qayğının nəticəsi olaraq bu gün düşmənə layiqli zərbə endirməyə qadir olan güclü Azərbaycan Ordusu var. Bunun üçün Sizə dərin minnətdarlığımı bildirirəm. Cənab Ali Baş Komandan, YAP-ın Gənclər Birliyinin Siyəzən rayon təşkilatının üzvü olaraq Sizin əmrinizlə düşmənlə üz-üzə dayanıb, rəşadətli bir Azərbaycan əsgəri kimi döyüşməyə hazıram”.

Bərdə rayonundan **Şamxal Yaqubov:** “Hörmətli cənab Prezident, Siz hər zaman Azərbaycan Respublikasının milli maraqlarının təmin olunması üçün çalışırsınız. Ölkəmizin müstəqilliyinin qorunması və ərazi bütövlüyünün bərpa olunması məhz bu milli maraqların əsas qayəsidir. Sizin sayənizdə bu gün güclü orduya malik olan Azərbaycan Respublikası onun dövlət sərhədini pozmağa çalışan qüvvələrə anında elə sarsıdıcı cavab verir ki, təxribatçılar üçün onun təsiri illərlə davam edir. Ordumuz bizim qürur mənbəyimizdir.

Cənab Ali Baş Komandan, əmin ola bilərsiniz ki, biz gənclər hər an Sizin əmrinizi gözləyirik. Biz gənclər üçün Vətənə sədaqət müqəddəs hissdir. Son aldığımız nəfəsə qədər Sizin yanınızda olduğumuzu və Sizin bir göstərişiniz ilə canımızı Vətən uğrunda verəcəyimizi bir Azərbaycan gənci kimi bildirmək istəyirəm”.

Xaçmaz rayonundan **Ülkər Lətifova:** “Cənab Ali Baş Komandan, bu gün Azərbaycan gəncliyi Sizin gördüyünüz işlərlə qürur duyur. Xüsusən də ölkəmizin təhlükəsizliyi naminə gördüyünüz işlər, ordu quruculuğuna yetirdiyiniz diqqət göz qabağındadır. Artıq düşmənlərimiz vahimə içərisindədir. Sizin “Qarabağ Azərbaycandır və nida” sözünüz onların Qarabağı tezliklə tərk edəcəklərinə və məcburi köçkünlərimizin həmin torpaqlara qayıdacaqlarına böyük bir işarədir. YAP gəncləri daim Sizin ətrafınızda sıx birləşib və Sizin əmrinizi gözləyir. Biz Sizə inanırıq, cənab Prezident”.

Füzuli rayonundan **Aydın Rəşidli:** “Möhtərəm Prezident, cənab Ali Baş Komandan, son hadisələrdən sonra biz Füzuli gəncləri əldə silah Vətənimiz Azərbaycanın rahat, firavan, gözəl gələcəyi üçün döyüşmək istəyirik. Füzuli gəncliyi Sizə inanır və hər zaman Sizin yanınızdadır”.

# Azərbaycan Müdafiə Nazirliyinin nümayəndə heyəti Türkiyədə səfərdədir

Azərbaycan Respublikası Müdafiə Nazirliyinin nümayəndə heyəti Türkiyədə səfərdədir. Müdafiə nazirinin müavini - Hərbi Hava Qüvvələrinin komandanı general-leytenant Ramiz Tahirovun rəhbərlik etdiyi nümayəndə heyəti Türkiyənin Milli Müdafiə naziri Hulusi Akar ilə görüşüb.

Görüşdə Ümummilli Lider Heydər Əliyevin "bir millət, iki dövlət" kəlamını xatırladan Türkiyənin Milli Müdafiə naziri H.Akar Ermənistan silahlı qüvvələrinin bölmələrinin Azərbaycan-Ermənistan dövlət sərhədinin Tovuz rayonu istiqamətində mövqelərimizi ələ keçirmək məqsədilə həyata keçirdiyi əməliyyatları qətiyyətlə pisləyib. Türkiyənin Milli Müdafiə naziri Azərbaycan Respublikasının Müdafiə naziri general-polkovnik Zakir Həsənov ilə telefon danışığında vəziyyəti təhlil etdiklərini bildirib.

Ermənistan silahlı bölmələrinin Tovuz rayonu istiqamətində Azərbaycana qarşı həyata keçirdiyi hərbi hücumu şiddətlə qınadıqlarını bir daha ifadə edən nazir deyib ki, Azərbaycan xalqının kədəri kədərimiz, sevinci sevincimizdir. O, döyüşlərdə şəhid olan qəhrəman Vətən övladlarına Allahdan rəhmət, yaralılara şəfa diləyib.

Türkiyəli nazir bildirib: "Azərbaycanın məruz qaldığı hər hansı təcavüzə qarşı indiyədək necə etiraz etmişiksə, bundan sonra da eyni qətiyyətli mövqedən çıxış edəcəyik. Azərbaycanlı qardaşlarımızla daim sıx həmrəyik. Biz Türkiyə Cümhuriyyəti və Türkiyə Silahlı Qüvvələri olaraq hər an Azərbaycanın yanındayıq".

Səmimi qonaqpərvərliyə və qardaşlıq münasibətlərinə görə minnətdarlığını ifadə edən Azərbaycan Respublikası Müdafiə nazirinin müavini - Hərbi Hava Qüvvələrinin komandanı general-leytenant Ramiz Tahirov göstərilən dəstəyə görə Türkiyə dövlətinə və qardaş türk xalqına səmimi minnətdarlığını bildirib. General-leytenant R.Tahirov düşmən ordusunun Azərbaycan-Ermənistan dövlət sərhədinin Tovuz rayonu istiqamətində ölkəmizə qarşı həyata keçirdiyi təxribatlar və davam edən döyüşlər barədə məlumat verib.

# Tovuz rayonu istiqamətində döyüş əməliyyatları davam edir

## Düşmənin 20-yə yaxın canlı qüvvəsi, 1 zirehli texnikası, 1 radioelektron mübarizə vasitəsi, döyüş postları və dayaq məntəqəsi məhv edilib

İyulun 16-da səhər saat 05.45-dən başlayaraq Azərbaycan-Ermənistan dövlət sərhədinin Tovuz rayonu istiqamətində aktiv döyüş əməliyyatları keçirilir.

Müdafiə Nazirliyinin Mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, hazırkı vaxtadək davam edən döyüşlərdə düşmənin 20-yə yaxın canlı qüvvəsi, 1 zirehli texnikası, 1 radioelektron mübarizə (REM) vasitəsi, döyüş postları və dayaq məntəqəsi bölmələrimizin sərrast atəşi ilə məhv edilib.

Döyüşlər zamanı Azərbaycan Ordusunun müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu əsgər İsmayılov Nazim Əfqan oğlu şəhid olub.

Müdafiə Nazirliyinin rəhbərliyi şəhidin ailəsinə başsağlığı verir və səbir diləyir. Allah rəhmət eləsin!

Bölmələrimiz düşmənin döyüş aktivliyinin qarşısını almaq məqsədilə cavab tədbirləri görür.

# XİN: Ermənistan gücdən istifadə etməklə yeni təcavüz aktları həyata keçirmək niyyətini açıq şəkildə nümayiş etdirir

İyulun 16-da Ermənistan silahlı qüvvələri tərəfindən Azərbaycan-Ermənistan sərhədinin Tovuz rayonu istiqamətində yenidən mövqelərimizə hücum cəhdi olub, Tovuz rayonunun Ağdam, Dondar Quşçu və Vahidli kəndlərində mülki yaşayış infrastrukturları iriçaplı silahlar və artilleriya qurğularından istifadə etməklə atəşə tutulub.

Davam edən döyüşlər zamanı Azərbaycan Ordusunun bir hərbi qulluqçusu həlak olub. Qanlı təxribatçı fəaliyyətini davam etdirən Ermənistan beynəlxalq hüququn norma və prinsiplərini, o cümlədən beynəlxalq humanitar hüququ kobud şəkildə pozaraq, təcavüzkar siyasətinin nəticələrini möhkəmləndirmək və gücdən istifadə etməklə yeni təcavüz aktları həyata keçirmək niyyətini açıq şəkildə nümayiş etdirir.

Bu fikirlər Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsinin açıqlamasında yer alıb.

Açıqlamada deyilir: "Bir daha bəyan edirik ki, bölgədəki gərginliyin yeganə səbəbkarı Azərbaycanın Dağlıq Qarabağ və ətraf 7 rayonunu hərbi işğal altında saxlayan, yüz minlərlə azərbaycanlının fundamental hüquq və azadlıqlarını pozan, münaqişənin danışıqlar yolu ilə həllinə birbaşa əngəl törədən Ermənistandır.

Öz iflasa uğrayan daxili siyasətini ört-basdır etmək üçün təcavüzkar xarici siyasəti möhkəmləndirmək və Azərbaycan ərazilərinin işğalına görə daşıdığı məsuliyyətdən beynəlxalq ictimaiyyətin diqqətini yayındırmaq cəhdi edən Ermənistan rəhbərliyi dərk etməlidir ki, Azərbaycan beynəlxalq tanınmış ərazilərinin işğalı faktı ilə heç zaman barışmayacaq və torpaqlarımızın bir santimetri belə düşmən işğalı altında qalmayacaq.

Azərbaycan münaqişənin siyasi yolla həllinin tərəfdarı olduğunu hər zaman bəyan edib, lakin bu danışıqların sonsuz olaraq davam etməsi anlamına gəlməməlidir. Azərbaycan nəticəyə yönəlik danışıqları dəstəkləyir və ATƏT-in Minsk qrupunun həmsədrlərindən də məhz bu istiqamətdə vasitəçilik səylərini gözləyir.

Cəbhədə yaranmış gərginlik və onun doğura biləcəyi bütün nəticələrin məsuliyyəti tam olaraq Ermənistan rəhbərliyinin üzərindədir".

# Alimlərimiz Prezidenti və onun rəhbər tutduğu dövlətçilik prinsiplərini dəstəkləyirlər

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyulun 15-də Nazirlər Kabinetinin 2020-ci ilin birinci yarısının sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunan iclasında geniş çıxış edib. Prezidentin nitqində ölkənin ictimai-siyasi həyatının mühüm məsələlərinə, Ermənistanın Azərbaycana qarşı hərbi təcavüzünə, həmçinin yaxın tariximizin hadisələrinə dair bildirdiyi fikirlər, ortaya qoyduğu qətiyyətli mövqe haqlı olaraq ictimaiyyətin diqqətini cəlb edib, bütün ölkə vətəndaşları kimi, Azərbaycan Milli Elmlər Akademiyasının əməkdaşları tərəfindən də böyük rəğbət və razılıq hissi ilə qarşılanıb.

AZƏRTAC xəbər verir ki, bu fikirlər Azərbaycan Milli Elmlər Akademiyası (AMEA) Rəyasət Heyətinin məlumatında yer alıb.

AMEA-nın rəhbərliyi dövlət başçısının həmin müşavirədəki çıxışına dərhal reaksiya verib və Rəyasət Heyətinin iyulun 16-da keçirilən iclasında Prezidentin nitqi ətraflı müzakirə olunub.

İclası AMEA prezidenti, akademik Ramiz Mehdiyev açaraq dövlət başçısının çıxışının dərin siyasi təhlilini verərək, diqqəti hər kəsin ondan çıxarmalı olduğu mühüm dərslərə cəlb edib.

Akademik Ramiz Mehdiyev xüsusilə vurğulayıb ki, Prezidentin nitqində ölkəmiz qarşısında dayanan təhdidlər, dövlətin bu problemlərə olan münasibəti dəqiq şəkildə əksini tapıb. Ölkəmizin taleyinə laqeyd olmayan hər kəs bu nitqə diqqətlə yanaşmalı, Prezidentin verdiyi siyasi istiqaməti qavramağa çalışmalıdır.

Daha sonra çıxış edən AMEA-nın Birinci vitse-prezidenti İsa Həbibbəyli, AMEA Tarix İnstitutunun direktoru, akademik Yaqub Mahmudov, vitse-prezidentlər, akademiklər Dilqəm Tağıyev, İradə Hüseynova və Rasim Əliquliyev dövlət başçısının mövqeyini birmənalı şəkildə dəstəklədiklərini bildirib, qarşıya qoyulan vəzifələrdən söz açıblar.

Qeyd olunub ki, Prezident İlham Əliyevin çıxışında diqqəti çəkən başlıca amil onun həmişə olduğu kimi öz xalqı ilə yüksək səviyyədə açıq və səmimi təmas qurmaq mədəniyyəti idi. Dövlət başçısı olduqca mürəkkəb siyasi məsələlərə dair çox aydın və qəti mövqe ortaya qoyub. Ermənistanın təcavüzkar mahiyyətinə, Milli Ordumuzun işğalçı dövlətə verdiyi sarsıdıcı cavab zərbələrinə diqqəti cəlb edən Prezidentin qətiyyəti hər kəsi, o cümlədən də alimləri bir daha əmin etdi ki, Azərbaycan qüdrətli dövlətdir. Müstəqil dövlətimizin öz suverenliyini qorumaq üçün kifayət qədər gücü və iradəsi vardır. Dövlət başçısının eyni qətiyyətlə diplomatik xidmət orqanlarının fəaliyyətini tənqid etməsi isə başqa bir mühüm mətləbi hər kəs üçün növbəti dəfə aydınlaşdırmış oldu - Prezident üçün peşəkarlıq, işə məsuliyyət, vəzifə səlahiyyətlərinin icrası zamanı cavabdehlik və yüksək nizam-intizam hər şeydən daha üstündür. AMEA-nın vəzifəli şəxsləri yaxşı bilməlidirlər ki, hər bir Azərbaycan məmuru ölkə rəhbərinin bütün sahələrdəki şəxsi nümunəsini başlıca meyar kimi qəbul etməli, qarşıya qoyulan tapşırıqların icrasında etinasızlığa, pərakəndəliyə qətiyyən yol verməməli, aydın mövqe nümayiş etdirməlidir.

Prezidentin cəmiyyətdə xaos və hərc-mərclik yaratmaq istəyənlərə verdiyi tutarlı cavabdan təxribatçı və məkrli qüvvələrin öz paylarını aldıqları da şübhəsizdir. Hər kəs əmin olmalıdır ki, Azərbaycan heç zaman 90-cı illərin xaosuna qayıtmayacaq. Prezident Azərbaycanı daha işıqlı gələcəyə doğru aparmaqda qətiyyətlidir.

"Dövlət başçısını AMEA-nın Rəyasət Heyəti adından əmin etmək istəyirik ki, alimlərimiz həmişə olduğu kimi, Prezidenti və onun rəhbər tutduğu dövlətçilik prinsiplərini daim dəstəkləyirlər. Prezidentin siyasi iradəsi bizim hər birimiz üçün qanundur. AMEA-nın elmi kollektivləri və alimləri Prezident İlham Əliyevin tarixi nitqində qarşıya qoyduğu vəzifələri öz fəaliyyətlərində daim rəhbər tutacaqlar", - deyə AMEA-nın məlumatında qeyd olunub.

# Azərbaycan Mühəndislik Akademiyası Ermənistanın təxribatına qarşı etirazını bildirib

"Biz, Azərbaycan Mühəndislik Akademiyasının çoxsaylı üzvləri Ermənistan silahlı qüvvələrinin Azərbaycan-Ermənistan sərhədinin Tovuz istiqamətində törətdiyi hərbi təxribata qarşı qəti etirazımızı bildiririk. Ermənistanın Azərbaycana qarşı törətdiyi növbəti xəyanətkar təcavüz nəticəsində hərbi qulluqçularımız həlak olub və yaralanıblar, bir mülki şəxs həyatını itirib", - deyə akademiyanın bəyanatında bildirilir.

AZƏRTAC xəbər verir ki, Azərbaycan Mühəndislik Akademiyasının vitse-prezidenti akademik Əhəd Canəhmədov bu təxribata görə məsuliyyətin Ermənistan rəhbərliyinin üzərinə düşdüyünü söyləyib.

"Ali Baş Komandan Prezident İlham Əliyevin ölkənin ərazi bütövlüyünə, vətəndaşların təhlükəsizliyinin təmin edilməsinə və erməni təcavüzkarlarının hər hansı təxribatının qarşısının alınmasına yönəlmiş siyasətini biz dəstəkləyirik", - deyə bəyanatda vurğulanır.

# Türkiyənin Ədalət və İnkişaf Partiyasının gənclər qolu Ermənistanın hərbi təxribatı ilə əlaqədar bəyanat yayıb

Türkiyənin Ədalət və İnkişaf Partiyasının gənclər qolu son günlər işğalçı Ermənistanın Azərbaycana qarşı növbəti hərbi təxribat törətməsi ilə əlaqədar bəyanat yayıb. Bu barədə AZƏRTAC-a Yeni Azərbaycan Partiyasından məlumat verilib.

Bəyanatda deyilir: "Ermənistan silahlı qüvvələri Azərbaycan-Ermənistan dövlət sərhədində Azərbaycan Silahlı Qüvvələrinin Tovuz rayonunda yerləşən mövqelərinə hücum ediblər. Ermənistanın aqressiv hərəkətlərinin arxasında dayanan səbəblər bizim üçün yeni deyil və hamımız onlardan xəbərdarıq. Ermənistan Azərbaycanın Dağlıq Qarabağ bölgəsini illərdir işğal altında saxlayan ölkədir və onun münaqişəyə yeni ölçülər gətirmək cəhdləri iflasa məhkumdur.

1,5 milyondan artıq üzvü olan və Türkiyədəki ən böyük QHT olan AK Partiyanın Gənclər Qolu Ermənistan silahlı qüvvələrinin hücumunu kəskin şəkildə pisləyir. Həyatını itirən azərbaycanlı şəhidlərə görə dost və qardaş Azərbaycan xalqına və hökumətinə başsağlığı verir, yaralılara isə şəfa diləyir".

Bəyanatda qeyd olunur ki, Türkiyə heç zaman Ermənistanın avantürist və təkəbbürlü addımları qarşısında qardaş Azərbaycan xalqını tək qoymayacaq: "Böyük lider Heydər Əliyevin söylədiyi kimi, "Biz bir millət, iki dövlətik". Türkiyə gəncləri daha güclü şəkildə və bütün imkanları ilə torpaqlarını qorumaq uğrunda mübarizəsində qardaş Azərbaycanın yanında olmaqda davam edəcək".

# AMEA Rəyasət Heyətinin iclası keçirilib



İyulun 16-da Azərbaycan Milli Elmlər Akademiyası Rəyasət Heyətinin növbəti iclası keçirilib. Bu barədə AZƏRTAC-a AMEA Rəyasət Heyətinin Aparatının İctimaiyyətlə əlaqələr, mətbuat və informasiya şöbəsindən məlumat verilib.

Sosial məsafə gözlənilməklə və tibbi maskadan istifadə edilməklə keçirilən tədbiri giriş sözü ilə açan AMEA-nın prezidenti akademik Ramiz Mehdiyev bildirib ki, son günlər Azərbaycan-Ermənistan dövlət sərhədinin Tovuz rayonu istiqamətində şiddətli döyüşlər gedir. Döyüşlər zamanı hərbi bölmələrimizin cavab tədbirləri nəticəsində düşmən böyük itkilər verərək geri çəkilməyə məcbur edilib. Döyüşlər başladığı andan Azərbaycan xalqı birmənalı olaraq Ali Baş Komandan İlham Əliyevin yanında olduğunu nümayiş etdirdi. Bu vəhdət hər bir Azərbaycan vətəndaşı kimi AMEA əməkdaşlarında da böyük iftixar hissi doğurdu.

Təəssüflər olsun ki, döyüşlər zamanı müdafiənin ön xəttində olan yüksəkrütbəli Azərbaycan zabitləri və əsgərləri qəhrəmancasına şəhid olmuşdur.

Tədbirdə şəhidlərin xatirəsi bir dəqiqəlik sükutla yad edilib, onların ailələrinə və doğmalarına dərin hüznlə başsağlığı verilib.

Daha sonra akademik Ramiz Mehdiyev iyulun 15-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin sədrliyi ilə Nazirlər Kabinetinin 2020-ci ilin birinci yarısının sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunan iclasına toxunub. O, qeyd edib ki, tədbirdə Prezident dərin məzmunlu nitqlə çıxış edib. Dövlət başçısının qaldırdığı məsələlər Azərbaycan alimləri qarşısında da mühüm vəzifələr qoyub. Alimlərimiz ölkədə baş verən ictimai-siyasi prosesləri daha yaxından izləməli, aktiv vətəndaş-ziyalı mövqeyi nümayiş etdirməli, Prezidentin ölkənin hərtərəfli inkişafına yönəlmiş siyasətinə elmi dəstək verməli, onun təbliği istiqamətində bütün səylərini birləşdirməlidirlər. AMEA prezidenti bu məsələlərlə bağlı müvafiq şəxslərə konkret tapşırıqlarını verib.

Sonra akademik Ramiz Mehdiyev iclasın gündəliyində yer alan bir sıra mühüm elmi-təşkilati və kadr məsələləri haqqında məlumat verib. İclasda Azərbaycan milli dövlətçilik tarixinin tədqiqi və təbliği, elmi fəaliyyət sahəsində normativ-hüquqi bazanın möhkəmləndirilməsi, digər dövlət qurumları ilə qarşılıqlı əməkdaşlıq əlaqələrinin genişləndirilməsi, AMEA-nın elmi müəssisələrinin strukturunun daha da təkmilləşdirilməsi, bir sıra görkəmli alimlərin yubileylərinin qeyd edilməsi kimi məsələlər müzakirə olunub.

# Ermənistan ordusu minaatanlardan və digər artilleriya qurğularından istifadə etməklə atəşkəsi 89 dəfə pozub

Ermənistan silahlı qüvvələrinin bölmələri cəbhənin müxtəlif istiqamətlərində gərginliyi artırmaq məqsədilə iriçaplı pulemyotlardan, snayper tüfənglərindən, 60, 82 və 120 millimetrlik minaatanlardan və digər artilleriya qurğularından da istifadə etməklə sutka ərzində atəşkəs rejimini 89 dəfə pozub.

Müdafiə Nazirliyinin Mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, Ermənistanın Berd rayonunun Çinari kəndində və adsız yüksəkliklərdə yerləşən mövqelərdən Tovuz rayonunun Muncuqlu kəndində, Çəmbərək rayonunun Cil kəndində və adsız yüksəkliklərdə yerləşən mövqelərdən Gədəbəy rayonunun Qaravəlilər, Zamanlı kəndlərində və adsız yüksəkliklərdə yerləşən mövqelərimiz atəşə tutulub.

Tərtər rayonunun işğal altında olan Çiləbürt, Ağdam rayonunun Acarlı, Novruzlu, Yusifcanlı, Mərzili, Xocavənd rayonunun Kuropatkino, Füzuli rayonunun Aşağı Veysəlli, Qərvənd, Qaraxanbəyli, Aşağı Seyidəhmədli, Qorqan, Kürdlər, Horadiz, Cəbrayıl rayonunun Nüzgar kəndləri yaxınlığında, həmçinin Goranboy, Tərtər, Ağdam və Xocavənd rayonları ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən də ordumuzun mövqeləri atəşə məruz qalıb.

Düşmən cavab atəşi ilə susdurulub, əməliyyat şəraiti bölmələrimizin tam nəzarəti altındadır.

# Ermənistana məxsus pilotsuz uçuş aparatı məhv edilib

İyulun 16-sı səhər saatlarında Ermənistan silahlı qüvvələrinin bölmələri "X-55" taktiki pilotsuz uçuş aparatı (PUA) vasitəsilə dövlət sərhədinin Tovuz rayonu istiqamətindəki mövqelərimiz üzərində kəşfiyyat uçuşları keçirməyə cəhd göstərib. Müdafiə Nazirliyinin Mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, bölmələrimizin sayıqlığı nəticəsində düşmən PUA-sı dərhal aşkarlanaraq məhv edilib.

# Ordumuzun silahlanmasında olan ən yeni raket sistemləri Metsamor AES-i yüksək dəqiqliklə vurmağa imkan verir

Ermənistan tərəfinin Mingəçevir Su Anbarını vuracaqları barədə iddialarına Azərbaycanın Müdafiə Nazirliyi cavab verib.

Müdafiə Nazirliyinin Mətbuat xidmətinin rəisi, polkovnik Vaqif Dərgahlı AZƏRTAC-a bildirib ki, Mingəçevir Su Anbarının yerləşdiyi ərazinin relyefi, bu tikilidə aparılmış möhkəmləndirmə işləri, həmçinin Hava Hücumundan Müdafiə (HHM) qoşunlarımızın sərəncamında olan müasir HHM vasitələri strateji obyektimizi vurmağa imkan vermir.

Eyni zamanda, Ermənistan tərəfi unutmamalıdır, ordumuzun silahlanmasında olan ən yeni raket sistemləri Metsamor AES-i yüksək dəqiqliklə vurmağa imkan verir ki, bu da Ermənistan üçün böyük fəlakətə səbəb ola bilər.

# Azərbaycan Ordusunun bütün PUA-ları sıradadır, itki yoxdur

Müdafiə Nazirliyinin Mətbuat xidmətinin rəisi polkovnik Vaqif Dərgahlı Tovuz istiqamətində gedən döyüşlərdə Azərbaycana məxsus 13 pilotsuz uçuş aparatının (PUA) guya vurulduğu barədə Ermənistan Müdafiə Nazirliyinin nümayəndəsi Artsrun Hovhannisyanın yaydığı məlumatı təkzib edib.

V.Dərgahlı deyib: "Bu, yalan məlumatdır. Bildiririk ki, Azərbaycan Ordusunun bölmələrinin silahlanmasında olan bütün PUA-lar sıradadır, itki yoxdur".

# *Vaqif DƏRGAHLI:* "PUA-larımız üçün bədbəxt erməni kəndlisindən daha vacib hədəflər var"

Əlbəttə, Azərbaycan zəngin və özünü təmin edən bir dövlətdir, lakin öz maliyyə vəsaitini boş yerə xərcləməyəcək.

Bunu Azərbaycan Ordusuna məxsus pilotsuz döyüş uçuş aparatının zərbəsi nəticəsində Ermənistanın Tavuş vilayətinin Çinari kənd sakini Aramais Hovakimyanın yaralanması barədə Ermənistan Müdafiə Nazirliyinin nümayəndəsi Artsrun Hovhannisyanın yaydığı məlumatı AZƏRTAC-a şərh edən Azərbaycan Müdafiə Nazirliyinin Mətbuat xidmətinin rəisi Vaqif Dərgahlı deyib.

"Birincisi, əvvəllər dediyim kimi, heç vaxt yaşayış məntəqələrini atəşə tutmuruq. İkincisi, bizim PUA-lar üçün bədbəxt erməni kəndlisindən daha vacib hədəflər var, məsələn, Ermənistan ordusunun mövqeləri. Biz də elə bunu edirik", - deyə V.Dərgahlı bildirib.

# Ermənistan silahlı qüvvələri tərəfindən Tovuzun Dondar Quşçu kəndinə atılan mərmilər yaşayış evlərinə və bir neçə həyətyanı sahəyə düşüb

İyulun 16-da səhər saatlarında Ermənistan silahlı qüvvələri tərəfindən Tovuz rayonunun Dondar Quşçu kəndinə atılan mərmilər yaşayış evlərinə və bir neçə həyətyanı sahəyə düşüb.

Müdafiə Nazirliyinin Mətbuat xidmətinin rəisi, polkovnik Vaqif Dərgahlı AZƏRTAC-a bildirib ki, nəticədə evlərə və şəxsi təsərrüfatlara ciddi ziyan dəyib. Mülki şəxslər arasında xəsarət alan yoxdur.

# Cinayət işi başlanıb

Xəbər verildiyi kimi, iyulun 12-dən başlayaraq Ermənistan silahlı qüvvələri tərəfindən Azərbaycan-Ermənistan dövlət sərhədinin Tovuz rayonu istiqamətində atəşkəs rejimi kobud şəkildə pozularaq mövqelərimiz atəşə tutulub. Azərbaycan Ordusunun bölmələri tərəfindən görülən təcili cavab tədbirləri nəticəsində düşmənin aktivliyinin qarşısı alınmaqla onlara sarsıdıcı zərbələr vurulub.

Baş Prokurorluğun Mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, Ermənistan Azərbaycan Respublikasının Silahlı Qüvvələri qarşısında növbəti dəfə acizlik nümayiş etdirməklə, beynəlxalq humanitar hüququn fundamental norma və prinsiplərini, 1949-cu il tarixli "Cenevrə Konvensiyası"nın müharibə zamanı mülki şəxslərin müdafiəsi haqqında müddəalarını, o cümlədən müharibə hüququnun əsas prinsiplərini və ümumi qəbul edilmiş qaydaları kobud şəkildə pozmaqla, mülki əhali və döyüşənləri fərqləndirmədən, mülki əhali arasında itkilərdən qaçmalı olduqları halda, birbaşa və qəsdən mülki əhalının sıx yaşadığı əraziləri hədəfə alıb atəşə tutmaqla onlara qarşı müxtəlif cinayətlər törədiblər. Belə ki, iyulun 14-də saat 14 radələrində Ermənistanın silahlı qüvvələri tərəfindən Tovuz rayonunun Dondar Quşçu kənd sakini Əliyeva Telarə Əhməd qızına məxsus evə odlu silah mərmisinin atılması və həmin mərminin partlaması nəticəsində zərərçəkmiş şəxsin əmlakı qəsdən məhv edilməklə sonuncuya xeyli miqdarda ziyan vurulub. Dərhal prokurorluq və polis əməkdaşları tərəfindən hadisə yerinə baxış keçirilməklə maddi sübutlar toplanılıb, dəymiş ziyanın məbləğini müəyyən etmək məqsədilə mütəxəssislər cəlb olunub və digər zəruri istintaq hərəkətləri həyata keçirilib.

Faktla bağlı Tovuz Rayon Prokurorluğunda Cinayət Məcəlləsinin 186.2.2-ci (yandırmaqla, partlatmaqla, və ya başqa ümumi təhlükəli üsulla özgənin əmlakını qəsdən məhv etmə və ya zədələmə zərərçəkmiş şəxsə xeyli miqdarda ziyan vurulmaqla törədildikdə və ya ağır nəticələrə səbəb olduqda) maddəsi ilə cinayət işi başlanıb.

Hazırda iş üzrə zəruri və intensiv istintaq tədbirləri davam etdirilir.

# Düşmənə məxsus kazarma və avtomobil texnikası məhv edilib

Azərbaycan-Ermənistan dövlət sərhədinin Tovuz rayonu istiqamətində gedən döyüşlər zamanı bölmələrimizin sərrast zərbəsi ilə Ermənistan silahlı qüvvələrinə məxsus kazarma məhv edilib. Bu barədə AZƏRTAC-a Müdafiə Nazirliyinin Mətbuat xidmətindən məlumat veriblər.

* * *

İyulun 16-da Azərbaycan-Ermənistan dövlət sərhədinin Tovuz rayonu istiqamətində gedən döyüşlər zamanı ehtiyat qüvvələrini düşmənin döyüş mövqelərinə çatdıran avtomobil texnikası bölmələrimizin sərrast atəşi ilə məhv edilib.

Bu barədə AZƏRTAC-a Müdafiə Nazirliyinin Mətbuat xidmətindən məlumat veriblər.

# Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidməti müharibə dövrü üçün bütün lazımi tədbirləri görüb

Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidməti sülh və müharibə dövründə hərbi hissələrin komplektləşdirilməsi ilə məşğuldur. Müharibə dövrü üçün hazırlıq daim aparılır. Ordu sıralarından tərxis edilmiş hərbi vəzifəlilər seçilir, hərbi ixtisasları, təyinatları üzrə komandalara təyin olunur.

AZƏRTAC xəbər verir ki, bunu Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin rəisi, general-leytenant Arzu Rəhimov iyulun 16-da keçirilən mətbuat konfransında bildirib.

A.Rəhimov qeyd edib ki, səfərbərlik zamanı hərbi hissələrdən gələn sifarişlər əsasında şəxsi heyət hazırlanaraq həmin hərbi hissələrə göndərilirlər. Bu gün hərbi hissələr sülh dövrü üçün tam komplektləşdirilib. Müharibə dövrü üçün Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidməti tərəfindən bütün lazımi tədbirlər görülüb. İstər hərbi hissələrin hərbi vəzifəlilərlə komplektləşdirilməsi, istər nəqliyyat vasitələri ilə təchiz olunması təmin edilib. Əgər zərurət yaranarsa, müvafiq tədbirlər həyata keçiriləcək", - deyə A.Rəhimov vurğulayıb.

* * *

Nazirlər Kabinetinin 2020-ci ilin birinci yarısının sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunan iclasında Prezident İlham Əliyevin çıxışından sonra dörd minə qədər gənc Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidməti tərəfindən hərbi qeydiyyata alınıb.

AZƏRTAC xəbər verir ki, bunu Dövlət Xidmətinin rəisi, general-leytenant Arzu Rəhimov iyulun 16-da keçirilən mətbuat konfransında bildirib.

A.Rəhimov deyib ki, bu gün gənclər döyüşdə könüllü şəkildə iştirak etmək üçün Xidmətə müraciət edirlər və müvafiq qanunvericilik onlara izah edilib. Bildirilib ki, lazım gəldikdə tələb olunan hərbi vəzifəlilər hərbi hissələrə göndərilə bilər. Sosial şəbəkələrdə bəziləri bildirirlər ki, müraciət edirlər, ancaq qeydiyyata alınmırlar. Hərbi vəzifəlilər və digərləri Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətində qeydiyyatdadırlar. Prezidentin çıxışından sonra Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin yerli şöbə və bölmələrinə gənclərin axını başlayıb. Biz həmin gənclərin rəsmi şəkildə qeydiyyata alınmasını həyata keçiririk, könüllü getmək istəyən şəxsləri qeydiyyata alırıq. Sadəcə hər birimiz səbirli, diqqətli olmalıyıq. Könüllü müraciət edən hər bir vətəndaş qeydiyyata alınır. Xidmətə elektron poçt vasitəsilə də müraciət edənlər var.

# Xalq dövlətin, Ali Baş Komandanın və Ordunun ətrafında yumruq kimi birləşib

## Xalq-iqtidar birliyi yenə də öz təntənəsini yaşadı

Bir neçə gün əvvəl Ermənistanın hücum cəhdinin qarşısının qətiyyətlə alınması göstərdi ki, Azərbaycan dövləti işğalçı ölkənin istənilən hərbi təxribatının qarşısını dərhal və qətiyyətlə almağa, düşmənə sarsıdıcı zərbə vurmağa qadirdir. Baş vermiş hadisələr Azərbaycan dövlətinin, Ordusunun gücü ilə yanaşı, xalqla iqtidar arasındakı möhkəm birliyin də növbəti təsdiqi oldu.







### "Beşinci kolon" Azərbaycan xalqına və dövlətinə qarşı xəyanət yolu tutduğunu bir daha nümayiş etdirdi

**Siyavuş NOVRUZOV,**
*YAP İcra katibinin müavini, Milli Məclisin Regional məsələlər komitəsinin sədri:*

- İyulun 12-də günorta saatlarından başlayaraq Ermənistan silahlı qüvvələrinin Azərbaycan-Ermənistan dövlət sərhədinin Tovuz rayonu istiqamətində atəşkəs rejimini kobud şəkildə pozmaqla təxribat törətməsi işğalçı ölkənin təcavüzkar mahiyyətini bir daha dünyaya nümayiş etdirdi. Bu hadisələr, bütövlükdə, Ermənistan dövlətinin beynəlxalq hüquq normalarını növbəti dəfə kobud surətdə pozmasını, sivil dəyərlərə məhəl qoymamasını, pandemiya şəraitində də təxribatçı fəaliyyətini davam etdirməsini göstərdi.

Qürurverici haldır ki, Ermənistan tərəfinin bütün təxribatçı hərəkətləri və cəhdləri qüdrətli Azərbaycan Silahlı Qüvvələri tərəfindən iflasa uğradılır, dövlətimiz öz sərhədlərini mərdliklə qoruyur, eyni zamanda operativ vəziyyətə nəzarət edilir. Azərbaycan Ordusu bundan əvvəl də dəfələrlə işğalçı Ermənistanın təxribat cəhdlərinin qarşısını qətiyyətlə alıb, döyüş meydanında öz gücünü göstərib. 2016-cı ildə Aprel döyüşlərində düşmənə dərs verərək Ağdərə, Füzuli, Cəbrayıl rayonlarının bir hissəsini azad edən müzəffər ordumuz iki il sonra uğurlu Naxçıvan əməliyyatı nəticəsində on min hektardan çox torpaq sahəsini öz nəzarətinə götürdü, təcavüzkarları həmin bölgədən çıxardı. Azərbaycan Silahlı Qüvvələri tərəfindən götürülmüş strateji yüksəkliklər Ermənistanın bir neçə yaşayış məntəqəsinə, o cümlədən bu ölkədən Dağlıq Qarabağa gedən avtomobil yoluna nəzarət etməyə imkan verir. Məhz dövlət sərhədinin Tovuz rayonu istiqamətində təxribat törətməyə cəhd edən Ermənistan silahlı qüvvələrinə layiqli cavab verilməsi də bu baxımdan xüsusi qeyd edilməlidir. Prezident İlham Əliyev Nazirlər Kabinetinin 2020-ci ilin birinci yarısının sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunan iclasında deyib: "Bu əməliyyat - son günlər ərzində baş vermiş hərbi toqquşma bizim növbəti şanlı qələbəmizdir. Bunu Azərbaycan xalqı bilir. Mən bu günlərdə minlərlə vətəndaşdan məktub alıram və bu məktubların hamısı dəstək xarakterlidir. Beynəlxalq hərbi ekspertlər eyni fikirdədirlər və bunu o bölgədə real vəziyyət göstərir. Ermənistan qüvvələri bir santimetr belə Azərbaycan torpağına girə bilməmişlər və heç vaxt buna nail olmayacaqlar. Əksinə, əgər biz istəsəydik, bu gün Ermənistanın o ərazisində torpaqların böyük hissəsi nəzarətimizə keçə bilərdi. Ancaq bizim qarşımızda belə məqsəd dayanmır".

Bunlarla yanaşı, Azərbaycan Ordusunun uğurlu əməliyyatı, əldə olunmuş nəticə, hərbi qələbə xalqımız tərəfindən böyük ruh yüksəkliyi ilə qarşılandı. Məhz iyulun 14-15-də Azərbaycan Ordusuna dəstək məqsədilə keçirilən aksiya xalqımızın öz dövlətinə, Prezidentinə və Silahlı Qüvvələrin Ali Baş Komandanına qətiyyətli dəstəyinin ifadəsi oldu. Milli maraqların qətiyyətli müdafiəçisi olan bu insanlar Şəhidlər xiyabanına getdikləri müddət ərzində səsləndirdikləri şüarlarla xalq-iqtidar birliyini, milli həmrəyliyi real surətdə nümayiş etdirdilər. Prezident İlham Əliyevin dediyi kimi, "Bu, bir daha onu göstərir ki, Azərbaycan xalqı ağır günlərdə bir nöqtəyə vura bilir. Bu, xalq-iqtidar birliyini göstərən daha bir mənzərə idi".

Lakin bu ümummilli aksiyadan məkrli məqsədlər naminə istifadə cəhdləri də müşahidə olundu ki, bu, tamamilə yolverilməzdir. Bu, özünü orduya dəstək prosesinə siyasi rəng qatmaq, aksiyanı nəzarətdən çıxararaq xaos yaratmaq cəhdlərində göstərdi. Əlbəttə, sərhəddə hərbi əməliyyatların davam etdiyi, işğalçıya adekvat cavab verildiyi zaman bir qrup şəxsin paytaxt Bakıda iğtişaş yaratmağa çalışması, hətta Azərbaycan Respublikasının Milli Məclisinin binasına daxil olaraq qanunazidd əməllər törətməsi, asayiş keşikçilərinə qarşı zorakılıq və müqavimət göstərilməsi qəbulolunmazdır. Bu, həm dövlətimizin milli maraqlarına, həm ölkə Konstitusiyasına və qanunlara ziddir, həm də Vətənimiz, ərazi bütövlüyümüz uğrunda qəhrəmancasına həlak olmuş şəhidlərin ruhuna sayğısızlıqdır.

Şübhəsiz ki, 1990-cı illərin psixologiyasından qurtula bilməyən antimilli ünsürlərin dəstəklədiyi bu proseslərin hədəfi birmənalı olaraq Azərbaycanın inkişafına maneə yaratmaq, ölkəmizdə sabitliyin pozulmasına və xaosun yaranmasına nail olmaqdır. Bütün bunlar isə Ermənistanın, ermənipərəst və anti-Azərbaycan dairələrin maraqlarına xidmət edir.

Radikal düşərgədə cəmləşmiş antimilli ünsürlər, o cümlədən Azərbaycan Xalq Cəbhəsinin nümayəndələrinin kütlənin içinə daxil olaraq insanları qanunsuz əməllərə sövq etməyə çalışmaları aşkardır. Onlar 1992-1993-cü illərdə hakimiyyətdə olarkən yol verdikləri xəyanətkarlıq və satqınlığı indi də düşmən dəyirmanına su tökməklə davam etdirirlər. AXC-Müsavat cütlüyünün antimilli fəaliyyəti nəticəsində Azərbaycanın torpaqlarının, o cümlədən Kəlbəcərin, Şuşanın, Laçının işğal altına düşməsi danılmaz həqiqətdir. Bu radikal qruplaşma o zaman hakimiyyətə gəlmək üçün Azərbaycanın torpaqlarının işğalı faktına göz yummuş, dövlətin milli maraqlarını qurban vermişdilər. Bu gün isə adını "müxalifət" qoyaraq ölkə daxilində təxribatçı fəaliyyətlə məşğul olan ifrat radikal ünsürlər Ermənistanın təcavüzkar siyasətini dəstəkləməkdən çəkinmirlər. Onlar bilavasitə ermənipərəst dairələrin sifarişlərini yerinə yetirməklə dövlətin deyil, düşmənin yanında olduqlarını nümayiş etdirirlər. Dövlətimizin başçısının qətiyyətlə ifadə etdiyi kimi, "Erməni açıq düşməndir. Oturub orada, bunlara görə torpaqlarımızı işğal edib. Bu Xalq Cəbhəsinin fərarilərinə görə bu gün o torpaqlardadır. Amma bu, oturub bizim içimizdə. Xaricdən pul alır, təlimat alır, mühiti zəhərləyir, bizim təmiz havamızı üfunət iyi ilə çirkləndirir və belə məqamlarda dövlətin yanında yox, düşmənin yanındadır".

Bir sözlə, "beşinci kolon" bir daha Azərbaycan xalqına və dövlətinə qarşı düşmənçilik mövqeyi nümayiş etdirməklə əsl simasını, kimlərə xidmət etdiyini ortaya qoydu. Azərbaycan Prezidentinin bildirdiyi kimi, "Bu gün bu düşmənçiliyin başında dayanan Azərbaycan Xalq Cəbhəsidir, onun çirkin, satqın rəhbərləridir, özünü lider sayan qorxaqlar, fərarilərdir. Onlar artıq Azərbaycan xalqı tərəfindən dəfələrlə öz yerini görüblər və görəcəklər".

Təbii ki, Azərbaycan Respublikasının hüquq-mühafizə orqanları istər orduya dəstək məqsədilə keçirilən aksiya çərçivəsində, istərsə də sosial şəbəkələrdə təxribatçı fəaliyyətlə məşğul olanlara qarşı geniş araşdırmalar aparacaq, milli maraqlara və müvafiq qanunlara zidd hallara yol vermiş şəxslər məsuliyyətə cəlb olunacaqlar.

Əlbəttə, antimilli ünsürlər və onları dəstəkləyən ermənipərəst dairələr bu cür vasitələrlə Azərbaycanın inkişafına, öz milli maraqlarını qorumasına əngəl yarada bilməzlər. Çünki Azərbaycan xalqı öz Prezidentini dəstəkləyir, Milli Ordumuza güvənir. Ölkəmizdə mövcud olan xalq-iqtidar birliyi isə sabitliyi, inkişafı təmin edən mühüm amil olmaqla yanaşı, torpaqlarımızın tezliklə işğaldan azad olunacağına əminlik yaradır.

### Heç bir qüvvə Azərbaycandakı sabitliyi poza bilməz

**Novruzəli ASLANOV,**
*Milli Məclisin deputatı, Azərbaycan Qızıl Aypara Cəmiyyətinin prezidenti:*

- Ermənistanın dövlət sərhədimizin Tovuz istiqamətindən başlatdığı hərbi təcavüzünün qarşısını rəşadətlə alan Azərbaycan Ordusu düşmənə sarsıdıcı zərbə vurdu. Döyüş meydanında baş verənlər bir daha Azərbaycanın artan hərbi qüdrətini, silahlı qüvvələrimizin yüksək döyüş qabiliyyətini, ordumuzun şəxsi heyətinin mübarizliyini, eyni zamanda da təcavüzə məruz qalmış kəndlərimizdə yaşayan insanların qranit kimi möhkəm əzmini nümayiş etdirdi.

Öncə onu qeyd edim ki, Ermənistan hərbi bölmələrinin Azərbaycan-Ermənistan sərhədində növbəti təxribatı Paşinyan hakimiyyətinin həm beynəlxalq ictimaiyyətin diqqətini aktual məsələlərdən yayındıraraq fərqli istiqamətə yönəltmək, həm də ölkə daxilində müşahidə olunan ciddi gərginliyi azaltmaq məqsədi güdür. Ermənistanın baş naziri hesab edir ki, xarici təhlükə qarşısında cəmiyyəti toparlamaq, müxalifəti tərk-silah etmək və hakimiyyətə qarşı formalaşan ciddi təhlükəni aradan qaldırmaq mümkün olacaq.

Lakin Aprel döyüşlərində olduğu kimi, Ermənistanın bu təxribatı da öz başında çatladı. Nazirlər Kabinetinin 2020-ci ilin birinci yarısının sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunan iclasında Prezident İlham Əliyevin qeyd etdiyi kimi Azərbaycan xalqını bu təxribata çəkən Ermənistan başından zərbə aldı. Bəli, erməni hərbi birləşmələri sarsıdıcı zərbə alaraq geri otuzduruldu, təxribatının qarşısı qətiyyətlə alındı və onların əsgərləri bir santimetr belə Azərbaycan torpağına keçə bilmədilər.

Digər tərəfdən, məntiqlə Ermənistanın üzvü olduğu KTMT dərhal bu məsələyə baxmalı idi. Amma üstündən neçə gün ötsə də, Ermənistanın iyulun 12-dən etdiyi müraciət cavabsız qalıb. Bu da onu göstərir ki, Ermənistan üzvü olduğu təşkilatlarda belə ciddi qarşılanmır. Həm də sübut olundu ki, ölkəmizin KTMT üzvü olan ölkələrlə dostluq münasibətləri kifayət qədər dərindir və onlar heç vaxt Azərbaycana təcavüz edən Ermənistanın müdafiəsinə qalxmayacaqlar. Nazirlər Kabinetinin iclasında Prezident İlham Əliyev bu barədə çox doğru olaraq dedi: "KTMT-nin Ermənistandan başqa bütün üzvləri bizim dostlarımızdır.

Ən əsası iki gün ərzində davam edən hərbi əməliyyatlar Azərbaycan Silahlı Qüvvələrinin şəxsi heyətinin hünərini, yüksək döyüş əzmini, dərin vətənpərvərlik hisslərinə malik olduğunu göstərdi. Döyüşlərdə generalımızın, yüksək rütbəli zabitlərimizin qəhrəmancasına həlak olması hər birimizi kədərləndirdi. Bütün dünya gördü ki, Azərbaycan Ordusunun generalı, polkovniki öz əsgərləri ilə birlikdə ön xətdə vətənin müdafiəsindədir. Şəhidlərimizə Allahdan rəhmət diləyirik. Bu gün onların ruhu rahatdır, çünki qanları yerdə qalmadı. Ordumuz şəhid olan bütün hərbçilərimizin qisasını layiqincə aldı.

Azərbaycan xalqı belə qəhrəman generalları, zabitləri olan Milli Ordumuzla fəxr edir. İyulun 14-də Bakıda ordumuza dəstək məqsədilə yürüşün keçirilməsi də silahlı qüvvələrimizə, əsgərimizə ehtiramın ifadəsi idi. Orduya dəstək yürüşü xalqımızın milli həmrəyliyinin, Azərbaycan vətəndaşlarının möhtərəm Prezident, Ali Baş Komandan İlham Əliyevin ətrafında sıx birləşməsinin təcəssümü idi. Bu yürüş həm də bütövlükdə xalqımızın daşıdığı vətənpərvərlik hisslərini, torpaqlarımızın işğalı faktı ilə heç vaxt barışmayacağını nümayiş etdirdi. Aksiya iştirakçılarının səfərbərlik elan olunması istəyi, ordu sıralarında qulluq etmək niyyəti sevindirici və qürurverici haldır. Nazirlər Kabinetinin iclasında Prezident İlham Əliyev bu yürüşü xalq-iqtidar birliyini göstərən mənzərə adlandırdı: "Bir qrup vətənpərvər insan bu işlərə öz münasibətini bildirmək, Azərbaycan Ordusuna və Ali Baş Komandan kimi mənə öz dəstəyini ifadə etmək üçün Şəhidlər xiyabanına üz tutdu. Mən bu vətənpərvər addımı alqışlayıram. Mənə verilən məlumata görə, bu insanlar uzun məsafəni piyada qət edib və Şəhidlər xiyabanına gedən müddət ərzində vətənpərvər şüarlar səsləndiriblər - mənim haqqımda, ordumuz haqqında, xalqımız haqqında, Qarabağ haqqında. Bu, bir daha onu göstərir ki, Azərbaycan xalqı ağır günlərdə bir nöqtəyə vura bilir. Bu, xalq-iqtidar birliyini göstərən daha bir mənzərə idi".

Təəssüf ki, orduya dəstək aksiyası zamanı yaradılmış şəraitdən sui-istifadə edən bir qrup ünsür tərəfindən məqsədyönlü, əvvəlcədən planlaşdırılmış şəkildə təxribat törədildi. Belə ki, iyulun 15-nə keçən gecə aksiya iştirakçılarının bir qisminin Milli Məclisin inzibati binasına daxil olaraq vandallıq etməsinin, parlament binasının mülkiyyətini, inventarını dağıtmasının ordumuza və silahlı qüvvələrimizin həyata keçirdiyi əməliyyatlara dəstəklə heç bir əlaqəsi yox idi. O cümlədən asayişin keşiyində dayanan polis əməkdaşlarına qarşı zorakılıq edilməsi, onların xidməti polis avtomobillərinin yararsız hala salınması ordumuzun uğurlu əməliyyatlarına və şəhidlərimizin ruhuna ən böyük hörmətsizlik idi.

Bu qanunsuz hərəkət bütün mahiyyəti ilə təxribatçılıq və cəmiyyətdə çaşqınlıq yaratmaq cəhdi idi. Bu hadisə antimilli ünsürlərin Azərbaycanı yenidən ötən əsrin 90-cı illərinin əvvəllərinə qaytarmaq niyyətlərindən qaynaqlanan çirkin əməl idi.

1990-cı illərin əvvəllərində ölkəmizdə baş verən gərgin hadisələr, anarxiya, özbaşınalıq və xaos bizim yaxın tariximizdir və hələ də yaddaşlardan silinməyib. Unutmalı deyilik ki, məhz həmin dövrdə ölkədə yaranmış xaotik durum az qala yenicə qazanılmış müstəqilliyimizin itirilməsi ilə nəticələnəcəkdi. Yalnız Heydər Əliyevin xalqın tələbi ilə Bakıya gəlişindən sonra Azərbaycanda xaosa, anarxiyaya son qoyuldu, müstəqilliyimizin qorunaraq dövlətçiliyimizin inkişafı tam olaraq təmin edildi.

Digər tərəfdən, son dövrlərdə bu tip hadisələrin bir sıra dövlətlərin cəmiyyətlərinə və onların xalqlarına vurduğu maddi və mənəvi zərbələri də yaddan çıxarmalı deyilik. Bu mənada iyulun 15-nə keçən gecə həmin məlum hadisələri törədənlərin, o cümlədən sosial şəbəkələrdə saxta profillər üzərindən yalan məlumat yayanların məqsədi Azərbaycanı xaosa, anarxiyaya sürükləmək idi. Prezident İlham Əliyev Nazirlər Kabinetinin iclasında həmin qüvvələrin hansı qaragüruh qrupu təmsil etdiklərini açıqladı. Onların öz məqsədləri naminə pozuculuq fəaliyyəti ilə məşğul olmaları, düşmən dəyirmanına su tökmələri sadəcə təəssüf doğurur. İclasda qeyd olunduğu kimi, həmin insanlar müəyyən olunaraq sərt şəkildə cəzalarını alacaqlar.

Bu gün heç kimin Azərbaycanda daxili sabitliyi pozmağa ixtiyarı, haqqı yoxdur. Çünki biz bu sabitliyi qanımız, canımız bahasına əldə etmişik. Ümumiyyətlə isə, Azərbaycan öz yüksəlişinin elə bir mərhələsindədir ki, heç bir qüvvə ölkəmizi xaosa, anarxiyaya sürükləyə bilməz. Bundan əvvəl də respublikamızda siyasi sabitliyin pozulmasına cəhdlər olub. Lakin hər dəfə xalq-iqtidar birliyi və güclü Azərbaycan dövləti öz sözünü deyib, bütün antimilli cəhdlərin qarşısını alıb.

Bu gün Azərbaycanda güclü milli həmrəylik mövcuddur və xalqımız Prezident İlham Əliyevi və onun yürütdüyü siyasi kursu yekdilliklə dəstəkləyir. Bunu son günlərdə dövlətimizin başçısının ünvanına gələn məktublar da təsdiqləyir. Çünki Azərbaycanın yüksəlişi, dövlətimizin daha da qüdrətlənməsi, o cümlədən işğal olunmuş ərazilərimizin azad olunmasına aparan yol məhz bu siyasətin davam etdirilməsindən keçir. Xalq-iqtidar birliyi əbədidir və sarsılmazdır.

### Xalq-iqtidar birliyinin qarşısında istənilən riyakar plan iflasa məhkumdur

**Cavid OSMANOV,**
*Milli Məclisin deputatı, YAP Ağdaş Rayon Təşkilatının sədri:*

- Bir neçə gün əvvəl erməni silahlı birləşmələrinin Azərbaycana basqın etmək cəhdi, kəndlərimizin artilleriya atəşinə tutulması Ermənistanın təcavüzkar və işğalçılıq siyasətinin növbəti təsdiqi oldu. Bununla, ilk növbədə, bir daha sübut edildi ki, rəsmi Yerevan sülh danışıqlarının aparılmasında və problemin yoluna qoyulmasında qətiyyən maraqlı deyil.

Azərbaycan Ordusunun qəhrəman zabit və əsgərləri bu təxribatın qarşısını qətiyyətlə aldılar. Hərbi əməliyyatlarda düşmənin sərhədboyu yerləşən çoxsaylı dayaq məntəqələrinin böyük hissəsi darmadağın olundu, atəş nöqtələri, müdafiəsinin dərinliyindəki ehtiyatları, silah-sursat anbarları, çox sayda döyüş texnikası və canlı qüvvəsi məhv edildi. Hazırda döyüşlərin baş verdiyi ərazidə əməliyyat şəraiti Azərbaycan Silahlı Qüvvələrinin tam nəzarəti altındadır. Həmçinin Ermənistan tərəfi cidd-cəhdlə gizlətsə də, onlarca erməni əsgər və zabitin məhv edildiyi məlumdur.

Prezident İlham Əliyev Nazirlər Kabinetinin 2020-ci ilin birinci yarısının sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunan iclasında bu əməliyyatı ordumuzun növbəti şanlı qələbəsi adlandırıb.

Ermənistanın atəşkəs rejimini kobud şəkildə pozaraq artilleriya qurğularından istifadə etməklə dövlət sərhədi istiqamətində Azərbaycan Silahlı Qüvvələrinin mövqelərinə hücum etməsi təcavüzdür, güc tətbiq etmək aktıdır və növbəti təxribatdır. Təsadüfi deyil ki, bu günlərdə baş verənlərə münasibət bildirən dövlətlərin və təşkilatların heç biri Ermənistanı müdafiə edən bir söz belə işlətmədi. Hətta Ermənistanın üzvü olduğu KTMT belə onu müdafiə edən fikir səsləndirmədi. Üstəlik, Ermənistanın şikayətini cavabsız qoydu.

Qürur hissi ilə deməliyik ki, Ermənistanın Azərbaycana qarşı həyata keçirmək istədiyi hərbi təxribatların Ordumuz tərəfindən qarşısının alınması zamanı cəmiyyətimiz həmrəylik nümayiş etdirdi. Hər kəs Ordumuza, əsgərimizə dəstək oldu. İnsanlar silaha sarılmağa hazır olduqlarını bildirərək Azərbaycan Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin ətrafında sıx həmrəy olduqlarını göstərdilər, ölkəmizdə həyata keçirilən siyasi kursu dəstəklədiklərini bir daha bəyan etdilər. Sıravi vətəndaşlardan tutmuş deputatlara və dövlətin ali məmurlarına qədər insanların şəhidlərimizin dəfn mərasimində birgə iştirakı ölkədəki xalq-iqtidar birliyinin təcəssümü oldu. Xüsusən Azərbaycan Ordusuna dəstək məqsədilə keçirilmiş aksiya cəmiyyətimizdə vətənpərvərlik ruhunun yüksək olduğunu bir daha nümayiş etdirdi.

İyulun 14-də Bakı şəhərində keçirilən yürüş və Milli Məclisin qarşısındakı aksiya da Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə Tovuz istiqamətində həyata keçirilən uğurlu hərbi əməliyyatla bağlı xalqımızın sevincinin, ordumuza ümumxalq dəstəyinin nümayişi idi. Bəli, hər bir Azərbaycan vətəndaşı ordumuzun uğurlu əməliyyatı, düşmənin təxribatının qarşısının layiqincə alınması ilə fəxr edir. Lakin bu günlərdə ordumuzun qələbəsinə sevinməyənlər və Azərbaycanın uğurlarına kölgə salmaq istəyənlər də tapıldı. Azərbaycan dövlətinə və xalqına xəyanət yolu tutması məlum olan, öz riyakar əməlləri ilə antiazərbaycançı şəbəkənin "beşinci kolonu" rolunu oynayan antimilli qruplar öz əməlləri ilə ordumuzun qələbəsinə ləkə vurmağa cəhd göstərdilər. Bu, sapı özümüzdən olan baltalar sosial şəbəkələrdə dezinformasiyalar yaymaqla cəmiyyətimizi çaşdırmağa, təşvişə sürükləməyə çalışdılar. İyulun 14-də orduya dəstək aksiyasından sonra bir qrup şəxsin Milli Məclisin inzibati binasına daxil olması, polis avtomobillərinə ciddi ziyan vurulması antiazərbaycançı şəbəkənin ölkəmizdə təxribat yaratmaq cəhdinin göstəricisi idi. Bu hadisəyə münasibət bildirən Prezident İlham Əliyev deyib: "...Şəhidlər xiyabanına yığışanların mütləq əksəriyyəti vətənpərvər insanlardır. Amma onların arasına bu ünsürlər - Azərbaycan Xalq Cəbhəsinin tör-töküntüləri girib. Onların məqsədi nə idi? Yenəmi Azərbaycanı qaranlığa qərq etmək, yenəmi vəziyyəti gərginləşdirmək? Yenə də ermənilər bundan istifadə etsinlər? Onların məqsədi budur. Xalq Cəbhəsinin, o çirkin antimilli şuranın məqsədi budur".

Öz fəaliyyəti ilə dövlətimizə və xalqımıza düşmən kəsilən, antiazərbaycançı şəbəkənin buyruq qulu olan Əli Kərimli və rəhbərlik etdiyi antimilli qruplaşma yenə də xəyanət yolu tutdu. Bu dəfə də Azərbaycan uğur qazandığı bir vaxtda antiazərbaycançı şəbəkədən aldığı tapşırıq əsasında ölkədə təxribat törətməyə cəhd etdi. Prezident İlham Əliyev Nazirlər Kabinetinin iclasında onlara sərt xəbərdarlıq etdi. Dövlət başçısının haqlı olaraq qeyd etdiyi kimi, bu, milli məsələdir və onların Azərbaycana çirkab yaxmasına imkan verilməyəcək.

Qərbdə mənzillənmiş antiazərbaycançı dairələr respublikamızın nailiyyətlərini qəbul edə bilmir, müxtəlif planlar quraraq, ölkəmizdəki ictimai-siyasi sabitliyin pozulmasına cəhd göstərirlər. İndiyədək belə cəhdlərin sayı çox olub və hamısı da xalq-hakimiyyət birliyinin qarşısında iflasa uğrayıb. Lakin artıq xalqımızın səbir kasası daşıb. Antimilli və qaragüruh siyasi qrupların və şəxslərin ölkədə hərc-mərclik yaratmaq, Azərbaycanı 90-cı illərin əvvəllərinə qaytarmaq cəhdləri cəmiyyətimizin bütün üzvləri tərəfindən şiddətlə qınanılır. Xəyanətkar "beşinci kolon"un təmsilçiləri təxribatçılıq əməllərinə cəhd etdiklərinə və orduya dəstək aksiyasına kölgə saldıqlarına görə layiqli cəzalarını alacaqlar.

Azərbaycan güclü dövlətdir. Respublikamıza təzyiq göstərmək, onu öz yolundan döndərmək mümkün deyil və ola da bilməz. Azərbaycan həm də öz yolu, aydın mövqeyi, qətiyyətli və müstəqil siyasəti olan dövlətdir. Buna görə antiazərbaycançı dairələr və onların əlaltısı olan Ə.Kərimli kimilər dərk etməlidirlər ki, Azərbaycana qarşı həyata keçirdikləri planların heç biri məqsədinə çatmayaraq iflasa uğrayacaq. Çünki Azərbaycan dövlətinin gücü və sarsılmaz xalq-iqtidar birliyinin qarşısında istənilən riyakar plan iflasa məhkumdur.

***Rəşad CƏFƏRLİ,***
***"Azərbaycan"***

## Dövlətimizin və Ali Baş Komandanımızın ətrafında yumruq kimi birləşmək zamanıdır!..



Ötən gün axşam saatlarından başlayaraq paytaxtda xalqımızın Milli Ordumuza dəstək yürüşünü öz çirkin niyyətlərinə alət kimi istifadə etmək üçün hərəkətə keçən bir qrup təxribatçının törətdiyi iyrənc əməlləri sərt şəkildə qınayıram, qəti şəkildə pisləyirəm!

Qürur ünvanımız olan Şəhidlər xiyabanı və Azərbaycan Respublikasının Milli Məclisi qarşısına toplaşan yürüş iştirakçıları arasından bir qrup qaragüruh təxribatçının gecə saatlarında qeyri-qanuni olaraq parlamentin inzibati binasına daxil olaraq bir sıra dağıntılar törətməsi, parlamentin mülkiyyətinə və inventarına ziyan vurması qəbuledilməzdir! Belələrinə qarşı sərt qanuni tədbirlər görülməli, bu cinayətkarlar ən ağır şəkildə cəzalandırılmalıdır. Milli Məclis dövlətimizin ali qanunverici orqanıdır. Bir qrup "5-ci kolon" qaragüruhunun Milli Məclisə qarşı yolverilməz bu iyrənc addımı dövlətə, dövlətçiliyimizə, müqəddəs şəhidlərimizə və xalqımızın öz qəhrəman şəhidlərinin xatirəsinə bəslədiyi böyük ehtirama yönələn cinayətdir. Bunun başqa adı yoxdur! Dövlətimiz, millətimiz üçün bu həssas məqamlarda da xaricdən maliyyələşən hansısa bir qrup satqının bu əməlləri onların mahiyyətcə işğalçı, təcavüzkar ermənilərdən fərqlənmədiyinin göstəricisidir.

Azərbaycan Silahlı Qüvvələrinin Tovuz istiqamətində gedən döyüşlərdə qəhrəmancasına, misilsiz mübarizəsini və xalqımızın Milli Ordumuza dəstəyini qürurla izlədiyimiz belə həssas bir məqamda bəzi üzdəniraq "müxalifətçilərin", xarici kəşfiyyata işləyən bir qrup satqının dövlətin ali qanunverici orqanına, asayiş keşikçilərinə, jurnalistlərə qarşı yönələn vəhşiliyi erməni dəyirmanına su tökməkdir. Belə dağıdıcıların Azərbaycan xalqında ruh düşkünlüyü yaratmaq, mübarizə əzmini qırmaq, ordumuzun şücaətinə ləkə yaxmaq üçün müəyyən sosial şəbəkələrdə saxta səs yazıları yayan mkrtıçyanlardan heç bir fərqi yoxdur!

Dövlətimizə və xalqımıza qarşı törədilən bu bağışlanılmaz cinayət göstərdi ki, hələ də bəziləri "bəlkə də qaytardılar" düşüncəsi ilə xaos və anarxizmin hökm sürdüyü 1992-ci ilin mənfur ab-havasında qalıblar. Bu "5-ci kolonu" təmsil edən satqınlara üzümü tutub demək istəyirəm ki, ay sapı özümüzdən olan baltalar, artıq 1992-ci il deyil!

İndi Azərbaycan ön cəbhədə sinəsini əsgəri qarşısında sipər edib şəhid olan qəhrəman generallardan təmsil olunan nizami və müzəffər ordusu, güclü iqtisadiyyatı və qlobal miqyaslı Lideri olan qüdrətli bir dövlətdir! Artıq satqınlar və bir dəstə qaragüruh dövlətimizə qarşı heç bir qanunsuzluq törədə bilməzlər.

Milli Ordumuza dəstək yürüşünü həyata keçirən vətəndaşlarımızın qürur doğuran "Şəhidlər ölməz, Vətən bölünməz" və "Qarabağ" şüarları ilə vahid bir amal uğrunda birləşdiyi zamanda dağıdıcı təxribatçıların "fəallaşması" belə qalmayacaq, belələri qanun və xalq qarşısında cavab verməli olacaqlar! Biz bu gün atdığımız hər addımda "düşmən görür" prinsipi ilə hərəkət etməli, mənfur düşmənləri özümüzə güldürməməli, hər bir sözümüzün və əməlimizin məsuliyyətini daşımalıyıq.

Bu günlərdə hamımız bir yumruq kimi dövlətimizin və Ali Baş Komandanımızın ətrafında birləşməli, hər bir addımda xüsusi həssaslıq nümayiş etdirməliyik. Bu birlik - həm dövlətimiz, həm ölkəmizin ərazi bütövlüyü uğrunda misilsiz şücaət göstərən Milli Ordumuz, həm şəhidlik zirvəsini fəth edən qəhrəmanlarımız, bütövlükdə isə Azərbaycanımız qarşısında milli məsuliyyətimiz və vətəndaşlıq borcumuzdur!

***Hüseynbala MİRƏLƏMOV,***
***Yeni Azərbaycan Partiyasının Xətai Rayon Təşkilatının sədri***

## *Milli QHT Forumu:*
## Millətə və dövlətə qarşı xəyanət yolunu tutanları şiddətlə qınayırıq

İyulun 12-dən etibarən Azərbaycan-Ermənistan sərhədinin Tovuz istiqamətində Ermənistanın hərbi təxribatı nəticəsində başlayan şiddətli döyüşlər davam etməkdədir. İyulun 14-də minlərlə insan Azərbaycan Ordusuna, Ali Baş Komandana və dövlətə dəstək məqsədilə paytaxtın müxtəlif ərazilərində Dağlıq Qarabağın və işğal altında olan digər torpaqlarımızın azad olunması ilə bağlı şüarlar səsləndirərək izdihamlı yürüş ediblər. Bu yürüş dövlətçiliyimiz ətrafında milli birliyin göstəricisi, həmrəyliyin yüksək formada nümayişi, işğalçı düşmənə qarşı ciddi mesaj idi.

Bütün yuxarıda qeyd olunanlarla yanaşı, bir qrup şəxs yürüşdən sui-istifadə edərək təzyiqlə parlamentin binasına daxil olub və təxribat törədib. Sözsüz ki, bu təxribat Azərbaycanın uğurlarını həzm edə bilməyən dairələrin, istənilən vəziyyətdən öz çirkin niyyətləri üçün yararlanmağa çalışan qrupların növbəti antimilli fəaliyyətinin nəticəsi idi. Onu da qeyd edək ki, dəstək aksiyasını iğtişaşa çevirmək istəyən, Milli Məclisin binasına girərək vandallıq törədən, polislərə qarşı zor işlədən, təhrikçi çağırışlar səsləndirən həmin şəxslər cinayət məsuliyyəti daşıyıcılarıdır.

Sıralarında 730 QHT-ni birləşdirən Azərbaycan Milli QHT Forumu olaraq təxribatçılara qarşı qəti etirazımızı bildirir, belə çətin və məsuliyyətli anda millətə və dövlətə qarşı xəyanət yolu tutanları şiddətlə qınayırıq. Həmin gün orduya dəstək yürüşü fonunda təxribatçılardan biri Rəşad Məmmədov təxribat xarakterli video yayaraq, dezinformativ məlumatlarla insanlar arasında panika yaratmağa cəhd göstərib. Biz ölkəmizin hüquq-mühafizə orqanlarına müraciət edərək, Rəşad Məmmədova və digər təxribatçılara qarşı qısa zamanda inzibati hüquq qaydalarına uyğun olaraq müvafiq tədbirlərin görülməsini xahiş edirik.

# İqtisadiyyatda keyfiyyət göstəriciləri kəmiyyət göstəricilərini xeyli üstələyir

2020-ci ilin 6 ayının sosial-iqtisadi göstəriciləri artıq məlumdur. Açıqlanan statistik rəqəmlər üzərindən müəyyən təhlillərin aparılması zəruridir.



Əvvəlcə qeyd etmək istərdim ki, böhranlar dövründə vacib olan kəmiyyət deyil, keyfiyyət dəyişiklikləridir. Böhran zamanı iqtisadi rəqəmlərin azalması heç kəsdə təəccüb doğurmur və hətta bu gözlənilən idi. Statistik rəqəmlərə görə, bu ilin 6 ayının nəticələrinə əsasən ölkədə ÜDM 2.7 faiz, qeyri-neft ÜDM-i 2.5 faiz, əsas kapitala yönəlmiş vəsait 2.7 faiz, yük daşımalar 14.1 faiz, sərnişin daşıma 28.7 faiz, əhalinin banklardakı əmanəti 11.2 faiz, xarici ticarət dövriyyəsi 30% azalmışdır.

Lakin kənd təsərrüfatı istehsalı 2.2 faiz, qeyri-neft sənayesi 11.2 faiz, informasiya və rabitə xidmətləri 4.4 faiz, dövlət büdcəsinin gəlirləri 15.5 faiz, əhalinin nominal gəlirləri 0.6 faiz, kredit qoyuluşları 11.9 faiz artmışdır.

Bunlar kəmiyyət göstəriciləridir. İndi isə keyfiyyət göstəricilərinə fikir verək. Ümumi iqtisadi azalma fonunda əsas istehsal sahələrində artımın davam etməsi müsbət haldır. Belə ki, qeyri-neft sənayesi və kənd təsərrüfatında artım dinamikasının saxlanması istehsal, məşğulluq və iqtisadi təhlükəsizlik baxımından mühüm göstəricidir. Eyni zamanda kənd təsərrüfatında məhsuldarlığın artması, yeni metodların özünü müsbət tərəfdən göstərməsi mühüm keyfiyyət göstəricisidir.

Digər mühüm bir keyfiyyət göstərici şəffaflaşma prosesinin getməsidir. Elektron qaimə ilə aparılan dövriyyənin artımı iqtisadiyyatda şəffaflaşmanın əsas göstəricilərindən biridir. Belə ki, son 5 ayda elektron qaimə ilə rəsmiləşən dövriyyənin həcminin 6.8 faiz artması bu sahədə mühüm göstəricidir. Nəzərə alsaq ki, bu artım qeyri-neft ÜDM-nin 2.5 faiz azalması fonunda baş verib, onda prosesin dinamikliyi daha çox aydın görünür. Pərakəndə ticarət dövriyyəsinin 1.7 faiz azalmasına baxmayaraq, rəsmiləşən dövriyyənin 15.3 faiz artması iqtisadiyyatın ağarması yönümündə əsas keyfiyyət göstəricilərindən biri hesab edilməlidir.

1 iyun tarixinə özəl sektorun banklardakı manatla cari hesablaşma hesabının qalığının ötən ilin 1 iyun tarixi ilə müqayisədə 39,2 faiz artması bankdan keçən dövriyyələrin artımının ağarmasını təsdiq edən digər mühüm bir keyfiyyət göstəricisidir.

Əməkhaqqı fondunun 25 faiz artması insanların sosial həyat şəraitinin yaxşılaşması baxımından əsas keyfiyyət göstəricilərindən biridir.

Biznes kreditlərinin 1,8 faiz, ipoteka kreditlərinin 3,2 faiz artması iqtisadi aktivliyin dəstəklənməsi baxımından mühüm göstəricidir. Kreditlərin 60 faizdən çox hissəsinin biznes kreditlərinə yönəlməsi gələcək iqtisadi artımı təmin edəcək mühüm amillərdən biridir.

Ötən ilin müvafiq dövrü ilə müqayisədə ödəniş kartları ilə aparılan ölkədaxili nağdsız əməliyyatların 37 faiz, elektron ticarətin 53 faiz, internet bankçılığın isə 84 faiz artması ödəmə texnologiyalarının geniş tətbiqinin mühüm keyfiyyət göstəricisidir.

Beləliklə, keyfiyyət göstəricilərinin iqtisadiyyatın əsas hərəkətverici sahələrdə müşahidə olunması onu deməyə əsas verir ki, ümumi azalmalar fonunda sağlam keyfiyyət dəyişiklikləri iqtisadiyyatın azalmalarını kompensasiya edərək, gələcəkdə daha güclü artımın əsas dayaqları ola biləcəkdir.

***Tahir MİRKİŞİLİ,***
***Milli Məclisin komitə sədri***

# Azərbaycan Sahibkarlar Konfederasiyasının ictimaiyyətə müraciəti

Məlum olduğu kimi, erməni vandalları növbəti təxribata əl ataraq, işğalçılıq siyasəti yeritdiklərini bir daha sübut etdilər. Belə ki, iyulun 12-də günorta saatlarından başlayaraq Ermənistan silahlı qüvvələrinin bölmələri Azərbaycan-Ermənistan dövlət sərhədinin Tovuz rayonu sahəsində atəşkəs rejimini kobud şəkildə pozaraq artilleriya qurğularından istifadə etməklə mövqelərimizi atəşə tutdular, hücuma keçməyə cəhd göstərdilər.

Düşmənin gözlənilməz zərbəsi nəticəsində Azərbaycan Ordusunun 11 nəfər hərbi qulluqçusu bu döyüşdə qəhrəmancasına şəhid oldu. Onların arasında öz igidlikləri və təcrübəli döyüş tapşırıqları ilə seçilən general-mayor Polad Həşimov, polkovnik İlqar Mirzəyevin də olması bütün ölkə ictimaiyyəti kimi, Azərbaycan sahibkarlarını da dərindən sarsıtdı. Sahibkarlar adından qəhrəman şəhidlərimizə Allahdan rəhmət diləyir, onların yaxınlarına dərin hüznlə başsağlığı veririk.

Əlbəttə ki, ordumuzun adekvat tədbirləri nəticəsində düşmənə lazımi cavab verildi. Lakin mənfur qonşu öz çirkin əməllərindən əl çəkmək istəmir. Azərbaycan Ordusu düşmənin bu niyyətinin qarşısını qəhrəmanlıqla aldı. Əks-həmlə və zərbələrlə geri qaçmağa məcbur olan ermənilər xeyli canlı itki verdilər, hərbi texnika sarıdan tələfata məruz qaldılar.

Bu hadisə, ilk növbədə, məlum həqiqətləri yenidən bütün dünyaya nümayiş etdirdi. Belə ki, beynəlxalq ictimaiyyət Azərbaycanın istənilən an Ermənistanı sarsıdıcı məğlubiyyətə uğratmağa qadir olduğunu bir daha gördü.

İyulun 13-də Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin sədrliyi ilə keçirilmiş Təhlükəsizlik Şurasının iclasında dövlətimizin başçısı çıxış edərək bildirdi ki, "Bizim işimiz haqq işidir və Azərbaycan öz prinsipial mövqeyindən bir addım geri atmayacaq".

Təhlükəsizlik Şurasının iclasında qeyd olundu ki, Ermənistanın növbəti təxribatının qarşısı qətiyyətlə alınmış, adekvat cavab verilmişdir. Ermənistan tərəfinin bütün cəhdləri iflasa uğramışdı. Azərbaycan öz dövlət sərhədini qorudu və Ermənistan əsgərləri bir santimetr belə Azərbaycan torpağına keçə bilmədilər. Bu çirkin əməllərə əl atmaq onların təcavüzkar siyasətinin təzahürüdür. Bu siyasəti məntiqlə izah etmək mümkün deyil. Azərbaycan heç vaxt işğal edilmiş torpaqlarının bu vəziyyətdə qalması ilə barışmayacaq, əlindən gələni edəcək ki, öz ərazi bütövlüyünü bərpa etsin.

Ermənistanda daxili vəziyyət artıq böhran həddinə çatıb. Eyni zamanda ölkəmizin son vaxtlar əldə etdiyi beynəlxalq uğurlar onları çox narahat edir və onlarda paxıllıq hissini daha da gücləndirir. Xüsusilə beynəlxalq təşkilatlar çərçivəsində uğurlu fəaliyyətimiz, son müddət ərzində bütün aparıcı beynəlxalq təşkilatlar tərəfindən Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi ilə bağlı verilmiş açıqlamalar, qəbul edilmiş qərarlar, ölkəmizin ərazi bütövlüyünün dəstəklənməsi, əlbəttə ki, Ermənistanın münaqişə ilə bağlı mövqelərinə çox ciddi zərbə vurmaqdadır.

Bu təxribatın digər səbəbi odur ki, son vaxtlar Azərbaycan beynəlxalq arenada çox böyük uğurlara imza atıb. Prezident İlham Əliyevin təşəbbüsü ilə beynəlxalq təşkilatların zirvə görüşləri, BMT Baş Assambleyasının keçirilməsi təşəbbüsünü 130-dan çox ölkə dəstəklədi, yalnız Ermənistan bu təşəbbüsün əleyhinə çıxaraq, bir daha özünü rüsvay etdi.

Bu gün dünya COVID-19 pandemiyası ilə mübarizə apardığı bir dövrdə Ermənistan öz çirkin və anlaşılmaz siyasəti ilə dünya ölkələrinin diqqətini cəlb etməyə çalışır.

Ölkə Prezidenti cənab İlham Əliyevin uzaqgörən və düşünülmüş siyasəti nəticəsində Azərbaycan dünya üçün əməkdaşlığa layiq ölkəyə çevrilmişdi. İndi dünya dövlətlərinin maraqları Azərbaycanın maraqları ilə üst-üstə düşür.

Məlum olduğu kimi, Azərbaycan-Ermənistan sərhədində ermənilərin təxribatı nəticəsində şəhid olan hərbi qulluqçularla bağlı 14 iyul 2020-ci il tarixdə ölkə ərazisində Azərbaycan Ordusuna kütləvi dəstək tədbirləri keçirilmişdir. Lakin bəzi antiazərbaycançı qüvvələr bu vəziyyətdən istifadə edərək, bir sıra qanunsuz hərəkətlərə yol verməyə çalışmışlar. Hüquq-mühafizə orqanlarının sayıqlığı nəticəsində bu qanunsuz hərəkətlərin qarşısı qətiyyətlə alınmışdır.

Bu günlərdə konfederasiyaya sahibkarlardan çoxlu sayda müraciət daxil olmuşdur. Bütün sahibkarlarımız dövlətimizin, ordumuzun, qəhrəman əsgərlərimizin yanında olduqlarını bəyan etməklə, onlara dəstək olmaq istədiklərini qeyd etmişlər.

Azərbaycan sahibkarları dövlət başçısı cənab İlham Əliyevin apardığı siyasəti bəyənir, onun rəhbərliyi ilə atılacaq hər hansı bir addımlara dəstək verməyə daim hazır olduqlarını bildirirlər. Ordumuzun düşmənə layiqli cavab verdiyi bir vaxtda xüsusilə diqqətli olmalıyıq.

Azərbaycan Sahibkarlar Konfederasiyası Azərbaycan xalqına, o cümlədən sahibkarlara müraciət edərək, koronavirus pandemiyasının doğurduğu ciddi təhlükəni bir an belə unutmamağı, yoluxma riskini dəfələrlə artıran toplaşmalardan çəkinməyi, özünütəcrid qaydalarına riayət etməyi tövsiyə edir.

İnanırıq ki, sizlər bu müraciəti anlayışla qarşılayaraq xüsusi karantin rejiminin tələblərinə əməl edəcək, özünüzün və yaxınlarınızın sağlamlığının qayğısına qalacaqsınız.

Biz isə Azərbaycan Sahibkarlar Konfederasiyası olaraq koronavirus pandemiyasına qarşı çətin mübarizə günlərinə və erməni təxribatına baxmayaraq, həmrəylik nümayiş etdirərək ölkə Prezidenti cənab İlham Əliyevin rəhbərliyi altında yeni-yeni iqtisadi uğurlara nail olacağımıza inanır və əmin edirik ki, dövlətimizin daha da güclənməsi, rəqabətə davamlı istehsalın genişləndirilməsi və dünya miqyasında nüfuzunun daha da artması üçün bütün gücümüzü səfərbər edəcək, əlverişli biznes mühitindən yararlanmaqla ölkəmizin daha da çiçəklənməsi, əhalinin rifah halının yaxşılaşdırılması üçün var gücümüzlə çalışacağıq.

***Azərbaycan Respublikası***
***Sahibkarlar (İşəgötürənlər) Təşkilatları***
***Milli Konfederasiyası adından***
***Konfederasiyanın prezidenti***
***Məmməd MUSAYEV***

# Ermənistan başından zərbə aldı

***Əvvəli 1-ci səh.***

## Bu əməliyyatın Azərbaycan Ordusunun şanlı tarixində öz yeri olacaq

Ümumiyyətlə, Tovuz istiqamətində Azərbaycanın Ermənistanın hücumunun qarşısını layiqincə alacağı və düşmənin ağır duruma düşəcəyi gözlənilən idi. Çünki iki ölkənin müqayisəsi ilə bağlı əsas reallıqlardan biri Azərbaycanın ciddi hərbi üstünlüyüdür. Hazırda Cənubi Qafqazın ən qüdrətli ordusuna malik Azərbaycanın Silahlı Qüvvələri öz döyüş hazırlığına görə MDB məkanında ön sıralarda gedir. Təsadüfi deyil ki, reytinq agentliklərinin hesabatlarında Silahlı Qüvvələrimiz dünyanın güclü, müasir standartlara uyğun yenidən qurulan və təchiz edilən orduları ilə bir sırada yer alır.

2014-cü ilin avqust hadisələri, 2016-cı ilin Aprel döyüşləri və 2018-ci ildə Naxçıvanda Günnüt zəfəri Azərbaycan Silahlı Qüvvələrinin gücünün praktik təsdiqidir. Son iki döyüşdə ordumuz əlverişsiz mövqelərdən çıxaraq strateji mövqelərə sahib oldu. Bu strateji yüksəkliklər, mövqelər, işğaldan azad edilmiş ərazilər imkan verir ki, təmas xəttində mövcud olan vəziyyətə tam nəzarət edək və istədiyimiz tədbiri görə bilək. Prezident İlham Əliyev Nazirlər Kabinetinin iclasında Tovuz istiqamətində keçirilən əməliyyatın Azərbaycan Ordusunun şanlı tarixində öz yeri olacağını qeyd edərək deyib: "Son günlər ərzində Azərbaycan Ordusu bir daha öz üstünlüyünü göstərdi. Mən hesab edirəm ki, bu əməliyyatın Azərbaycan Ordusunun şanlı tarixində öz yeri olacaq. Necə ki, 2016-cı ildə Aprel döyüşlərində düşmənə dərs verdik və Ağdərə, Füzuli, Cəbrayıl rayonlarının bir hissəsini düşməndən azad etdik. İki il bundan əvvəl - 2018-ci ildə uğurlu Naxçıvan əməliyyatı nəticəsində on min hektardan çox torpaq sahəsi Azərbaycan Ordusu tərəfindən götürüldü və işğalçılar o bölgələrdən qovuldu. Azərbaycan Ordusu tərəfindən götürülmüş strateji yüksəkliklər imkan verir ki, biz Ermənistanın bir neçə yaşayış məntəqəsinə nəzarət edək".

Bütün bu qələbələrin nəticəsində istər Ermənistanla aparılan danışıqlar prosesində, istərsə də cəbhə xəttində psixoloji üstünlük Azərbaycanın tərəfindədir. Düşmən də bunu anlayır və zəif olduğundan narahatlıq keçirir. İyulun 12-də Ermənistanın baş verənlərlə bağlı Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatına (KTMT) riyakar müraciəti də düşmən ölkənin zəifliyinin, cılızlığının, kənarda özünə dayaq axtarmasının göstəricisi idi. Bu bir daha onu göstərdi ki, Ermənistan təkbaşına Azərbaycanın qarşısında duruş gətirməyə qadir deyil.

Lakin məlum olduğu kimi, KTMT Ermənistanın müraciətinə üstündən bir neçə gün ötsə də cavab verməyib. Ermənistan həm də unutmamalıdır ki, KTMT-nin digər üzvləri ilə Azərbaycanın sıx siyasi və dostluq münasibətləri var. "Təxribat törətmisən, başından da zərbə almısan, indi nə olub qaçıb KTMT-dən yardım istəyirsən? KTMT-nin Ermənistandan başqa bütün üzvləri bizim dostlarımızdır", - deyə Prezident İlham Əliyev Nazirlər Kabinetinin iclasında buna münasibət bildirərkən deyib.

Ermənistan silahlı qüvvələrinin atəşkəs rejimini kobud şəkildə pozaraq artilleriya qurğularından istifadə etməklə Azərbaycanın dövlət sərhədini pozması, Tovuz rayonu istiqamətində Azərbaycan hərbçilərinin mövqelərinə hücum etməsi hərbi təcavüzdür, güc tətbiq etmək aktıdır. Bütün beynəlxalq ictimaiyyət, mötəbər təşkilatlar, ayrı-ayrı dövlətlər, o cümlədən Dağlıq Qarabağ münaqişəsinin həlli məsələsi ilə bağlı vasitəçilik missiyasını yerinə yetirən ATƏT-in Minsk qrupu bir daha gördü ki, Ermənistan problemin sülh yolu ilə həllində maraqlı deyil və təcavüzkar niyyətindən əl çəkmir.

Ən əsası bu hadisə bir daha göstərdi ki, Azərbaycan öz torpaqlarını müharibə yolu ilə dərhal azad etməyə hazırdır. Bu gün şərtləri Azərbaycan diktə edir. Rəsmi Bakının bu mövqeyi yenidən beynəlxalq ictimaiyyətə aydın oldu. İndi hər şey Ermənistanın özünü necə aparmasından və vasitəçilərdən asılıdır. Əks təqdirdə hərbi gücün Azərbaycanın tərəfində olduğunu və bunun nə ilə nəticələnəcəyini hamı yaxşı bilir.

***Rəşad CƏFƏRLİ,***
***"Azərbaycan"***




# Elektron hökumətin inkişafı: Azərbaycan BMT-nin bu hesabatında «yüksək» qrupdadır

***Əvvəli 1-ci səh.***

Dövlət başçısının rəhbərliyi altında aparılan "Doing Business" islahatları, o cümlədən, lisenziya və icazələr, biznesə başlama, kommunal xidmətlər, dövlət standartları, vergi, gömrük, xarici ticarət, məhkəmə-hüquq və ümumiyyətlə, bütün sahələrdə əldə olunan uğurlar elektron hökumətin güclənməsinə zəmin yaratmışdır. Bu gün Azərbaycanda elektron kənd təsərrüfatı, elektron təhsil, elektron səhiyyə, elektron bankçılıq, elektron sosial xidmətlər, elektron viza və s. həyata keçirilir. Nəticədə ölkəmiz BMT-nin hesabatında qiymətləndirilən 20 xidmətin əksəriyyətini online təqdim edə bilir.

Bütün bunların sözügedən hesabatda Azərbaycanın tutduğu yeri təmin etdiyini deyən V.Qasımlı onu da bildirmişdir ki, BMT-nin sənədində online xidmətlərin inkişafını göstərən indeks (OSİ) üzrə ölkələri qruplaşdırarkən bizim İsrail, Macarıstan, Almaniya, Çexiya, Belarusla birlikdə "yüksək" indeksinə layiq görülməyimiz yeganə uğurumuz deyil: "Azərbaycan elektron-iştirakçılıq indeksinə görə də Belçika, Kosta-Rika, Çexiya kimi ölkələrlə birlikdə "yüksək" qrupa aid olunmuşdur. Azərbaycanda yaradılan "İdeya Bankı" isə elektron-iştirakçılığı təmin edən mexanizm olaraq qiymətləndirilmişdir. Vətəndaşlar verdikləri ideyalar hesabına müsbət dəyişikliklərə yol açmaqla yanaşı, dövlətin qərar qəbul etməsi prosesində birbaşa iştirak edirlər".

Azərbaycanda elektron hökumətin inkişafının "ən yüksək" təsnifata keçməsi üçün telekommunikasiya infrastrukturu və insan kapitalının inkişafı istiqamətində fəaliyyətin daha da sürətləndirilməsinin vacibliyini deyən icraçı direktor Prezident İlham Əliyevin rəhbərliyi ilə ölkəmizin rəqəmsal transformasiyanın yeni mərhələsinə keçməyə başladığını diqqətə çatdırmış və əlavə etmişdir ki, BMT, Davos İqtisadi Forumunun 4-cü Sənaye İnqilabı Mərkəzi, Microsoft, CİSCO, VİSA, Mastercard kimi beynəlxalq təşkilatlar və transmilli korporasiyalar bu təşəbbüsün gerçəkləşməsində Azərbaycanla yaxından əməkdaşlıq edirlər.

Azərbaycanın "ağıllı dövlət" (smart nation) konsepsiyasının səmərəli və hesabatlı rəqəmsal dövlət, vətəndaş-mərkəzi rəqəmsal cəmiyyət və rəqabətqabiliyyətli rəqəmsal iqtisadiyyat quruculuğuna təkan verə biləcəyini önə çəkən ekspert, bütövlükdə, ölkəmizin rəqəmsal tranformasiyasının həm milli inkişaf strategiyası, həm də qlobal davamlı inkişaf məqsədləri ilə uzalaşdırılmasının gərəkliyini vurğulamışdır.

***Raqif MƏMMƏDLİ,***
***"Azərbaycan"***

# İlham Əliyev Paşinyanın yalanını növbəti dəfə ifşa etdi

***Əvvəli 1-ci səh.***

Dövlət başçısı deyib ki, xaricdən maliyyələşən, xarici fondlardan maaş alan, onlardan təlimat alan və onların çevriliş texnologiyalarından bəhrələnən dəstə iki il bundan əvvəl hakimiyyəti qanunsuz yollarla zəbt edəndən sonra Ermənistanda çiçəklənmə, cənnət olacağını vəd vermişdi: *"Bəyan etmişdi ki, qısa müddət ərzində Ermənistana on milyardlarla dollar sərmayə qoyulacaq, qısa müddət ərzində Ermənistan əhalisi 5 milyona çatacaq - halbuki indi Ermənistan əhalisi 2 milyondan azdır, - Ermənistanda bütün həyat yenidən qurulacaq, ədalət olacaq, demokratiya inkişaf edəcək, insan haqları qorunacaq və digər vədlər vermişdi. Erməni xalqı Sarkisyan rejimindən o qədər bezmişdir ki, o, kimə istəsən inanardı. O çevrilişi təşkil edənlərin başında başqa adam olsaydı, ona da gedib səs verəcəkdi. Çünki Sarkisyan rejiminə nifrət həddindən artıq böyük idi və bundan istifadə edib hakimiyyəti zor gücü ilə zəbt etmiş bu qruplaşma bu vədləri sonra yerinə yetirməli idi. Ancaq necə yerinə yetirsin ki, təcrübə yox, səriştə yox, daxili resurslar yox, xarici investisiyalar qoyulmayıb. Əksinə, xarici investorları indi çürüdürlər, məhkəmə çəkişmələrinə cəlb edirlər".*

Buna görə cəbhədə vəziyyəti gərginləşdirməklə vəziyyətdən çıxmaq istəyən Paşinyan iqtidarının daxili gərginliyi səngitmək cəhdləri, əslində, uğursuzluqla nəticələnirk. İlk növbədə, o baxımdan ki, bu hal daha çox erməni hərbçisinin məhvinə səbəb olur və bu da yeni narazılığa təkan verir. Son zamanlar Ermənistanda baş verən siyasi və hərbi hadisələri izləyərkən görünür ki, populist şüarlarla hakimiyyətə gəlmiş baş nazir Nikol Paşinyan möcüzə gözləyən kütlələrin etimadını doğrultmur və o, yerli əhali arasında nüfuzunu getdikcə itirir.

Ermənistan ordusunda isə hərbi hissələrdə nizamnamədən kənar münasibətlər nəticəsində hadisə və cinayətlər, ölüm, fərarilik halları baş alıb gedir. Ermənistan silahlı qüvvələrinin işğal olunmuş ərazilərimizdə yerləşən bölmələrində xidmət şəraiti acınacaqlı vəziyyətdə qalır. Hadisələrin sözügedən səpkidə inkişafına görə əsas məsuliyyət daşıyan tərəf kimi Nikol Paşinyan hakimiyyəti və onun yarıtmaz siyasəti göstərilir.

Bütün regional layihələrdən, inteqrasiya proseslərindən kənarda qalan Ermənistan işğalçılıq siyasətindən əl çəkməyənə qədər heç bir hakimiyyət bu ölkədəki problemləri aradan qaldırmaq iqtidarında deyil. Məsələnin bu tərəfinə toxunan Prezident deyib ki, Ermənistanın ayaqda dayanmasını şərtləndirən strateji investorları məhkəməyə çəkirlər, onları korrupsiyada ittiham edirlər, bel bağladığı ölkənin şirkətlərinə qarşı çirkin əməllər törədirlər: *"... Hakimiyyət buna necə reaksiya verib? Cəmiyyəti birləşdirmək əvəzinə, əksinə, indi siyasi məhbuslar yaradır, siyasi oppontlər həbs edilir, təqib olunur, onların toxunulmazlığı götürülür, konstitusiya kobudcasına pozulur, konstitusiyaya qanunsuz düzəlişlər edilir, hansı ki, bu düzəlişlər ancaq referendumla oluna bilərdi. Bilirlər ki, referendumda bu düzəlişlər keçməyəcək. Hakimiyyət zəbt olunub və hakimiyyət bölgüsü yoxdur. Hakimiyyət bir adamın əlində cəmləşib və demokratiyadan əsər-əlamət yoxdur və heç vaxt olmayıb. Faşist dövlətində hansı demokratiya, insan haqlarından söhbət gedə bilər. Amma indiki vəziyyət daha da acınacaqlıdır. Ona görə ki, iqtisadi sahədə vədlər yerinə yetirilmədi, siyasi cəhətdən Ermənistan özünü təcrid vəziyyətə qoydu".*

Ermənistanın "Lragir" nəşri yazır ki, ölkəni üzləşdiyi çoxsaylı problemlər burulğanından xilas etmək əvəzinə, hakimiyyət təmsilçiləri əvvəlki kimi şəxsi mənafelərini güdməklə məşğuldurlar. Nəticə isə ondan ibarətdir ki, korrupsiya və rüşvətxorluğun miqyası durmadan genişlənir, bu da, öz növbəsində, koronavirus pandemiyası fonunda iqtisadi tənəzzül prosesini daha da sürətləndirir.

Qeyd olunur ki, korrupsiya və rüşvətin gömrük və vergi orqanlarında get-gedə daha dərin kök salması Ermənistan üçün çox təhlükəlidir. Çünki bu hal həm dövlət büdcəsinin boş qalmasına, həm də Ermənistan kimi idxaldan asılı olan bir dövlətdə inflyasiyanın davamlı artımına rəvac verir. Vurğulanır ki, hazırda Ermənistanda üç cür "gömrük" rejiminin fəaliyyət göstərdiyi aydın müşahidə olunur. Məmur oliqarxlardan, hakimiyyətdə dayağı olan iri inhisarçılardan ibarət qrup, ümumiyyətlə, gömrük xərci ödəmir. Halbuki Ermənistana xaricdən gətirilən müxtəlif məhsulların böyük hissəsi həmin qrupun payına düşür. Digər qrup gömrük xərclərinin yalnız yarısını ödəyir. Çox sayda insan isə gömrük xərclərinin ödənişini qanunauyğun formada, yəni tam həcmdə ödəyir. Bu isə Ermənistanın onsuz da ağır iqtisadiyyatına daha böyük zərbə vurur.

N.Paşinyan isə COVID-19-a qarşı mübarizədə aciz olduqlarını müxtəlif açıqlamalarla bildirib. Onun "indi cəhənnəmdə addımlayırıq" ifadəsi ölkədə koronavirusla bağlı yaranmış vəziyyəti tam əks etdirir. Müxalifət və vətəndaş cəmiyyəti isə Paşinyanın pandemiya ilə mübarizəsinə inanmır. Onlar hesab edirlər ki, hökumət başçısı avqustun 12-dək uzadılan fövqəladə vəziyyət rejimindən rəqiblərinə qarşı dəyənək kimi istifadə edir. Bu fonda müxalifət hökumətə qarşı fəaliyyətini genişləndirir və bu da ölkədə durumu daha da ağırlaşdırır..

Sarkisyan-Koçaryan koalisiyası isə baş nazir Nikol Paşinyanı devirmək üçün hərəkətə keçməyə hazırlaşır və bu məsələdə o, həm Qarabağdakı separatçı rejimdən, həm də müəyyən xarici qüvvələrdən, xüsusən də Rusiyadakı erməni lobbisindən istifadə etməyə çalışır. Bu fonda işğalçı ölkənin ikinci prezidenti Robert Koçaryanın həbsdən girov müqabilində azad edilməsindən heç iki gün keçməmiş keçmiş cinayətkar hərbi xuntanın digər nümayəndəsi Serj Sarkisyanın bütün köhnə çəkişmələri unudaraq onun görüşünə tələsməsi də təsadüf sayılmır.

Ölkədə hakimiyyətin koronavirus pandemiyası üzündən qarşılaşdığı böyük çətinliklər, gərgin siyasi-iqtisadi vəziyyət fonunda Koçaryan-Sarkisyan koalisiyası məqsədlərinə daha asan çatacaqlarını düşünür. Bütün bunlar Ermənistanın böyük tənəzzül yaşadığını bir daha aydın surətdə göstərir və bu ölkənin tarixin arxivinə qovuşacağını istisna etmir.

***Elçin CƏFƏROV,***
***"Azərbaycan"***

# İki düşmən, iki ön cəbhə

***Əvvəli 1-ci səh.***

Belə olmasa COVID-19 yoluxdurma və ölüm sayını amansızlıqla artıracaq, ona qarşı görülən bütün tədbirləri təsirsizləşdirəcək.

İnfeksiyaya qarşı vaksin sınaqları isə davam edir və bəşəriyyət səbirsizliklə tibb elmindən şad xəbər gözləyir...

## Vətəndaşlarımızın təhlükəsizliyi və sağlamlığı prioritetdir

Azərbaycanda da bütün sahələr üzrə qlobal pandemiya ilə mübarizə davam etdirilir. Yeni növ koronavirusun Uhandan dünyaya yayıldığı ilk zamanlardan etibarən ölkəmizdə ona qarşı qabaqlayıcı tədbirlərə start verilib və bunun sayəsində vətəndaşlarımızın təhlükəsizliyi və sağlamlığı etibarlı şəkildə qorunur.

Dövlətimiz tərəfindən atılan təsirli addımlar nəticəsində COVID-19-la bağlı vəziyyət daim nəzarətdədir.

Prezident İlham Əliyevin və birinci xanım Mehriban Əliyevanın hər bir vətəndaşın sağlamlığına diqqəti, ön cəbhədə olan həkimlərin səhhətinə isə xüsusi həssaslıqla yanaşmaları COVID-19-a qarşı mübarizəni daha asan edir. Heydər Əliyev Fondunun dəstəyi ilə spesifik olaraq PSR testlərinin aparıldığı laboratoriyaların qurulması, onların sayının artırılması isə daha çox vətəndaşı analizlərin verilməsinə cəlb etməyə kömək edir. Çünki yoluxmanın qarşısını almaq üçün əsas vasitələrdən biri də infeksiyanın erkən aşkarlanmasıdır.

Eyni zamanda infeksiyaya yoluxan xəstələrin müalicəsinin yüksək səviyyədə aparılması, dərman və digər tibbi ləvazimatların təchizi ilkin mərhələdə virusdan sağalan xəstələrin yoluxanların sayını xeyli üstələməsinə rəvac verdi. Son zamanlarda da yoluxanlarla sağalanlar arasında eyniləşmə baş verir. Mütəxəssislər isə stabilləşməyə vətəndaşların qaydalara əməl etməsinə görə nail olunduğunu bildirirlər.

## Məsafə gözlənmədi, maska taxılmadı, virusun varlığı yaddan çıxdı...

Amma təəssüflə qeyd edək ki, bütün dünyanın pandemiya ilə mübarizə apardığı bir şəraitdə Ermənistan yenə də öz riyakar və namərd əməllərindən əl çəkmək istəmir. Düşmən dövlətimizə qarşı təxribat törədərək qarışıqlıq yaratmaq, vəziyyətimizi çətinləşdirmək niyyətini güdür.

Digər tərəfdən, COVID-19 pandemiyasının hələ məhdudlaşdırılmadığı, yoluxma hallarının yüksək olduğu bir vaxtda aksiyaların keçirilməsi, minlərlə insanın bu aksiyalara qoşulması virusun daha geniş yayılması və insanların həyatını təhlükə qarşısına qoyması üçün əlverişli şərait yaratdı. İyulun 14-də keçirilən aksiyada distansiyanın gözlənməməsi, maskalardan istifadə olunmaması, insanlar arasında sıx təmaslar adi hala çevrildi. Aksiya iştirakçıları virusun varlığını tamamilə unutdular.

Həmçinin vətəndaşların kütləvi şəkildə həlak olmuş hərbçilərimizin yaşadığı ünvanlara toplaşması və onların yaxınlarını ziyarət etməsi, dəfn mərasimlərində müşahidə olunan kütləvilik virusun yayım sürətini daha da artırır. Bir müddət sonra biz bu kütləviliyin acı nəticələrini görəcək və yaşayacağıq. Böyük ehtimal ki, yoluxma dinamikasında artım müşahidə olunacaq.

İnsanların kütləvi şəkildə dəfn mərasimlərində iştirakı və həmin yerlərdə hərbçilərlə sıx təmasları ordu üçün də ciddi təhlükə yaradır. Bu halda koronavirus ordumuza da ayaq aça bilər.

Bütün bunlara yol verməmək üçün insanlarımız kütləvi aksiyalardan, ziyarətlərdən, dəfn mərasimlərində iştirakdan çəkinməlidirlər.

Vətəndaşlarımız daha məsuliyyətli davranmaqla, karantin rejiminə riayət etməklə, sabitliyi və təhlükəsizliyi qorumaqla həm xəstəliklə mübarizəyə, həm də Milli Ordumuzun, hərbçilərimizin öz işlərini lazımi şəkildə yerinə yetirmələrinə mühüm töhfələrini verə bilərlər.

Bəli, reallıq budur ki, Azərbaycan indi iki təhlükəli düşmənlə, iki ön cəbhədə vuruşur. Hər ikisi hiyləgər, hər ikisi insan qənimidir. Onlar kiçicik bir ehtiyatsızlıq, sərvaxtlıq gözləyirlər ki, amansızlıqla hücuma keçsinlər.

Bu çətin günlərdə, ətrafımızın düşmənlərlə sarıldığı bir zamanda dövlətimizin qoyduğu qaydalara riayət edərək, daha ehtiyatlı davranaraq, məsuliyyətli olaraq təhlükəni dəf etməliyik. Bilməliyik ki, hər iki düşmənə qarşı qalibiyyət hər birimizin davranışından, vətəndaş həmrəyliyindən, birliyindən asılıdır.

Əminik ki, təhlükəyə qarşı səfərbər olaraq vətənimizin üzərinə kölgə salan hər iki qəddar düşmənin təhlükəli nəfəsini tezliklə boğacağıq...

***Yasəmən MUSAYEVA,***
***"Azərbaycan"***

**ŞƏHİDLƏR ölməz, VƏTƏN bölünməz!**

# Şəhid əsgər Nazim İsmayılov Ağstafada dəfn olunub





İyulun 16-da səhər saatlarında Azərbaycan-Ermənistan dövlət sərhədinin Tovuz rayonu istiqamətində gedən döyüşlərdə düşmən təxribatının qarşısını alarkən qəhrəmancasına şəhid olan İsmayılov Nazim Əfqan oğlu dünən Ağstafa rayonunda dəfn edilib.

AZƏRTAC xəbər verir ki, şəhid hərbçimizin nəşi doğulub boya-başa çatdığı Ağstafa rayonunun Kol Xəlifəli kəndinə gətirilib. Şəhidimizin cənazəsi böyük izdihamla qarşılanıb.

Vida mərasimində Müdafiə Nazirliyinin, Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin, rayon icra hakimiyyətinin, hüquq-mühafizə orqanlarının nümayəndələri, Milli Məclisin deputatları, kənd sakinləri, rayon ictimaiyyətinin təmsilçiləri və şəhidin ailə üzvləri iştirak ediblər.

Sonra şəhidimiz Kol Xəlifəli kənd qəbiristanlığında torpağa tapşırılıb. Dəfn mərasimində izdiham yaşanıb. Şəhidimizin məzarı üstünə tər qərənfil və qızıl güllər düzülüb.

Şəhidin tabutu üzərindəki Azərbaycanın üçrəngli bayrağı qardaşı İsmayıl İsmayılzadəyə təqdim edilib.

Şəhidin kiçik qardaşı İsmayıl İsmayılzadə hazırda ordu sıralarında əsgər kimi xidmət edir.

# Respublika Veteranlar Təşkilatı beynəlxalq qurumları Ermənistanın təxribatlarına hüquqi qiymət verməyə çağırır

Azərbaycan Respublikası Müharibə, Əmək və Silahlı Qüvvələr Veteranları Təşkilatının Rəyasət Heyəti beynəlxalq qurumları Ermənistan silahlı qüvvələrinin Azərbaycanın mülki əhalisinə qarşı törətdiyi növbəti təcavüz aktına görə işğalçı ölkə rəhbərliyini sərt şəkildə qınamağa çağıran bəyanat yayıb.

AZƏRTAC xəbər verir ki, bəyanatda deyilir: "Ermənistan silahlı qüvvələrinin Ermənistan-Azərbaycan dövlət sərhədinin Tovuz rayonu istiqamətində Azərbaycan Silahlı Qüvvələrinin mövqelərini atəşə tutması dünyada sülhə və əmin-amanlığa növbəti təhdiddir. Son günlər Ermənistan silahlı qüvvələrinin atəşkəs rejimini mütəmadi şəkildə pozaraq Azərbaycan Ordusunun mövqelərini atəşə tutması hərbi qulluqçularımızın ölümünə və yaralanmasına səbəb olub. Eyni zamanda Ermənistan məkrli və çirkin siyasətini davam etdirərək cəbhə bölgəsinə yaxın ərazilərdə yerləşən kəndlərin dinc əhalisini iriçaplı silahlardan və ağır artilleriyadan atəşə tutub. Nəticədə dinc sakinlər arasında da həlak olan və yaralananlar var. Belə ki, iyulun 12-də günorta saatlarından başlayaraq Ermənistan silahlı qüvvələri artilleriya qurğularından istifadə etməklə Tovuz rayonu istiqamətində Azərbaycan Silahlı Qüvvələrinin mövqelərini ələ keçirmək məqsədilə hücuma keçməyə cəhd göstərib".

Bildirilib ki, BMT Təhlükəsizlik Şurasının 822, 853, 874, 884 saylı qətnamələrinə bu günədək əməl etməyən, Azərbaycan torpaqlarını işğal altında saxlayan Ermənistanın ölkəmizin beynəlxalq səviyyədə tanınan ərazi bütövlüyünə növbəti təxribatı da yolverilməzdir. Dünya ictimaiyyəti bilməlidir ki, Dağlıq Qarabağ münaqişəsində işğalçı ilə işğala məruz qalana eyni səviyyədə yanaşma Azərbaycan xalqına qarşı ayrı-seçkilikdir.

Azərbaycan Respublikası tolerant və multikultural dəyərləri ilə dünyada sülhün bərqərar olmasına daha çox səbir və qətiyyətlə yanaşıb. Ərazisi işğal altında olan və erməni atəşi altında yaşayan Azərbaycan xalqı daim dözüm nümayiş etdirib, münaqişənin dinc yolla həllinə çalışıb. Əfsuslar olsun ki, erməni tərəfi bu dəfə də Azərbaycanın humanizmindən öz mənfur əməlləri üçün istifadə edib.

"Biz veteranlar bir daha dünya ictimaiyyətini, xüsusilə də Dünya Veteranlar Federasiyasını və digər nüfuzlu beynəlxalq qurumları respublikamızın BMT tərəfindən tanınmış ərazilərinin işğaldan azad olunması, Ermənistanın Azərbaycan ərazisində törətdiyi cinayətlərə layiqli hüquqi qiymət verilməsi və beynəlxalq hüquq normalarının pozulmasının qarşısının alınması, eləcə də Dağlıq Qarabağ münaqişəsi nəticəsində soydaşlarımızın pozulmuş hüquq və azadlıqlarının bərpası istiqamətində zəruri addımlar atmağa və təxirəsalınmaz tədbirlər görməyə çağırırıq", - deyə müraciətdə vurğulanıb.

## "Azərpoçt" MMC katriclərin dolumu və təmiri xidmətinin satın alınması üzrə

## *açıq tender elan edir*

LOT - 1: Katriclərin dolumu və təmiri xidmətinin satın alınması

Tender iştirakçılarına təklif edilir ki, **http://www.etender.gov.az -** dövlət satınalmalarının vahid internet Portalına (Portal) elektron imzaları vasitəsilə daxil olsunlar və tender haqqında ətraflı məlumatı əldə etsinlər.

Tenderdə iştirak etmək istəyənlər aşağıdakı məbləğdə iştirak haqqını göstərilən hesaba köçürdükdən sonra Azərbaycan dilində tərtib olunmuş tenderin əsas şərtlər toplusunu dövlət satınalmalarının vahid internet Portalı vasitəsilə əldə edə bilərlər.

Hər bir iddiaçı tenderdə iştirak haqqı kimi:

LOT 1 üzrə 150 AZN məbləğində pul vəsaitini aşağıdakı bank hesabına köçürməlidir:

**"Azərpoçt" MMC**
**VÖEN: 9900037711**
**Bankın adı: "Azərpoçt" MMC**
**Kodu: 690001**
**VÖEN: 9900037711**
**Müxbir hesab: AZ76NABZ01350100000000094944**
**Hesab №: AZ82AZPO9999538100042000125**
**S.W.I.F.T.BIK: AZPOAZ22**
**İştirak haqqı hər LOT üzrə ayrı-ayrılıqda ödənməlidir.**

İddiaçılar tərəfindən ödənilmiş iştirak haqqı heç bir halda geri qaytarılmır.

İddiaçılar tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri dövlət satınalmalarının vahid internet Portalı vasitəsilə elektron qaydada təqdim etməlidirlər:

- *tenderdə iştirak etmək üçün yazılı müraciət;*
- *tenderdə iştirak haqqının ödənilməsi barədə bank sənədi;*
- *vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin olmaması haqqında müvafiq vergi orqanından arayış;*
- *iddiaçının son bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti (bir ildən az müddətdə fəaliyyət göstərirsə, həmin dövrü əhatə edən maliyyə hesabatının surəti);*
- *iddiaçının son bir ildəki maliyyə vəziyyəti haqqında bank arayışı (bir ildən az müddətdə fəaliyyət göstərirsə, həmin dövrü əhatə edən bank arayışı);*
- *iddiaçının ilkin qeydiyyat sənədlərinin müvafiq qaydada təsdiq edilmiş surətləri (iddiaçının tam adı, hüquqi statusu, nizamnaməsinin qeydiyyatdan keçdiyi ölkə və əsas fəaliyyət yeri göstərilməklə), ünvan və bank rekvizitləri;*
- *tender təklifini və satınalma müqaviləsini imzalamaq səlahiyyətinə malik olan şəxsin səlahiyyətlərini təsdiq edən sənəd (vəzifəyə təyin edilməsi barədə əmrin təsdiq olunmuş surəti və ya müvafiq səlahiyyətin verilməsi barədə etibarnamə);*
- *iddiaçının analoji iş təcrübəsini təsdiq edən sənədlər, təqdim olunacaq malların mənşə və uyğunluq sertifikatları;*
- *tenderin əsas şərtlər toplusunda göstərilən bütün digər sənədlər;*
- *iddiaçının tender təklifi. Təkliflərin açıldığı tarixdən sonra ən azı 30 bank günü qüvvədə olmalıdır;*
- *iddiaçının tender təklifinin bank təminatı (zərflər açıldığı gündən ən azı 60 bank günü müəyyən edilir və təklifin qiymətinin ən azı 1 (bir) faizini təşkil etməlidir).*

İddiaçılar konsorsium yaratmaqla tenderdə iştirak etmək istəyirsə, konsorsium barədə müqavilə və ya razılaşma, eləcə də konsorsium iştirakçısı olan bütün şirkətlər barədə yuxarıda göstərilən zəruri sənədləri (məlumatları) təqdim etməlidirlər.

İddiaçılar tenderdə iştirak etmək üçün yuxarıda göstərilən sənədləri (tender təklifi və tender təklifinin bank təminatı istisna olmaqla) **10 avqust 2020-ci il saat 15:00-dək,** tender təklifini və tender təklifinin bank təminatını isə **18 avqust 2020-ci il saat 18:00-dək** dövlət satınalmalarının vahid internet Portalı vasitəsilə elektron qaydada təqdim etməlidirlər.

Göstərilən vaxtdan gec təqdim olunmuş təkliflər dövlət satınalmalarının vahid internet Portalında nəzərə alınmayacaqdır.

İddiaçıların təklifləri **19 avqust 2020-ci il saat 11:00-da** açılacaqdır. Təkliflərin açılışı dövlət satınalmalarının vahid internet Portalında virtual iclas formatında aparılacaqdır.

Elektron satınalmanın hər bir iştirakçısına onun təklifinin açılmasını və qiymətləndirilməsini müşahidə etmək üçün bərabər şərait yaradılır.

Tenderlə əlaqədar istənilən məlumatı əldə etmək üçün aşağıdakı şəxsə müraciət etmək olar: Oktay İsmayılov - Tender komissiyasının üzvü, (tel: +99412-493-56-00, faks: +99412-493-00-37).

***Tender komissiyası***

## Azərbaycan Respublikası Təhsil Nazirliyinin Təsərrüfathesablı Əsaslı Tikinti və Təchizat İdarəsi təhsil müəssisələri üçün fizika, kimya və biologiya kabinetlərinə mobil rəqəmsal laboratoriya avadanlığı dəstlərinin satın alınması məqsədilə

## *açıq tender elan edir*

Tender 1 LOT üzrə keçirilir:

LOT - 1: Fizika, kimya və biologiya kabinetləri üçün mobil rəqəmsal laboratoriya avadanlığı dəstlərinin satın alınması

Tender iştirakçılarına təklif edilir ki, **https://www.etender.gov.az/ -** dövlət satınalmalarının vahid internet Portalına (Portal) elektron imzaları vasitəsilə daxil olsunlar və tender haqqında ətraflı məlumatı əldə etsinlər.

Tenderdə iştirak etmək istəyən təşkilatlar 200 (iki yüz) manat məbləğində heç bir halda geri qaytarılmayan iştirak haqqını aşağıda göstərilən hesaba köçürdükdən sonra Azərbaycan dilində tərtib olunmuş əsas şərtlər toplusunu Portal vasitəsilə əldə edə bilərlər:

**Təşkilat: Təhsil Nazirliyinin Təsərrüfathesablı Əsaslı Tikinti və Təchizat İdarəsi**
**Bankın adı: "Azərbaycan Beynəlxalq Bankı" ASC-nin Sənaye filialı**
**Kod: 805603**
**VÖEN: 9900001881**
**M/h: AZ03NABZ01350100000000002944**
**S.W.I.F.T. IBAZAZ 2X**
**H/h: AZ88IBAZ38030019441856517211**
**VÖEN: 1500016711**

İddiaçılar tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri dövlət satınalmalarının vahid internet Portalı vasitəsilə elektron qaydada təqdim etməlidirlər:

- *tenderdə iştirak etmək üçün yazılı müraciət;*
- *tenderdə iştirak haqqının ödənilməsi barədə bank sənədi;*
- *vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin olmaması haqqında müvafiq vergi orqanından arayış;*
- *iddiaçının son bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti (bir ildən az müddətdə fəaliyyət göstərirsə həmin dövrü əhatə edən maliyyə hesabatının surəti);*
- *iddiaçının son bir ildəki maliyyə vəziyyəti haqqında bank arayışı (bir ildən az müddətdə fəaliyyət göstərirsə, həmin dövrü əhatə edən bank arayışı);*
- *iddiaçının ilkin qeydiyyat sənədlərinin müvafiq qaydada təsdiq edilmiş surətləri (iddiaçının tam adı, hüquqi statusu, nizamnaməsinin qeydiyyatdan keçdiyi ölkə və əsas fəaliyyət yeri göstərilməklə), ünvan və bank rekvizitləri;*
- *tender təklifini və satınalma müqaviləsini imzalamaq səlahiyyətinə malik olan şəxsin səlahiyyətlərini təsdiq edən sənəd (vəzifəyə təyin edilməsi barədə əmrin təsdiq olunmuş surəti və ya müvafiq səlahiyyətin verilməsi barədə etibarnamə);*
- *iddiaçı tərəfindən müvafiq (təhsil) sahədə peşəkarlığı və təcrübəsi (bağladığı müqavilələr haqqında məlumat);*
- *iddiaçının 2018-ci ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti;*
- *iddiaçının 2018-ci ildəki maliyyə vəziyyəti haqqında bank arayışı;*
- *iddiaçı tərəfindən doldurulmuş tenderin əsas şərtlər toplusunun "Malgöndərənlərin (podratçıların) ixtisas uyğunluğuna dair məlumat" cədvəli (Əlavə 1);*
- *iddiaçının müflis elan olunmaması, əmlakı üzərinə həbs qoyulmaması, ödənişə yönəlmiş girovun olmaması, məhkəmənin qərarı ilə kommersiya fəaliyyəti dayandırılmış şəxs olmaması, eləcə də satınalma prosedurlarının başlanmasından əvvəlki 5 il ərzində özlərinin, habelə işlərini idarə edənlərin müvafiq peşə fəaliyyətləri ilə məşğul olmasının məhkəmə qaydasında qadağan edilməməsini təsdiq edən sənəd;*
- *tenderin əsas şərtlər toplusunda göstərilən bütün digər sənədlər;*
- *iddiaçının tender təklifi (təkliflərin açıldığı tarixdən sonra azı 30 bank günü qüvvədə olmalıdır; ödəniş şərtləri, malların tam göndərilməsi (təhvil verilməsi) müddəti və mallar üçün təminat şərtləri barədə məlumatlar tender təkifinin tərkib hissəsi sayılaraq təqdim olunmalıdır);*
- *iddiaçının tender təklifinin bank təminatı (təminatın qüvvədə olma müddəti tender təklifinin qüvvədə olma müddətindən 30 bank günü çox olmalıdır və tender təklifinin ümumi qiymətinin 1 (bir) faizini təşkil etməlidir).*

Sənədlər Azərbaycan dilində tərtib olunmalıdır (xarici dildə olan tender sənədləri Azərbaycan dilinə tərcümə olunmalıdır). Tender proseduru "Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun keçiriləcəkdir. İddiaçılar tenderdə iştirak etmək üçün yuxarıda qeyd olunan sənədləri **10.08.2020-ci il saat 10:00-dək,** tender təklifi və tender təklifinin bank təminatını **18.08.2020-ci il saat 10:00-dək** Portal vasitəsilə təqdim etməlidirlər. İddiaçıların təklifləri **19.08.2020-ci il saat 10:00-da** açılacaqdır. İddiaçılar açılışın nəticələri ilə Portal vasitəsilə tanış ola bilərlər.

**QEYD:** *Tenderdə iştirak, tenderin qiymətləndirilməsi və digər bütün prosedurlar yalnız elektron qaydada Portal vasitəsilə aparılır.*

***Tender komissiyası***

## Azərbaycan Respublikası Mədəniyyət Nazirliyinin Gəncə Regional Mədəniyyət İdarəsi

## *açıq tender elan edir*

Tender 1 (bir) LOT üzrə keçirilir.

LOT 1. Dəftərxana və təsərrüfat xərclərinin satın alınması

Tender iştirakçılarına təklif edilir ki, **www.etender.gov.az** dövlət satınalmalarının vahid internet Portalına elektron imzaları vasitəsilə daxil olsunlar və tender haqqında ətraflı məlumatı əldə etsinlər. Müqaviləni yerinə yetirmək üçün tender iştirakçıları lazımi maliyyə və texniki imkanlara malik olmalıdırlar.

Tenderdə iştirak etmək istəyən təşkilatlar LOT üzrə müəyyən edilən məbləğdə iştirak haqqını göstərilən hesaba köçürdükdən sonra müsabiqə üzrə təkliflərini Portal vasitəsilə təqdim edə bilərlər.

İştirak haqqı LOT üzrə 100 (bir yüz) manat

| | |
|---|---|
| **Adı:** | **Dövlət Xəzinədarlığı Agentliyi** |
| **Kodu:** | **210005** |
| **VÖEN:** | **1401555071** |
| **Müxbir hesab:** | **AZ41NABZ01360100000000003944** |
| **S.W.I.F.T BIK** | **CTREAZ22** |

| | |
|---|---|
| **Adı** | **Gəncə Regional Mədəniyyət İdarəsi** |
| **Hesab №:** | **AZ48CTRE0000000000000 2170602** |
| **VÖEN:** | **2300144211** |
| **Fond 7 iqtisadi təsnifat kodu:** | **142330** |

İddiaçılar tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri təqdim etməlidirlər:

- *iştirak haqqının ödənilməsini təsdiq edən bank sənədi;*
- *tender təklifi (tender təklifləri zərflərin açıldığı gündən sonra azı 30 (otuz) bank günü qüvvədə olmalıdır);*
- *tender təklifinin birinci əlavəsi kimi tender təklifinin ümumi qiymətinin 1 (bir) faizi məbləğində tender təklifinin təminatı - bank zəmanəti (zərflərin açıldığı tarixdən azı 60 (altmış) bank günü çox olmalıdır);*
- *Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin olmaması haqqında müvafiq vergi orqanlarından arayışlar;*
- *iddiaçının son bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti;*
- *iddiaçının son bir ildəki maliyyə vəziyyəti barədə bank arayışı;*
- *iddiaçının tam adı, hüquqi statusu, qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri;*
- *iddiaçıların müvafiq mallar üzrə mənşə və uyğunluq sertifikatları.*

Sənədlər Azərbaycan dilində tərtib olunmalıdır (xarici dildə olan tender sənədləri Azərbaycan dilinə tərcümə olunmalıdır).

İddiaçılar tender ilə bağlı sualları Portal vasitəsilə satınalan təşkilata ünvanlaya bilərlər. Tender proseduru "Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun keçiriləcəkdir.

İddiaçılar tenderdə iştirak etmək üçün ixtisas göstəricilərinə dair sənədləri **11 avqust 2020-ci il saat 14:00-a** qədər, tender təklifi və bank təminatı sənədlərini **19 avqust 2020-ci il saat 14:00-a** qədər Portal vasitəsilə təqdim etməlidirlər.

İddiaçıların təklifləri **20 avqust 2020-ci il saat 14:00-da** açılacaqdır. İddiaçılar açılışın nəticələri ilə Portal vasitəsilə tanış ola bilərlər.

**QEYD:** *Tenderdə iştirak, tenderin qiymətləndirilməsi və digər bütün prosedurlar yalnız elektron qaydada Portal vasitəsilə aparılır.*

***Tender komissiyası***

## Şəki Şəhər İcra Hakimiyyəti 2020-ci ildə Şəki şəhərində görüləcək (Büdcədənkənar vəsait hesabına) abadlıq işlərinin satın alınması üçün elektron satınalma vasitəsilə keçirilən

## *açıq tenderə dəvət edir*

Tender iştirakçılarına təklif edilir ki, **https://www.etender.gov.az/ -** dövlət satınalmalarının vahid internet Portalına (Portal) elektron imzaları vasitəsilə daxil olsunlar və tender haqqında ətraflı məlumatı əldə etsinlər. Müqaviləni yerinə yetirmək üçün tender iştirakçıları lazımi maliyyə və texniki imkanlara malik olmalıdırlar. Tenderdə iştirak etmək istəyən təşkilatlar LOT üzrə müəyyən edilən məbləğdə iştirak haqqını göstərilən hesaba köçürdükdən sonra müsabiqə üzrə təkliflərini Portal vasitəsilə təqdim edə bilərlər.

**LOT - 320 (üç yüz iyirmi) manat**
**Təşkilat: Şəki Şəhər İcra Hakimiyyəti**
**HESAB: AZ03AIIB32051019447000201170**
**VÖEN: 3000104011**
**BANK: "Kapital Bank" ASC Şəki filialı**
**Kodu: 200703**
**VÖEN BANK: 9900003611**
**Müxbir hesabı: AZ37NABZ01350100000000001944**
**S.W.I.F.T. AIIBAZ2X**

Əlaqələndirici şəxs: Alxasov Taleh, **tel: (02424) 4-28-70**

İştirak haqqı heç bir halda geri qaytarılmır.

İddiaçılar tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri təqdim etməlidirlər:

- *iddiaçının tam adı, hüquqi statusu, nizamnaməsi, qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri;*
- *tenderdə iştirak haqqının ödənilməsi barədə bank sənədi;*
- *tender təklifi (zərflərin açıldığı tarixdən sonra ən azı 30 bank günü qüvvədə olmalıdır);*
- *tender təklifi dəyərinin 1 faizi həcmində bank təminatı (zərflərin açıldığı tarixdən sonra ən azı 60 bank günü qüvvədə olmalıdır);*
- *Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin olmaması haqqında müvafiq vergi orqanından arayış;*
- *iddiaçının son bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti;*
- *iddiaçının son bir ildəki maliyyə vəziyyəti haqqında bank arayışı;*
- *podratçının müəyyən etdiyi digər sənədlər.*

Sənədlər Azərbaycan dilində tərtib olunmalıdır (xarici dildə olan tender sənədləri Azərbaycan dilinə tərcümə olunmalıdır). İddiaçılar tender ilə bağlı sualları Portal vasitəsilə satınalan təşkilata ünvanlaya bilərlər. Tender proseduru "Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun keçiriləcəkdir. İddiaçılar tenderdə iştirak etmək üçün ixtisas göstəricilərinə dair sənədləri **10.08.2020-ci il saat 15:00-a** qədər və tender təklifi ilə bank təminatı sənədlərini **18.08.2020-ci il saat 15:00-a** qədər Portal vasitəsilə təqdim etməlidirlər. İddiaçıların təklifləri **19.08.2020-ci il saat 15:00-da** açılacaqdır. İddiaçılar açılışın nəticələri ilə Portal vasitəsilə tanış ola bilərlər.

**QEYD:** *Tenderdə iştirak, tenderin qiymətləndirilməsi və digər bütün prosedurlar yalnız elektron qaydada Portal vasitəsilə aparılır.*

***Tender komissiyası***

# OXUCULARIN NƏZƏRİNƏ
# "AZƏRBAYCAN"

*qəzetinə 2020-ci ilin ikinci yarısı üçün abunə yazılışı kampaniyası davam edir!*

**Abunə respublikanın bütün poçt şöbələri tərəfindən aparılır. Eyni zamanda aşağıda göstərilən mətbuatyayımı qurumlarına müraciət edə bilərsiniz:**

| | |
|---|---|
| "Azərmətbuatyayımı" ASC | (012) 440-46-94, (070) 244-17-34 |
| "Azərpoçt" ASC | (012) 598-49-55, (051) 225-02-13 |
| "Qaya" firması | (012) 564-63-45, (050) 214-04-05 |
| "Kaspi" MMC | (012) 432-39-55, (012) 510-82-24 |
| "Region Press" MMC | (055) 316-79-01, (050) 316-79-01 |
| "Səma-M" MMC | (012) 594-09-59 |
| "Ziya" LTD | (012) 497-76-96, (050) 306-77-22 |
| "Pressinform" MMC | (012) 598-49-52, (070) 340-01-00 |
| "City press" MMC | (055) 819-09-26 |

*6 aylıq*
62,40 (altmış iki manat qırx qəpik) manat

*3 aylıq*
31,20 (otuz bir manat iyirmi qəpik) manat

*1 aylıq*
10,40 (on manat qırx qəpik) manat

*Hörmətli oxucular!*
*Abunə ilə bağlı hər hansı bir problemlə üzləşsəniz, redaksiyaya (012) 539-59-33 nömrəli telefona zəng vura bilərsiniz.*

## ABUNƏ YAZILMAĞA TƏLƏSİN!


## AZƏRBAYCAN RESPUBLİKASI TƏHSİL NAZİRLİYİ
## AZƏRBAYCAN DÖVLƏT PEDAQOJİ UNİVERSİTETİ

2020/2021-ci tədris ilində aşağıdakı ixtisaslar üzrə ödənişli əsaslarla təkrar ali təhsil almaq üçün sənəd qəbulu

## ELAN EDİR

- Azərbaycan dili və ədəbiyyatı müəllimliyi (əyani - Azərbaycan bölməsi);
- Biologiya müəllimliyi (əyani - Azərbaycan bölməsi);
- Coğrafiya müəllimliyi (əyani - Azərbaycan bölməsi);
- Fizika müəllimliyi (əyani - Azərbaycan bölməsi);
- İbtidai sinif müəllimliyi (əyani - Azərbaycan və rus bölmələri);
- İnformatika müəllimliyi (əyani - Azərbaycan bölməsi);
- Kimya müəllimliyi (əyani - Azərbaycan bölməsi);
- Korreksiyaedici təlim (əyani - Azərbaycan bölməsi);
- Məktəbəqədər təhsil (əyani - Azərbaycan və rus bölmələri).
- Riyaziyyat müəllimliyi (əyani - Azərbaycan bölməsi);
- Tarix müəllimliyi (əyani - Azərbaycan bölməsi);
- Təhsildə sosial-psixoloji xidmət (əyani - Azərbaycan bölməsi).
- Musiqi müəllimliyi (əyani - Azərbaycan bölməsi);
- Təsviri incəsənət müəllimliyi (əyani - Azərbaycan bölməsi);
- Sosial iş (əyani - Azərbaycan bölməsi).

**Təkrar ali təhsil almaq istəyənlər aşağıdakı sənədləri təqdim etməlidirlər:**

- rektorun adına ərizə (sənəd əl ilə doldurularaq imzalanır);
- şəxsiyyət vəsiqəsi (hər iki üzü);
- bakalavr diplomu və diploma əlavə;
- cari ilin bakalavr məzunları üçün ali məktəbi bitirmə haqqında arayış və transkript;
- əmək kitabçasının surəti (işləyənlər üçün);
- 3x4 sm ölçüdə 4 ədəd rəngli fotoşəkil;
- sağlamlıq haqqında arayış;
- CV (anket).

**Sənədlər skaner olunaraq ayrı-ayrılıqda "pdf" formatına çevrilməli və bütün sənədlər onlayn qaydada (adpu-davamli-qebul@mail.ru) bir elektron məktubda 25 avqust 2020-ci il tarixədək (şənbə və bazar günlərindən başqa) saat 10:00-dan 17:00-dək göndərilməlidir.**

Tələb olunan sənədlərin surəti pandemiya başa çatdıqdan sonra şöbəyə təqdim edilməlidir. Təhsil müddəti 3 ildir (yalnız əyani təhsilalma formasında).

**Ünvan:** Bakı şəhəri, Həsən Əliyev küçəsi, 104, ADPU-nun II tədris binası, Davamlı təhsil və innovasiyalar şöbəsi (otaq 710), www.adpu.edu.az

**Telefon:** (+99412) 465-29-76
**WhatsApp:** (+99450) 210 42 74
**E-mail:** adpu-davamli-qebul@mail.ru

*Rektorluq*

## B İ L D İ R İ Ş

Azərbaycan Respublikasının Mərkəzi Bankı tərəfindən "Azərbaycan" qəzetinin 17.06.2020-ci il tarixli sayında dərc edilmiş və dövlət satınalmalarının vahid internet Portalı vasitəsilə keçirilmiş "Azərbaycan Respublikası Mərkəzi Bankının mərkəzi ofisinin və ərazi idarələrinin inzibati binalarında quraşdırılmış yanğınsöndürmə qurğularına, sistem və avadanlıqlarına texniki xidmətin satın alınması"na dair tender proseduru Tender komissiyasının qərarına əsasən, "Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikası Qanununun 11.1-ci maddəsinə müvafiq olaraq baş tutmamış hesab edilmişdir.

*Tender komissiyası*

## B İ L D İ R İ Ş

Dayanıqlı və Operativ Sosial Təminat Agentliyi tərəfindən pikap tipli avtonəqliyyat vasitəsinin satın alınması ilə əlaqədar keçirilmiş elektron açıq tender prosedurunda iştirak edən iddiaçıların təklifləri qiymətləndirilib. Açıq tenderin nəticələri haqqında Tender komissiyasının 09 iyul 2020-ci il tarixli qərarına əsasən, "Diamond Motors" MMC qalib elan edilmişdir.

Həmin təşkilatla müvafiq satınalma müqaviləsi bağlanmışdır.

*Tender komissiyası*

## B İ L D İ R İ Ş

Lənkəran Dövlət Universiteti tərəfindən "Maşın və avadanlıqların satın alınması" məqsədilə keçirilən açıq tender prosedurunda iştirak etmiş iddiaçıların təklifləri qiymətləndirilmişdir. Açıq tender prosedurunun nəticələri haqqında Tender komissiyasının 22 may 2020-ci il tarixli yekun protokoluna əsasən, "Masad" MMC qalib elan edilmişdir.

Həmin hüquqi şəxslə 09.07.2020-ci il tarixdə müvafiq satınalma müqaviləsi bağlanmışdır.

*Tender komissiyası*

## B İ L D İ R İ Ş

Lənkəran Dövlət Universiteti tərəfindən "Dəftərxana və təsərrüfat mallarının satın alınması" məqsədilə keçirilən açıq tender prosedurunda iştirak etmiş iddiaçıların təklifləri qiymətləndirilmişdir. Açıq tender prosedurunun nəticələri haqqında Tender komissiyasının 22 may 2020-ci il tarixli yekun protokoluna əsasən, "Kifayət 1961" MMC qalib elan edilmişdir.

Həmin hüquqi şəxslə 09.07.2020-ci il tarixdə müvafiq satınalma müqaviləsi bağlanmışdır.

*Tender komissiyası*

## B İ L D İ R İ Ş

Lənkəran Dövlət Universiteti tərəfindən "Mətbəə məhsullarının satın alınması" məqsədilə keçirilən kotirovka sorğusu prosedurunda iştirak etmiş iddiaçıların təklifləri qiymətləndirilmişdir. Kotirovka sorğusu prosedurunun nəticələri haqqında Tender komissiyasının 20 may 2020-ci il tarixli yekun protokoluna əsasən, "Toğrul-SƏ" MMC qalib elan edilmişdir.

Həmin hüquqi şəxslə 09.07.2020-ci il tarixdə müvafiq satınalma müqaviləsi bağlanmışdır.

*Tender komissiyası*

## AZƏRBAYCAN RESPUBLİKASI TƏHSİL NAZİRLİYİ
## AZƏRBAYCAN DÖVLƏT PEDAQOJİ UNİVERSİTETİ

2020/2021-ci tədris ilində aşağıdakı ixtisaslar üzrə ödənişli əsaslarla yenidənhazırlanma təhsili almaq üçün sənəd qəbulu

## ELAN EDİR

- Azərbaycan dili və ədəbiyyatı müəllimliyi (əyani - Azərbaycan bölməsi);
- Biologiya müəllimliyi (əyani - Azərbaycan bölməsi);
- Coğrafiya müəllimliyi (əyani - Azərbaycan bölməsi);
- Fizika müəllimliyi (əyani - Azərbaycan bölməsi);
- İbtidai sinif müəllimliyi (əyani - Azərbaycan və rus bölmələri);
- İnformatika müəllimliyi (əyani - Azərbaycan bölməsi);
- Kimya müəllimliyi (əyani - Azərbaycan bölməsi);
- Korreksiyaedici təlim (əyani - Azərbaycan bölməsi);
- Məktəbəqədər təhsil (əyani - Azərbaycan və rus bölmələri).
- Riyaziyyat müəllimliyi (əyani - Azərbaycan bölməsi);
- Tarix müəllimliyi (əyani - Azərbaycan bölməsi);
- Təhsildə sosial-psixoloji xidmət (əyani - Azərbaycan bölməsi).
- Musiqi müəllimliyi (əyani - Azərbaycan bölməsi);
- Təsviri incəsənət müəllimliyi (əyani - Azərbaycan bölməsi);
- Sosial iş (əyani - Azərbaycan bölməsi).

**Yenidənhazırlanma təhsili almaq istəyənlər aşağıdakı sənədləri təqdim etməlidirlər:**

- rektorun adına ərizə (sənəd əl ilə doldurularaq imzalanır);
- şəxsiyyət vəsiqəsi (hər iki üzü);
- bakalavr diplomu və diploma əlavə;
- cari ilin bakalavr məzunları üçün ali məktəbi bitirmə haqqında arayış və transkript;
- əmək kitabçasının surəti (işləyənlər üçün);
- 3x4 sm ölçüdə 4 ədəd rəngli fotoşəkil;
- sağlamlıq haqqında arayış;
- CV (anket).

**Sənədlər skaner olunaraq ayrı-ayrılıqda "pdf" formatına çevrilməli və bütün sənədlər onlayn qaydada (adpu-davamli-qebul@mail.ru) bir elektron məktubda 25 avqust 2020-ci il tarixədək (şənbə və bazar günlərindən başqa) saat 10:00-dan 17:00-dək göndərilməlidir.**

Tələb olunan sənədlərin surəti pandemiya başa çatdıqdan sonra şöbəyə təqdim edilməlidir. Təhsil müddəti 1 tədris ilidir (yalnız əyani təhsilalma formasında).

**Ünvan:** Bakı şəhəri, Həsən Əliyev küçəsi, 104, ADPU-nun II tədris binası, Davamlı təhsil və innovasiyalar şöbəsi (otaq 710), www.adpu.edu.az

**Telefon:** (+99412) 465-29-76
**WhatsApp:** (+99450) 210 42 74
**E-mail:** adpu-davamli-qebul@mail.ru

*Rektorluq*

## ALLAH RƏHMƏT ELƏSİN!

Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin rəhbərliyi və kollektivi Kiçik və Orta Biznesin İnkişafı Agentliyi İdarə Heyətinin sədri Orxan Məmmədova əzizi

**SEVİL XANIMIN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Azərbaycan Respublikasının Mənzil İnşaatı Dövlət Agentliyinin rəhbərliyi və kollektivi Kiçik və Orta Biznesin İnkişafı Agentliyinin İdarə Heyətinin sədri Orxan Məmmədova əzizi

**SEVİL XANIMIN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Azərbaycan Dövlət Pedaqoji Universitetinin rəhbərliyi və kollektivi ADA Universitetinin rektoru Hafiz Paşayevə həyat yoldaşı

**RƏNA PAŞAYEVANIN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Azərbaycan Respublikası Kiçik və Orta Biznesin İnkişafı Agentliyinin rəhbərliyi və kollektivi Xarici İşlər Nazirliyinin Dövlət Protokolu İdarəsinin rəisi Pərvin Mirzəzadəyə anası

**LAMİYƏ MİRZƏZADƏNİN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Azərbaycan Respublikası Ali Məhkəməsinin kollektivi ADA Universitetinin rektoru Hafiz Paşayevə həyat yoldaşı

**RƏNA XANIMIN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

Azərbaycan Respublikası Əqli Mülkiyyət Agentliyinin rəhbərliyi və kollektivi Xarici İşlər Nazirliyinin Dövlət Protokolu İdarəsinin rəisi, səfir Pərvin Mirzəzadəyə anası

**LAMİYƏ XANIMIN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

"AzerGold" QSC-nin rəhbərliyi və kollektivi Azərbaycan Respublikası Kiçik və Orta Biznesin İnkişafı Agentliyi İdarə Heyətinin sədri Orxan Məmmədova əzizi

**SEVİL XANIMIN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Azərbaycan Respublikası Ərazilərinin Bərpası və Yenidən Qurulması üzrə Agentliyin rəhbərliyi və kollektivi Kiçik və Orta Biznesin İnkişafı Agentliyi İdarə Heyətinin sədri Orxan Məmmədova əzizi

**SEVİL XANIMIN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Azərbaycan Respublikası Müdafiə Sənayesi naziri Mədət Quliyev Xarici İşlər Nazirliyinin Dövlət Protokolu İdarəsinin rəisi Pərvin Mirzəzadəyə anası

**LAMİYƏ MİRZƏZADƏNİN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

Sumqayıt Dövlət Universitetinin rektoru, professor Elxan Hüseynov və universitetin kollektivi Xarici İşlər nazirinin müavini, ADA Universitetinin rektoru Hafiz Paşayevə həyat yoldaşı

**RƏNA PAŞAYEVANIN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Azərbaycan Respublikası Maliyyə Nazirliyinin Dövlət Maliyyə Nəzarəti Xidmətinin kollektivi iş yoldaşları Arzu Tağıyevə anası

**XƏDİCƏ ABDULLA QIZI TAĞIYEVANIN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.


BAŞ REDAKTOR
Bəxtiyar SADIQOV

Ünvan



AZ 1073, Bakı şəhəri, Mətbuat prospekti, 529-cu məhəllə, IV mərtəbə
e-mail:
secretary@azerbaijan-news.az
az.reklam@mail.ru
azerbaijan-news@mail.ru
www.azerbaijan-news.az

Telefonlar

Qəbul otağı - 539-68-71,
Baş redaktor müavinləri - 538-86-86, 434-63-30, 538-97-96,
Məsul katib - 539-43-23,
Məsul katib müavinləri - 539-44-91,
Parlament və siyasət şöbəsi - 539-72-39, 539-84-41, 539-21-00,
İqtisadiyyat şöbəsi - 538-42-32, 538-35-55,
Beynəlxalq həyat, idman və informasiya şöbəsi - 432-37-68,
Humanitar siyasət şöbəsi - 538-56-60, 539-63-82
İctimai əlaqələr şöbəsi - 539-49-20, 538-31-11,
Fotoillüstrasiya şöbəsi - 538-84-73,
Kompüter mərkəzi - 538-20-87,
Mühasibatlıq - 539-59-33

Qeydiyyat nömrəsi 1

"Azərbaycan" qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, "Azərbaycan" nəşriyyatında çap edilmişdir

Rəsmi sənəd və çıxışlarda söylənilənlərlə bərabər, dərc üçün göndərilən digər yazılardakı fikirlər də Azərbaycan dövlətinin mənafeyinə uyğun gəlməlidir

Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Gündəlik qəzet

Tiraj 6718
Sifariş 1699
Qiyməti 40 qəpik